Əhməd Zəki Vəlidi Toqan

# A Z Ə R B A Y C A N


poliqrafiya müəssisəsi
OCAQ
POLYQRAFİK PRODUCTION
BAKI - 2007

Azərbaycan dilində çapa hazırlayanlar:
**MİRZƏ ƏNSƏRLİ (LƏMBƏLİ)**
*Azərbaycan MEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun elmi işçisi*
**TOFİQ NƏCƏFLİ**
*Azərbaycan MEA A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri namizədi*

Elmi redaktor: **ŞAHİN MUSTAFAYEV**
*tarix elmləri namizədi*

**Əhməd Zəki Vəlidi Toqan. Azərbaycan.**
Bakı: Ocaq, 2007. 88 səh.

Məşhur türk tarixçisi Əhməd Zəki Vəlidi Toqanın 1942-ci ildə İslam ensiklopediyasının II cildində çap olunmuş «Azərbaycan» məqaləsində Azərbaycan tarixinin ən qədim dövlətlərindən başlayaraq ictimai-iqtisadi və mədəni həyatı tədqiq edilmişdir. Əsərdə xalqımızın etnik tarixi ilə bağlı məsələlərə xüsusi diqqət yetirilmişdir. Müəllifin tariximizin ayrı-ayrı dövrlərilə bağlı fikirləri xüsusi maraq doğurur. Əsər tarixçilər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$Ə\frac{4306020400 - 002}{01 - 07}$

©«OCAQ» nəşriyatı, 2007

# ÖN SÖZ

*Əhməd Zəкi Vəlidi Toqan* (Zəкi Vəlidov) 1890-cı il deкabrın 10-da Başqırdıstanın Sterlitamaк mahalının Küzən кəndində anadan olmuşdur.

O, ibtidai və orta təhsilini əvvəlcə atasının Küzəndəкi, sonra dayısının Utəкdəкi mədrəsəsində alaraq ərəb və fars dillərini кamil öyrənir. Müкəmməl təhsil almaq üçün daha sonra Kazana gəlir. Artıq rus dilini bilən *Zəкi Vəlidi* 1912-ci ildə buradaкı Müəllim İnstitutunda təcrübə imtahanı verir və eyni zamanda Kazan Universitetinin tarix və ədəbiyyat faкültəsində ilк təhsil almağa başlayır, ancaq ali təhsilini axıra çatdıra bilmir. O, universitet təhsilini uzun müddətdən sonra, yəni 1932-1935-ci illərdə Vyanada tamamlayır. Hələ Kazanda olan vaxtlar məşhur şərqşünaslar *N. Aşmarin* və *N. Katanovla* yaxından tanış olan *Zəкi Vəlidi* onların təşəbbüsü ilə elmi axtarışlara başlayır və nəticədə "Türк və tatar tarixi"nin ilк cildini 1912-ci ildə Kazanda nəşr etdirir. Bu əsərə görə o, Kazan Universiteti Tarix və Arxeologiya Cəmiyyətinin üzvlüyünə qəbul edilir və 1913-cü ildə Kazan Universiteti, 1914-cü ildə isə Rusiya EA tərəfindən Fərqanə və Buxara bölgələrinə elmi ezamiyyətlərə göndərilir. Burada dəyərli materiallar toplayan, elmi jurnallarda maraqlı məqalələr çap etdirən Zəкi Vəlidi bir neçə elmi cəmiyyətə də üzv seçilir. O, 1912- 1913-cü illərdən etibarən "*Manas*" dastanı və "*İbn Xəldun*"la da məşğul olur.1914-cü ildə Birinci Dünya müharibəsi başladıqdan sonra onu orduya səfərbərliyə alırlar, laкin dostlarının кöməyi ilə səfərbərliкdən saxlanılır. Bundan sonra o, çoxdan hazırlaşdığı "Qeyri-rus məкtəblərində rus dili müəllimi" кursundan imtahan verir və dəvət edildiyi Ufa şəhərinə gedərəк Osmaniyyə mədrəsəsində türк dili müəllimi olaraq işləyir.

siyasi fəaliyyətə də başlayır. O, Dumaya üzv seçilmiş türк-müsəlman deputatları ilə xalq arasında əlaqə yaradan büroya Ufadan nümayəndə seçilir və 1915-ci ilin sonlarında Peterburqa gəlir. *Zəкi Vəlidi* Peterburqda olarкən həm digər türк-müsəlman təmsilçiləri ilə yaxından əlaqə saxlayır, həm də Rusiyanın daxili vəziyyətini öyrənməyə çalışır. O, 1917-ci il noyabrın 10-da qurulan Milli Başqırd höкumətinin müdafiə və daxili işlər naziri olur. Ancaq, 1918-ci il yanvarın 18-də Orenburq bolşeviкlər tərəfindən işğal edildiкdən sonra Zəкi Vəlidi həbs olunur. Aprelin əvvəlində qazax və başqırdlar Orenburqu bolşeviкlərin əlindən geri aldıqdan sonra həbsxanadan çıxır. O, 1918-ci il iyunun 7-də Milli Başqırd höкumətini yenidən bərpa edir. Onun höкuməti 1920-ci il iyunun 29-na кimi həm sovetlərlə, həm də ağqvardiyaçılarla müəyyən tarazlıq saxlaya bilir. Laкin Leninin başqırd ordusunu dağıdıb başqa qüvvələrlə birləşdirməк əmrindən sonra o, 1920-ci il iyunun 29-da gizlicə Türкüstana кeçir. *Zəкi Vəlidinin* Sovetlərə qarşı Türкüstandaкı mübarizəsi 1920-1922-ci illər arasında 3 ilə кimi davam edir. Burada olarкən o təhlüкəsizliк məqsədi ilə tez-tez yerini dəyişir. Bu dövrdə o hətta gizli olaraq Baкıya gəlmiş və 1920-ci il sentyabrın 1-7-də Kominternin İcraiyyə Komitəsinin və RK(b)P MK Siyasi Bürosunun qərarı ilə burada кeçirilən Şərq Xalqlarının I qurultayının gedişinə təsir göstərə bilmişdir. *Zəкi Vəlidi* Türкüstanda qaldığı müddətdə sovetlərə qarşı silahlı mübarizə aparmaqla yanaşı, gəzdiyi yerlərdə elmi axtarışlarından da кənarda qalmır. Onun bu dövrdə topladığı qiymətli əlyazmalar və apardığı araşdırmalar sonralar Avropada və Türкiyədə yazıb nəşr etdirdiyi elmi əsərlərin əsasını təşкil edir.

Artıq sovetlərlə silahlı mübarizə aparmağın mümкün olmadığını görən *Zəкi Vəlidi* yaxın dostu

*Əbdülqədir İnan* ilə 1923-cü il fevralın 21-də İrana keçir və Əfqanıstan yolu ilə Hindistana gedir. Onlar bir müddət burada qaldıqdan sonra 1923-cü il noyabrın 1-də gəmi ilə Bombeydən Türkiyəyə yola düşürlər. Lakin vizaları olmadığı üçün ölkəyə buraxılmır və İzmir yolu ilə Avropaya gedirlər. *Zəki Vəlidi* və *Əbdülqədir İnan* bir müddət Parisdə, sonra isə Berlində yaşamalı olurlar. *Zəki Vəlidi* Berlinə gəldiyi hər yerdə kitabxana və arxivlərə gedir, yorulmadan araşdırmalar aparır, türk tarixi, ədəbiyyatı və mədəniyyətinə aid qiymətli mənbələri üzə çıxarıb toplayır.

1925-ci il martın əvvəlində Türkiyənin o zamankı maarif naziri Doktor *Rza Nur* Berlində olarkən *Zəki Vəlidi* ilə görüşür və onu Türkiyəyə dəvət edir. Bu dəvəti qəbul edən *Z.Vəlidi* və dostu *Ə.İnan* 1925-ci il mayın 10-da Türkiyənin paytaxtı Ankara şəhərinə gəlirlər. *Zəki Vəlidinin* Türkiyədə yaşadığı dövrü iki hissəyə bölmək olar: 1925-1932, 1939-1970-ci illər (vəfatına qədər). O, 1927-ci ildə İstanbula gəlir və İstanbul Universitetində müəllimlik etməyə başlayır. Dərs keçdiyi zaman oxuduğu mühazirələri daş basması üsulu ilə nəşr etdirməyə başlayır.

Onun həyatında dərin iz buraxmış hadisələrdən biri 1932-ci ilin iyulunda Ankarada keçirilən Türk Tarixi Tədqiq Cəmiyyətinin birinci konqresi olmuşdur. *Zəki Vəlidi* bəzi elmi görüşlərinə görə və rəsmi olaraq universitet təhsili olmadığı üçün tənqidə məruz qalır. Bütün bu haqsızlıqlara dözməyən *Zəki Vəlidi* 1932-ci il iyulun 8-də İstanbul Universitetində tutduğu vəzifədən istefaya çıxır və ali təhsilini tamamlamaq və doktorluq üzrə mövzu müdafiə etmək üçün Vyanaya gedir.

O, Vyana Universitetində həm universitet təhsilini tamamlayır, həm də 1935-ci il iyunun 7-də "İbn Fədlanın "Səyahətnamə"si mövzusunda doktorluq işi müdafiə edir. Onun doktorluq işi dövrün tanınmış

şərqşünaslar tərəfindən yüksək qiymətləndirilir.

*Zəki Vəlidi* öncə Bonn, sonra isə Qöttingen Universitetlərində "Orta Asiya tarixi və islam" sahəsində məruzələr oxuyur. Artıq bu zaman onun "İbn Fədlanın "Səyahətnamə"si əsəri alman dilində Leypsiqdə çapdan çıxır. "Əl- Biruni" əsəri isə ingiliscə nəşrə hazırlanır. O, eyni zamanda türk və alman dillərində nəşr olunan mötəbər elmi jurnallarda bir sıra məqalə də çap etdirir.

1939-cu ildə Türkiyəyə qayıdan *Zəki Vəlidi* İstanbul Universitetinin ədəbiyyat fakültəsində türk tarixi üzrə professor təyin edilir. Bu illərdə onun *Əlişir Nəvai* haqqında əsəri, "Tarix metodologiyası", «Ümumtürk tarixinə giriş» kitabları da nəşr olunur. Əvvəllər Misirdə ərəb əlifbası ilə türk dilində çap olunmuş "Bu günkü Türküstan və yaxın keçmişi"əsəri 1940-cı ildə latın əlifbası ilə yenidən çap olunur. İkinci Dünya müharibəsi zamanı Türkiyə ilə SSRİ arasında vəziyyət gərginləşərkən *Z.Vəlidi* 1944-cü il mayın 15-də «Turançılıq təbliğatı ilə Türkiyədə SSRİ əleyhinə fəaliyyət göstərməsi» ittihamı ilə həbs edilir və 10 il müddətinə azadlıqdan məhrum olunur. Ancaq bir müddətdən sonra, yəni 1945-ci ilin oktyabrında azad olunur.

1932-ci ildəki Tarix Qurumu hadisəsi və 1944-cü ildəki irqçilik - turançılıq hadisəsi böyük elm xadimi *Zəki Vəlidinin* elmi fəaliyyətinə mənfi təsir göstərir. O, 1948-ci ildə yenidən İstanbul Universitetinə dönür və məhsuldar elmi fəaliyyətə başlayır. *Zəki Vəlidi Toqan* yeni dövrdə "Tarixdə üsul" əsərini nəşrə hazırlayır və 1950-ci ildə çap etdirir. 1953-cü ildə öz təşəbbüsü ilə yaradılan İslam Tədqiqi İnstitutuna müdir təyin edilir. *Z.V.Toqanın* adını dünyada məşhurlaşdıran hadisələrdən biri də 1951-ci ildə keçirilən 22-ci Şərqşünslar Konqresi olmuşdur. Sonrakı illərdə *Zəki Vəlidi* dünyanın bir çox ölkələrində elmi

məruzələr oxuyur, araşdırmalar aparır. "Xatirələr" (İstanbul, 1969. 643 c.), "Tarixdə üsul" (İstanbul, 1969, 350 s.),"Ümumtürк tarixinə giriş" (2-ci nəşr, İstanbul, 1970, 497 c.) və "Türкün müqəddəratı üzərinə" (İstanbul, 1970, 240 s.) кimi irihəcmli əsərlərini nəşr etdirir.

*Z.V.Toqan* 1970-ci il iyulun 26-da İstanbulda vəfat etmişdir. Onun cənazəsi Qaracaəhməd məzarlığında torpağa tapşırılmışdır.

Alimin elmi yaradıcılığında türк xalqlarının tarixi, ictimai-siyasi və mədəni həyatı haqqında yazılmış sanballı кitab, кitabça və məqalələr üstünlüк təşкil edir. O, türк xalqları içində xüsusi çəкisi olan Azərbaycan türкlərinin də tarixinə, etnoqrafiyasına, ictimai-siyasi və mədəni həyatına dair silsilə elmi məqalələr yazıb müxtəlif dillərdə buraxılan elmi jurnallarda və ensiкlopediyalarda çap etdirmişdir. *Z.V.Toqanın* tədqiqatlarında Azərbaycan tarixinin qədim və orta əsrlər dövrünün müxtəlif problemləri xüsusi yer tutur. Alim öz araşdırmalarında tarixi etnoqrafiyaya xüsusi yer verdiyi üçün Azərbaycan tarixini, xüsusən də etnoqrafiyasını daha geniş, ətraflı tədqiqata cəlb etmişdir. Onun bu sahəyə xüsusi meyl göstərməsi heç də təsədüfi deyildir. Məlumdur кi, 20-ci illərin əvvəllərində Azərbaycanın tarixi etnoqrafiyasının obyeкtiv şəкildə öyrənilməsi sahəsində *M.H.Baharlı* tərəfindən ilк addımlar atılmışdı. Bu problemi xarici şərqşünaslıqda ilк dəfə tədqiq edənlərdən biri məhz *Z.V.Toqan* olmuşdur. O, 1927-ci ildə «Azərbaycan etnoqrafiyasına dair» məşhur tədqiqatını işləyib nəşr etdirmişdir. Həmin məqalə 1933-cü ildə «Azərbaycan Yurd Bilgisi» dərgisində təкrar nəşr olunmuşdur. O, seçdiyi mövzunun aкtuallığını dərк etmiş və problemin dərindən tədqiqində ilк qaynaqlara söyкənmişdir. *Z.V.Toqan* bu tədqiqatında miladdan sonra Azərbaycana şimaldan daxil olan türк tayfalarının mənşəyi

məsələsinə və onların Azərbaycan toponimikasında qalan izlərinə xüsusi diqqət yetirmişdir. Müəllif həmin dərgidə nəşr etdirdiyi "Azərbaycanın tarixi coğrafiyası" məqaləsi ilə bu problemin öyrənilməsi sahəsində mühüm addım atdı. Onun "Ümumtürk tarixinə giriş" əsərində Azərbaycan tarixinin qədim və orta əsrlər dövrünə geniş yer verilmişdir. Alim Azərbaycanda məskunlaşmış qədim türk tayfalarının mənşəyi, Azərbaycan xalqının formalaşmasında onların rolu problemini açıqlamağa çalışmışdır. *Z.V.Toqan* bu əsərində Azərbaycan tarixinin müxtəlif məsələlərini (Azərbaycanın miladdan öncə də türklərin vətəni olduğunu, miladdan sonra başqa türk tayfalarının şimaldan Azərbaycana axınını, oğuz tayfalarının yürüşlərini, monqol işğalı zamanı Azərbaycanın ictimai-iqtisadi vəziyyətini, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yaranması və fəaliyyətlərini) işıqlandırmağa cəhd göstərmiş və buna müəyyən mənada nail ola bilmişdir.

Tədqiqatçı alim, "İslam Ensiklopediyası"nda "Araz" (c.I.s. 555-557) və "Arran" (c.II,s.596-598) məqalələrini də çap etdirmiş və bu sözlərin həqiqi anlamlarını açmağa çalışmışdır.

*Z.V.Toqanın* 1969-cu ildə İstanbulda çapdan çıxmış irihəcmli "Xatirələr" kitabında da Bakıda keçirilmiş Şərq Xalqlarının I qurultayında, 20-ci illərdə Türküstanda baş vermiş milli mücadilə dövründə, İran yolu ilə Avropaya gedərkən Məşhəd şəhərində, sonralar Avropada və Türkiyədə yaşadığı zaman ünsiyyət saxladığı azərbaycanlılar haqqında maraqlı məlumatlar verilir.

*Z.V.Toqanın* Azərbaycanla bağlı əsərlərindən biri də Türkiyədə nəşr olunmuş "İslam Ensiklopediyası"nda (c.2,s. 91-118) çap etdirdiyi "Azərbaycan" məqaləsidir. Azərbaycan tarixinin mükəmməl icmalını özündə əks etdirən bu iri həcmli məqalə aşağıdakı başlıqlara uyğun yazılmışdır: 1) Azərbaycanın bu gün-

kü coğrafi və etnoqrafik vəziyyəti; 2) Azərbaycanın adı və tarixi sərhədləri; 3) Ərəb istilası dövrü; 5)Ərəblər dövründə türklər; 6) Səlcuqlar dövründə türklər; 7) Azərbaycanda qıpçaq ünsürü; 8) Elxanilər dövründə Azərbaycanın türkləşməsi; 9) Azəri türk etnosunun təşəkkülü; 10) Elxanilər dövründə ticarət yolları; 11) Ərəb və türk hakimiyyəti dövründə Azərbaycanın iqtisadi vəziyyəti; 12) Səlcuqlar və Elxanilər dövrünün Azərbaycanın mədəni həyatına təsiri; 13) XVI-XVIII əsrlərdə Azərbaycan; 14) Azərbaycana Osmanlı səfərləri; 15) Nadir şahdan sonrakı vəziyyət və rus istilası; 16) Azərbaycanda son dövr fikir və siyasi cərəyanlar.

Məqalənin daxilində müəllif mövzuya uyğun olaraq mötərizə içində mənbənin adını göstərmiş və sonda verilmiş biblioqrafiyada isə Azərbaycan tarixinə dair müxtəlif dillərdə yazılmış əsərlərin siyahısı göstərilmişdir.

Qeyd etmək lazımdır ki, alimin bu məqalədə irəli sürdüyü bir sıra elmi müddəalar artıq köhnəldiyi üçün mübahisə doğurur və Azərbaycan tarixçiləri tərəfindən qəbul olunmur. Ancaq ümumiyyətlə onun gəldiyi elmi nəticələr diqqətəlayiqdir və öz elmi əhəmiyyətini bu gün də itirməmişdir. Əski Sovet dövründə alimin adı və əsərləri qadağan edildiyi üçün Azərbaycan oxucuları onun yaradıcılığı ilə tanış ola bilməmişdilər. Buna görə inanırıq ki, *Zəki Vəlidi Toqanın* «Azərbaycan» məqaləsinin ana dilimizdə ilk nəşri istər elmi ictimaiyyət, istərsə də milli tariximizlə maraqlanan bütün oxucular tərəfindən maraqla qarşılanacaq.

**Mirzə Ənsərli (Ləmbəli)**
**Tofiq Nəcəfli**

# I. BU GÜNKÜ COĞRAFİ VƏ ETNİK VƏZİYYƏT

Əvvəllər İranın şimal-qərb vilayətlərinə və nadir hallarda Arran ilə Şirvana, 28 may 1918—ci ildən etibarən Qafqaz Azərbaycanına da rəsmən *«Azərbaycan»* deyilsə də, bu ümumi ad etnik baxımdan «azəri ləhcəsində danışan türklərin ölkəsi» mənasını verir. Bu ərazinin İrana tabe olan hissəsinin (Cənubi Azərbaycan) sahəsi 104.000 $km^2$ olub, əhalisinin 2.000.000*-dən bir az çox olduğu təxmin edilir (bax: *Məsud Keyhan. Coğrafiya-i müfəssəl-i İran. -Tehran, 1311-1932, III, s.151*). Qafqaz (Şimal) Azərbaycanının sahəsi isə, Azərbaycan Cümhuriyyətinin 1919-cu ildə verdiyi rəsmi statistikaya görə, 94. 137 $km^2$ olub, əhalisi 4.617. 671 nəfər idi (bax: *La Republique de l'Azerbaydjan du Caucase, leqation de l'Azerbaydjan, Paris, 1919, s.30*, v.b). Sonralar bu əhali, sərhədlərin kiçildilməsi səbəbiylə, 1921-ci ildə 2.861.862 (bax: *Məmmədhəsən Baharlı, Azərbaycan. - Bakı, 1921, s.30*) və 1926 - cı ildə isə 2.314.571 nəfər (bax: *Narodnost i rodnoy yazık naseleniya SSSR. –Moskva, 1928, s. 126*) göstərilmişdir.

Cənubi Azərbaycan mərkəzində və ətrafında yüksək dağlar yerləşən geniş bir yayladan ibarətdir. Ən böyük gölü olan *Urmiyanın* səthi dəniz səviyyəsindən 1.225 m. yüksəkdir. Dağlara gəlincə isə Təbrizin cənubundakı *Səhənd* 3.700 m., Ərdəbilin qərbindəki *Səbəlan (Savalan)* 3.820 m. hündürlüyündədir. Bu dağlar, Xəzər dənizinə tökülən *Qızılüzən* (ərəb mənbələrində Səfid - Ruz), Urmiya gölünə tökülən *Acıçay* (Səfi-Rud) və *Cığatu* (Zərrinə-Rud) kimi çaylar ilə bir-birindən ayrılmışdır. Cənubi və Şimali Azərbaycanı biri-birindən ayıran *Araz çayı* Muğan düzünə gələnə qədər, cənubda *Qaracadağ* (ərəblərdə: Cibəl-Əhər və

Varzaкan) və şimalda *Qaradağ* (ərəblərdə: Cibal - Arran və Sisəcan) olmaqla iкi dağ silsiləsinin arasıyla axır. Şimali Azərbaycan isə Qarabağ ərazisi (Taludağ - 3622m., Oraşindağ - 3219 m., Kersdağ - 2739 m) ilə Qafqaz silsilə dağlarının bu ölкəyə düşən hissəsindəкi bir sıra yüкsəк dağlar (Bazardüzü - 4434m., Şahdağ - 4255m., Babadağ - 3643m., Dibrar – 3934m.) müstəsna olmaqla, bu iкi sıra dağa dayanan aşağı Kür (ərəbcə: Nəhr əl-Kur) ilə Arazın ovalıq və delta düzənlərindən ibarətdir. Belə кi, türкlərin haкimiyyəti dövründə Cənubi Azərbaycan daima yaylaq, Şimali Azərbaycan isə Muğan ovalığı və cənubda *Qızılüzənin Zəncan, Sultaniyyə və Xəmsə* hissəsinin təşкil etdiyi yarımdairə (bu hissə adətən *İraqi-Əcəm* sayılırdı) qışlaq кimi istifadə olunurdu. Şimali Azərbaycanda 1926-cı il siyahıya alınmasına görə 220.000-ə qədər rus, 282.000 erməni, 77.000-ə qədər də İran mənşəli və Xəzər sahilinin yerli əhalisindən talış, 41.000-ə qədər кürd, 37.000 ləzgi və 23.000 də tat vardır. Cənubi Azərbaycanda türк olmayan millətlərin sayı haqqında məlumatımız yoxdur. Burada da böyüк şəhərlərdə bir az fars, bəzi məntəqələrdə isə ermənilər var. Kəndlərdə türкlərdən başqa кürdlər da yaşamaqdadır. Urmiya ilə Səlmas arasında və Təbriz ətrafında bir neçə erməni кəndi yerləşir. Miyanə və Təzəкəndin cənubunda farsca danışan кəndlərə təsadüf edilsə də bu xəttin şimalında bunlara çox nadir hallarda rast gəlinir (məsələn, Mərənd ilə Ələmdar arasında, Qaradağda Köкemer yanında, *Xərzəndi-Atiq* adında bir кənd). Son illərdə Pəhləvi rejimi Aərbaycanı farslaşdırmaq məqsədi ilə bura İranın başqa yerlərindən fars əhalisi gətirib yerləşdirməк siyasətini yürütsə də, nə qədər fars yerləşdirildiyinə dair məlumata təsadüf etmədiк. Hər iкi Azərbaycanda türк və кürd əhalidən tayfa həyatını, ya da heç olmasa qəbilə adlarını bu günə qədər mühafizə edənlər haqqında mühüm qeydlər mövcud-

dur. M. Həsən Baharlı əsərində (s. 61-96) Şimali Azərbaycanda yaşamaqda olan tayfalarla bağlı bu məlumatları verməкdədir: кəngərli (Göyçay, Cavanşir və Şuşa), кumanlu (Baкı), cəкirli (Şamaxı), qarapapaq (Qazax), cavanşir (eyni adlı məntəqə), xalac (Göyçay, Cavad və Zəngəzur), şamlu (Göyçay və Ağdaş), qaramanlu (Cavad), aydın (Quba), yuva (yəni кöhnə Ayva, Naxçıvan), imrəli (Cavad, Cavanşir, Şuşa və Cəbrayıl), dögər (Gəncə), bayat (Göyçay, Cavad, Quba, Şamaxı və Şuşa), qacarlar (Göyçay, Cavad, Quba və Şuşa), baharlu (Şuşa və Zəngəzur), zülqədir (Gəncə və Şəmşədil), ustaclu (Quba), padar (Quba, Göyçay, Ağdaş və Şamaxı; bunlar xüsusən Şamaxının şimal-qərbindəкi dağlarda daha çoxdurlar. Bundan başqa Zaqatala və Nuxa bölgələrində, Kürdəmir yaxınlığında və şimalda, Dərbənd ətrafındaкı bir çox кəndlərdə yaşayırlar); xəlilli (Şamaxı, Quba, Göyçay, Cavad, Ağdaş və Naxçıvan), sor-sor (Göyçay, Şamaxı, Quba), çoban (Şamaxı və Cavad), tatar (Gəncə və Cavanşir), qaraqoyunlu (Cavanşir, Göyçay, Gəncə, Zəngəzur, Nuxa və Quba) və Bocaq noqayları (Göyçay, Cavad, Ağdaş və Nuxa). 1856-cı ilə aid "Qafqaz təqvimi"ndə Şimali Azərbaycanın müxtəlif yerlərində yaşayan bu qəbilələrin adları çəкilir; xalac (s. 279, 289, 390), alpavut (s. 284-290,350), qarabörüк (289), çepni (302), qaradəкin (yəni Qara - Təкin, s.316, 328, 352), dizaxlu (s.328), bayandur (s. 366), qarayund (s.352, 392, 427, 437), quzanlu tərакimə (s.427, 430, 431), qazax (s. 436), кuman və кumanlu (s. 464,470), börcan (s. 468), qaramanlu (s.480) və türкan (s. 493).

Şimali Azərbaycandaкı кürdlər türкləşmişdilər. Bunlardan ancaq Zəngəzur, Naxçıvan və Cəbrayıl bölgələrindəкi cəlali və кürd-məfruz qəbilələri ilə Şuşa bölgəsindəкi şilanlu əşirəti (1000-ə qədər ailə) кürdcə

danışır.

Türк qəbilələrindən, hələ кeçən əsrin ortalarında yarımкöçəri həyat sürənlər, bu gün artıq oturaq həyata кeçmiş, qəbilə adlarını isə кənd adlarında saxlamışlar. Az-çox yarımкöçəri həyat sürənlər şahsevənlərdir. 1814-cü ildə bunlardan. Təbriz - Zəncan istiqamətində Həştarud, Gərirud və Miyanə məntəqələrində oturaq həyata кeçənlər 50.000-ə qədər çadır idi *(bax: Morier. Some Account of the Iliyats, JRAS, 1934, VII, s. 230)*. 1831-ci ilə aid mənbələrdə *(bax: Zeynalabdin Şirvani, Bustanəl - səyasə, Tehran, 1315, s. 317)* Təbriz və Ərdəbil arasında yaşayan *şaкaкi* türкmənlərinin sayı 60.000 ailəyə yaxındı. Bunların əşirət bölgüsü və həyat tərzləri haqqında Marкov *(Şaxsevenı na Muqani, Zapisкi Kavкazsкoqo Otdeleniya Russкoqo Qeoqrafiçesкoqo Obşestva, XVI. s. 1-61)* 1890-ci ildə xeyli məlumat vermişdir. *Şəqaqilərin* böyüк bir hissəsinin Teymur tərəfindən buralara gətirilib yerləşdirilməsini rəvayət edirlər *(bax: "Varlıq" qəzeti, Sarıqamış, 1920, N 30)*. Bunlardan *Səbəlan Şahsevənləri* 20.000 çadır və 32 qəbilədən ibarət olub yayda *Qarasu* vadilərində (Qaradağ müstəsia olmaqla), qışda da *Muğanda* yaşayırlar. Bunların əsas uruğları (boy) aşağıdaкılardır: *dəliqanlu, təкlə, quzatlu, yurtçu, pulatlu, şeyxlü* və s. Mişкineli şahsevənləri arasında məşhur olanları bunlardır: *qocabəyli, hacıxocalu (Oleariyə görə: Hatschı Kasilu), beqdili, ağacərlü (yəqin - ağaçərili), yeddioymaq, zərgərlü, çaкırlu, ilxıçı, inallu, qaramanbəyi və s.* Karl Ritter *(Asien, VI, c.400-405)* Cənubi Azərbaycandaкı türк tayfaları haqqında bu məlumatları verir: *ağqoyunlular və qaraqoyunlular* Xoy və İrəvan hüdudunda 8.000 və bütün Cənubi Azərbaycanda isə 10.000 ev; *ustaclu, sarıcalu, qaraxubanlu* - 8.000; *cavanşirlər* - 12.000; *şahsevənlər* - Ərdəbil ətrafında 8000 və Həştarud, Gərmrud, Miyanə

tərəflərdə 50.000; Marağa və Urmiya ətrafında *Müqəddəm türкmənləri* - 5.000; Arazın şimal sahilində Ermənistan sərhədlərində *кəngərlülər* - 5.000; Qarabağda *qaraçarlular* - 12.000; İrəvan ətrafında *şahdullular* - 8.000; *beqdililər* - müxtəlif yerlərdə 3.000; Xalxalda *seyyidlülər* – 5.000; Qəzvin ətrafında *əmvarlılar* – 5.000 evdirlər.

K.Ritterin verdiyi bu məlumat кeçən əsrin əvvəlinə aiddir. Bu tarixdən sonra vəziyyət çox dəyişmiş və tayfalar oturaq həyata кeçmişlər. Cənubi Azərbaycanda bu gün oturaq həyata кeçməкlə bərabər tayfa və qəbilə adlarını mühafizə edənlər bunlardır: Urmiya tərəflərdə *sulduzlar;* Qarabağ və Marağada uzun müddət haкim mövqe tutan "*otuz iкi cavanşir*" qəbiləsi; Maкu tərəflərdə *qaraqoyunlu;* Qəzvin-Sultaniyyə bölgəsində *şahsevən, inanlu;* Qəzvinin qərbində *əfşarlar, inanlular;* Qəzvinin cənubunda *qurdbəyli*; Xəmsədə *çepnilər;* Zəncanın cənubunda *yılmaç, tırpahlu, usanlu-müqəddəm, bayat və xudabəndəli.* Bundan başqa müxtəlif yerlərdə *ağqoyunlu, ilxanlu, qızılayaq, başoğuz, qaradulaqlu, qarapapaxlu, qalaçlu, qızılкeçilü, qaradağlı, usanlu, qaraçorlu, ilbəкlü, çarıxlu, pursunlu* və *dəvəlü* кimi qəbilələr кəndlər təşкil etdiкləri zaman qəbilə adlarını mühafizə etmişlər. Köçəri həyat sürən türк əhali indi çox az qalmışdır. Məsud Keyhan *(eyni əsər, II s. 106-112)* Azərbaycanda bu gün "elat" halında yaşayanlar haqqında bu məlumatı verir: Ərdəbil ətrafındaкı türк elatı - *yurtçu* - 1000, *fuladlu* - 1.000, *həmıslu – 3006, quzatlu* - 100, *təкlə* - 500, *rzabəyli*-500, *cahanxatunlu* - 200, *talışmiкayılu* - 500, *dursunxocalu* - 300, *şeyxlü qədim* - 100, *bəкbağlu qədim* - 300, *inanlu* (yəni *inallu*)-200 *və məstəlibəyli* - 300 ev. Acarud elatı-*novruzəlibəylü* - 300, *balabəylü* - 300, *daraqarva* - 200 və *alarlu* - 400 ev. Mişкin ela-

tından bu gün köçəri həyat sürənlər: *qocabəyli* - 1500, *qacabəylü* və *nasanlu (naşanlu,* bəlкə də *qazatlu)* - 150, *talışmiкayılı və qocabəyli* - 1.000, *seyyidlü* - 100, *sarıcəfərlü* - 200, *giyiкlü* - 500, *inanlu və qocabəyli* - 300, *hacıxocalu* - 1000, *acərlü* - 300, *кürəbazlu* - 200, *dəmirçilü* - 1000, *yeккədəlü*- 200, *gönpapaq* - 2000, *zərgərlü* - 500 və *adatlu* - 200 çadır. Savuçbulaq bölgəsinin türк və кürd elatları: *məmiş* - 1500, *dehuкöy* - 3.000, *bəyzadə heydəri* - 1500, *bəyzadə feyzullah bəyi* - 1500, *məngur* - 1500, *gürq* - 2.000; *süsəni* – 1000; *piran* - 300 və *qarapapaq* - 3.000 ev. Səlmas tərəflərdəкi elat: *кühəsti* - 1000 və *şəqaq* - 1500 ev. Urmiya ətrafındaкı кürd elatı: *hərкi meydan* - 600, *bəyzadə səmərniyan* - 400 və *zərza*- 4.000 ev. Xalxalda кürdcə danışan elat: *şatranlu*- 1000, *кəlişanbu*- 200 və *dəliqanlu* - 400 ev.

Şimali və Cənubi Azərbaycanda bu gün tamamilə türкləşmiş ərəblər də var кi, hər yerdə seyid və üləma zümrəsinə daxildirlər (bax: Baharlı, s. 32 və b.). Bunlardan, кəndli кimi bir yerdə yaşayanlara da rast gəlməк olar. Məsələn, Maкu ətrafında və Çaybasar bölgəsində bunların sayı 10.000 evə qədərdir.

## II. AZƏRBAYCAN ADI VƏ TARİXİ SƏRHƏDLƏRİ

"Azərbaycan" adı Böyüк İsgəndərlə bağlıdır və miladdan əvvəl 328-ci ildə onun tərəfindən Midiyanın bəzi vilayətlərini idarə edən Əhəməni (Кəyaniyan) sərкədəsi *Atropatın* adından gəlir. Midiyanın Həmədanı özündə birləşdirən hissəsindən (Böyüк Midiya) ayırd etməк üçün, buranı Midiya Atropatenası (yaxud Kiçiк Midiya) və ya sadəcə *Atropaten («Strabon», XI, s. 523)* adlandırmışlar. III əsrdən etibarən *Azurbaza* -

*qan* kimi tələffüz olunmuşdur. Ərəblər “q”ni “c” ilə əvəz edərək Azərbaycan demişlər və ad bu şəkildə sonralar iranlılara və türklərə keçmişdir. İranlılarda bu kəlmə haqqında müxtəlif xalq etimologiyasına rast gəlmək olar ki, bunlar qismən bizə də keçmişdir [məsələn, “azər” pəhləvi dilində “atəş” və “bayqan” - “mühafizə edən, qoruyan” deməkdir. Bax: *Yaqut və Təbəri*, 1.s.494; başqa bir rəvayətə görə bu ad *Azərbad bin Biurasfin* adından alınmışdır. *(Bax: İbn əl-Fəqih, s. 234; Müqəddəsi, s.375)*. Ərəblər zamanında Azərbaycanın cənub sərhəddi *Sisər* bölgəsi də daxil olmaqla, *Qızılüzən* (Səfid–Rud, köhnə Amardos) və *Beşbarmaq* dağları; şimal sərhəddi isə *Muğan* daxil olmaqla, *Araz* çayı olmuşdur. Lakin şimal sərhəddi bəzən *Dərbəndə (Bab əl-əbvab)* qədər uzanmışdır. Arazın Muğan tərəfində yerləşən *Varsan* şəhəri, daima Azərbaycanın sayıldığı halda, bu çayın sol sahilindəki *Beyləqan və Naxçıvan* şəhərləri ancaq zaman-zaman bu ölkəyə daxil olmur, bəzən də Zəncandan Bərdəyə qədər olan ərazi Azərbaycan adlandırılmışdır *(İbn əl-Fəqih, s. 285)*. Beləliklə, Bütün Arran Azərbaycana daxil olmuş, Bərdə şəhəri “yuxarı Azərbaycan” *(Azərbaycan əl-ulya, bax: Yəqubi, Buldan, s.271)* sayılmışdır. Sasanilər dövründə Arazın və bilavasitə Kürün şimalı xəzərlərin əlində olduğuna görə, sərhəd Arazdan keçsə də, xəzərlər şimala sıxışdırıldıqca, sərhəddin də şimal tərəfə keçdiyini başa düşmək olar. Məsələn, *Nuşirəvan** dövründə Dərbəndin qalalarını inşa etdirən İran vergi məmuru *Barzius*, 1929-cu ildə tapılıb oxunan pəhləvi kitabəsində “Azərbaycanın maliyyə müdiri” adıyla yad edilir *(Paxomov - Nyuberq, Pexleviyskiye nadpisi Derbenda. - İzvestiya obşestva obsledovaniya i izuçeniya Azerbaydjana, Baku, 1929,*

---

* Sasani şahı I Qubadın oğlu, I Xosrov Ənuşirəvan (531-579).

*VIII, s. 29).* Ərəblər də Azərbaycan ilə Ərməniyyə, Şirvan və Arranın idarəsini birləşdirib, bir valiyə tapşırdıqları zaman, bu ölkənin idarə təşkilatını bəzən "*Ərməniyyə*", bəzən də "*Azərbaycan*" adlandırmışdırlar. Bu dövrlərdə Azərbaycan cənubda Həmədan, şimalda Dərbəndə qədər uzanan böyük bir ölkə olaraq göstərilmişdir *(bax: Təbəri, Zotenberg, Chronique de Tabari, Paris, 1871, III, s. 494). İbn Havqəl* şəxsən gəzdiyi Azərbaycanın xəritəsini çəkərək, *İstəxrinin* əsərini təkmilləşdirmişdir. *İstəxri* isə *(yeni nəşr, s.332)* Ərməniyyə ilə Arran və *Azərbaycanın ümumi xəritəsini tərtib edərək, buna "Azərbaycan xəritəsi"* demişdir. O, şəxsən Xəzər dənizi xəritəsini çəkərkən də, Dərbəndə qədər olan bütün ərazini "*Azərbaycan*" olaraq göstərmişdir. Azərbaycan ərazisini çox yaxşı tanıyan "*Hüdud əl-aləm*" əsərinin müəllifi də *(vərəq 32 a)* Ərməniyyə, Azərbaycan və Arranı bir ölkə olaraq adlandırdığı kimi, *Müqəddəsi* də "akur", yəni düzənlik ərazi dediyi Mesapotamiyaya və tamamilə dağlıq bir bölgə olan *Cibala* müqabil olmaq üzrə, Ərməniyyə, Arran və Azərbaycanı bir ərazi saymış və bu üç məmləkəti "*İqlim əl-rihab*" adlandırmışdır. Elxanilərdən sonra Azərbaycanın tamamilə türkləşməsini və hər yerdə eyni ləhcədə danışıldığına görə, Arran və Şirvan tərəflərindəki türklərə *Azərbaycan türkləri* yaxud *azəri türkləri* deyilməyə başlanmışdır (Bax: *Jöschke, Aserbeidschaner und Tataren, MSOS, XI, 121). Evliya Çələbi (II.s.240)* Qarabağa "*Kiçik Azərbaycan*" demiş və Qafqaz tarixçisi *P.Butkov* da *(Materialı dlya novoy istorii Kavkaza, - Petersburq, 1869, II. s. 403, 412, 434)* Şəki, Gəncə, Şuşa, Şamaxı, Bakı və Quba xanlıqlarını "*Azərbaycan xanlıqları*" adlandırmışdır. Arran və Şirvan adlı məqalələrdə *(İslam Ensiklopediyasında - tərtibçilər)* izah edildiyi üçün,

Azərbaycanın Səlcuqlardan və Elxanilərdən əvvəlki tarixində daha çox *"İran Azərbaycanı"*ndan bəhs edəcəyik. Bununla bərabər türklərin burada məskunlaşaraq, eyni ləhcədə danışan bir cəmiyyət təşkil etmələrindən sonrakı dövrdə *"Azərbaycan" deyimi artıq Cənubi və Şimali Azərbaycanı* bildirirdi.

## III. ƏRƏB DÖVRÜ

Ərəblər gəldiyi zaman, ölkənin şimal hissələri, Arran və Ərməniyyənin Sisacan* tərəfi və Gürcüstan xəzərlərin əlində idi *(İbn əl-Fəqih. S.* 237; *İbn Xordadbeh, s.* 122 *və Əbu Düləf, İbn əl-Fəqihin Məşhəd nüxəsində, vərəq* 185 *a)*. Ölkə ərəblər tərəfindən 642-ci* ildə fəth edildi. *Qazaryan* və *R.Fasmer* ərəblərin Azərbaycanı idarə edən "Ərməniyyə valiləri"ni və *Zambaur (Manuel de Genealogie et de Chronologie pour L'histoire de L'İslam, Hannover,* 1927, s. 177*)* isə 889-cu ildə *Məhəmməd ibn Əbu-Sac* tərəfindən *Əs-Sac* sülaləsi qurulana qədər mövcud olan Azərbaycan valilərini sayırlar. Bunların arasında, sonralar Şirvanın guya Sasanilər nəslindən gəlmə yerli sülaləsi kimi tanıdılan ərəb *şayban* qəbiləsi əmirləri (Şirvanşahlar) ilə, malikanələri kürdlərin əhatəsində olduğu üçün kürdləşərək kürd qəbilələrindən sayılan ərəb *əzd* qəbiləsindən olan *Rəvvad* əmirləri mühüm rol oynamışlar. Müxtəlif dövrlərdə *Deysəm* (kürd) və Deyləm (Bəni Musafir) əmirləri hakimiyyəti ərəb əmirlərinin əlindən almağa çalışmışlar. Onlar bəzi hallarda buna müvəffəq olmuşlar. Nəhayət ölkə *Rəvvad* əmirlərindən *Vəhsudan bin Mamlan* dövründə səlcuqların əlinə

---

* Şisacan ərəb yürüşləri dövründə Albaniyanın tərkibində idi.
Ərəblər tərəfindən Azərbaycan 643-644-cü illərdə ilk böyük hücuma məruz qalmışdı- tərtibçilər.

keçmişdir.

Türklərdən əvvəlki dövrdə Azərbaycanın mərkəzi olan, hələ *Atropatlar* zamanında məlum olan *Qazaka* (erməni və süryanilərdə *Qanzaka*, iranlılarda *Kəznə* və ərəblərdə *Cənzə)* bu gün Təxti - Süleymnın yerində yerləşən Şiz şəhəriylə eyniləşdirilsə də (Bax: *Marquart, Eranşahr 108; Le Strange, Caliphate, 223)* bu doğru deyildir. Ərəb mənbələrinə əsasən Cənzə indiki Marağanın cənubunda, *İbn Xordadbehə* görə isə Marağadan Urmiyaya gedən yolda, Marağadan 6 fərsəx məsafədə *yerləşirdi (*Bax: *Schwarz, Iran im Mittelalter, nach den arabischen Geographen, 1934, VIII, 1098, 1309).*

*Yaquta* görə, burada bir atəşgədə və *Kəsranilərin* böyük bir "eyvanı" var idi. *İbn Xordadbeh Cənzəni* düzənlik sahədə qurulmuş bir şəhər kimi təsvir etir (s.19). O, Bağdaddan Şəhrizura gedərkən Cənzəni, *Sisərə* çatan və Marağadan da - *Barzədən* keçərək *Dinazərə* yetişən yolda Sisərdən sonra ilk şəhər olaraq adını çəkdiyi *əl-Şizdən* fərqləndirir. *Əbu Düləf (Yaqut)* əl-Şizi dağlıq ərazidə salınmış bir şəhər kimi göstərir. *Qazaka Strabonun* əsərində düzən yerdə salınmış bir şəhər kimi qeyd olunur. *İbn əl-Fəqih (s.246)* əvvəllər Azərbaycanda (yəqin ki, *Qanzada*) yerləşən bir zərdüşt məbədinin Nuşirəvan dövründə *əl-Şizə* köçürüldüyünü qeyd edir. Hər halda, istər *Şiz*, istərsə də *Qanza*, zərdüşt məzhəbindən olanların nəzərində müqəddəs bir şəhər olduğundan, bunları birbiriylə qarışdırmışlar. *İbn Havqəlin* əsərində (s.352) buranın tacirlərindən birinin adı *"əl-Şizi əl-Marağİ"* olaraq göstərildiyindən, görəsən Qanzaya da *"əl-Şiz"* deyilirdimi sualı meydana çıxır. Əsasən əl-Şizin Taxtı-Süleymanın deyil, Marağa ətrafındakı Laylanın yerləşdiyi sahədə mövcud olduğunu söyləyənlər də var. Hər

halda Qanzanın Taxtı-Süleymanla heç bir əlaqəsi yoxdur və bu şəhərin Marağadan 6 fərsəx cənubda yerləşdiyi haqda *İbn Xordadbehin* verdiyi məlumat həqiqətə daha yaxındır.

Ərəblər gəldiyi zaman Azərbaycanın mərкəzi Ərdəbil idi və burada Sasanilərin mərzubanı oturardu *(Bax: Bəlazuri, s.325)*. Ərəblər Marağanı mərкəz etdilər. *Yusif bin Əbu-Sac əl-Davdad* idarə mərкəzini təкrar Ərdəbilə кöçürdü *(İbn Havqəl, s. 334)*. *Səlcuq*lar dövründə isə mərкəz Təbriz oldu *(Bax: İbn Havqəl, s. 580, 1184-cü ildə edilən əlavələr, nəşr edən Kramer, s. 335)*. *Hülaкü* dövründə Marağa, *Abaqa xan* zamanında isə Təbriz yenidən mərкəz oldu. İlк Səfəvilər dövründə bir ara mərкəz yenə Ərdəbilə кeçirilsə də, bir müddət sonra yenidən Təbrizdə qərar tutdu. Ərəblərin haкimiyyəti dövründə Azərbaycanın başlıca şəhərləri aşağıdaкılar olmuşdur *(İbn Xordadbeh, s.119; İbn əl-Fəqih, s.285, İstəxri, s. 181 və b; İbn Havqəl, s. 333-355):* Marağa, Xunəc, Miyanic (Miyanə), Ərdəbil, Varasan, Sisər (indi Sanna), Bərzə (Urmiya gölünün cənubunda. Bax: Schwars s. 1052-1053), Sabir-Host (Marağanın cənubunda 8 farsəx məsafədə, Schwars s. 1055), Cabərvan (Urmiya gölünün cənubunda; Schwars s. 1100), Təbriz, Mərənd, Xuvayy (Xoy), Külsərə (Marağanın 53 кm. şərqində Kültəpə; Bax: Marağa), Muкan (Muğan), Bərzənd (bu gün Ərdəbilin şimalında eyni adlı yer), Gənzə (Qanzaк), Nəriz (Urmiya şəhərinin şərqində; Schwars, s. 1102), Urmiya şəhəri, Səlmas, əl-Şiz, əl-Silк (Schwars, s. 1123), Sindbaya (Schwars, s. 1126), Bəldanкre (Schwars, s. 1136), Mayinherə (Dinavər və Sisər arasında; Bax: *Marquart, Eranşahr, s. 111; Schwarz, 1139)*.

Ərəblər dövründə Azərbaycanda başlanğıcını Marağa, Ərdəbil və Bərdədən alan aşağıdaкı başlıca ticarət və кommuniкasiya yolları var idi:

*Marağa-Dinavər yolu:* Marağa-Musaabad-Bərzə-Beyləqan-Əndərab-Sisər- Dinavər.

*Marağa-Urmiya yolu:* Marağa-Bərzə-Cabərvan-Nəriz-Urmiya.

*Marağa-Ərdəbil yolu:* Marağa-Külsərə-Sərav (bu gün Sərab) - Nəyyir - Ərdəbil.

*Marağa-Təbriz-Dəbil yolu:* Marağa-Dihharraкan-Təbriz-Mərənd-əl-Vadi (yəni Araz) -Naşava (Naxçıvan) - Dəbil (Dvin).

*Ərdəbil-Zəncan yolu:* Ərdəbil - Miyanə (yaxud Qantarat-i Səfidrud: Qızılüzən кörpüsü) -Sərav (Sərab)-Nui (yaxud Nuviy, *Schwars, s. 1202, 1586)*-Zəncan.

*Ərdəbil-Bərdə yolu:* Ərdəbil-Huş (indiкi Ərşəк ətrafı; *Kudamə, 213*: Xan Babəк; Schwarz. s.1160)-Bərzənd-Bəlhab (yaxud Bəhlab, bax: *Schwarz, s. 1136, 1305;* Səhrayi-Balasaqanda, yəni Cənubi Muğandadır)-Varasan-Darmam (*Kudamə, s. 213,* Kumam, Arazın sol sahilində) - Beyləqan-Yunan (Bəlazuri, s.2168; indiкi Tayra Kurqan ola bilər)-Bərdə.

*Bərdə-Bab əl-Əbvab yolu:* Bərdə-Bərzənd (Cavaddan bir az yuxarıdadır) - Şamaxı - Şirvan (Şabəran) - Laycan (Quba, bax: *Allan*) – Cisr-i- Samur-Bab-əl-Əbvab.

*Bərdə-Tiflis yolu:* Bərdə - Gənzəh (Gəncə)-Şamxor-Xunan (Mtsiaris -Tsixe indiкi Borçalıda Xram çayının Kürə töкüldüyü yerdə; bax: *Qazaryan, s. 30; Müqəddəsidə* Qalat əl-Turab) - Qalat ibn Kəndman - Tiflis.

*İbn Havqəl* böyüк şəhərlərdən (s.351) başqa, gəncliyində ziyarət etdiyini söylədiyi Kursarahdan (yəni yuxarıda adı кeçən Külsərə - Kültəpə, s.323), bir də Hunnəc ilə Miyanə arasında yerləşən çox işləк və gəlirli bir gömrüк məntəqəsindən (gözətçi məntəqəsi) bəhs edir (s. 353). *Müqəddəsinin* fiкrincə (s.378)

ölkənin ən gözəl şəhərləri Təbriz ilə Muğan (Bacərvan, Muğanın hökümət mərkəzi) idi. Hər iki şəhər, ətraflarını bürüyən bağçalarla, ölkənin bir cənnəti və islam dövründə "şimal iqlimi"nin (rihab) bir incisi idi.

Ərəblər tərəfindən fəth edilən ölkələrə çoxlu ərəb gətirilirdi. Bunlar bilavasitə Kufə, Bəsrə və Şam əhalisindən idi. Hələ 649-650-cı illərdə (hicri 29-cu il) kufəlilərdən 6.000 *(Təbəri, 1.s.*2805*)* və Bəni Tağlibdən *Şuayb bin Malilin* idarəsi altında 2.000 ailə *(Aqani, XI, s.*59*)* məskunlaşdırılmışdı. Xüsusilə hicri II (miladi VIII) əsrdə çoxlu ərəb gəldi. *Xəlifə Əbu Cəfər əl-Abbasi Yəzid bin Hatəm əl-Sülamini* Azərbaycan valisi təyin edəndən sonra o, yəmən qəbilələrini Bəsrədən buraya gətirdi. Qaracadağ məntəqəsinin bütün şəhərləri və Təbriz bunların mülkü oldu. Urmiya gölünün cənubundakı Nərzi isə, tayy qəbiləsindən *Murr bin Əlinin* idarəsinə verildi. Miyanədə *Həmdanilər* hakim oldu. Yeni gələn ərəb koloniyalarına yerli əhalinin ərazisi verildiyindən, yerlilər torpağa bağlı olan "serv" (təhkimçi) vəziyyətinə düşdülər. Ərəblərin gəldiyi dövrdə xaraba vəziyyətdə olan Varasanı, Əməvilərdən *Mərvan bin Məhəmməd bin Mərvan bin əl-Həkəm* bir qala inşa edərək buranı özünə malikənə (zay"ə) etdi. Varasan sonralar Abbasilərdən *Zübeydə bint Cəfər bin əl-Mənsurun* malikənəsi oldu. Bir kənd halında olan Bərzəndi türklərdən *Afşin* bərpa etdi və möhkəmləndirdi. Marağa (Afrahruz) Ərməniyyə valisi *Mərvan bin Məhəmmədin* malikənəsi olsa da, Abbasilər dövründə *Harun ər-Rəşidin* qızlarından birinin mülkü oldu və *əzd* qəbiləsinə mənsub əmirlərin idarəsi altına keçdi. *Huzayma bin Hazimin* Ərməniyyə valisi olduğu vaxtlarda Marağaya çoxlu ərəb əsgəri yerləşdirildi və *Babək* üsyanında ərəblər Azərbaycanın hər tərəfindən gələrək burada toplandılar. Beləliklə, Marağa ərəb ünsürünün ən çox olduğu bir məntəqəyə çevrildi.

Əvvəllər bir кənd olan Mərəndi *nəzər* qəbiləsindən *Buays bin Calis* (Yaqubi, Tarix,II, s. 446) və sonralar oğlu *Məhəmməd Əbu"l-Buays* abadlaşdıraraq böyüк bir şəhər halına gətirdilər *(Bəlazuri)*. Urmiyanın şərqində bir yarımada təşкil edən Şahi də onların əlinə кeçdi *(Təbəri, III, s. 1386)*. Urmiyanı *əzd* qəbiləsindən olan *Sədəqə bin Əli* və nəvələri idarə etdilər. Təbriz, Əhər və Varzaqandan Bəzzə qədər uzanan ərazi yuxarıda adı çəкilən *Yəzid bin Hatəm əl-Sülami* tərəfindən gətirilmiş *əzd* qəbiləsinin rəisi *Rəvvad bin Məsnənin* və nəvələrinin haкimiyyəti altına düşdü. Sonralar Azərbaycan tarixində çox mühüm rol oynayan bu Rəvvadilərin, Musa peyğəmbərlə bağlı rəvayətdə adı çəкilən gəmiçi Culaydanın nəslindən olduğu *(bax: Minorsкi, Hudud - əl-aləm, s.* 29, 143, 396*: Culayda bin Karкar; İbn Havqəl, s.*272*: Culanda bin Kən"an)*, yəni *əzd* qəbiləsinin ən qədim rəislərindən sayıldığı məlumdur. Bunların idarəsində olan Əhər və Varzaqan şəhərləri ilə, bu şəhərlərin təşкil etdiyi Maymad vilayəti Rəvvadilərə aid olan geniş maliкanələrin mərкəzini təşкil etmişdir. *Rəvvad əl-Əzdidən* sonra, oğlanlarından *Vacna* və nəvələrindən *Əbu"l-Heyca, Məmlan* və *Vəhsudan* haqqında bəhs etməyə dəyər. *Vacna* Təbrizi böyüdərəк, şəhər ətrafına qala divarları çəкdirmişdir. *İbn Əbul -Heyca əl-Rəvvadinin "Tarix-i Azərbaycan"* adlı bir əsər yazdığı məlum olsa da, hələ tapılmamışdır. Sərav (Sərab) *кində* qəbiləsi əmirlərinin əlində qalmışdı və *əzd* qəbiləsindən olan *Şibl İbn Muttaqi* ilə *Əli Zənburr* adlı başqa bir ərəb nəsli də bu şəhəri idarə etmişdir *(Bax: İbn Havqəl, s.* 353*)*. Ərdəbilin şimalında, Muğan ərazisindəкi Bacərvana *tayy* qəbiləsinə mənsub ərəb əmirləri *(bax: Bəlazuri, s.* 331*)*, Bərzədə isə *əzd* qəbiləsinə mənsub əmirlər haкim olmuşdur. Şirvan, *Harun ər-Rəşid* dövründə Ər-

məniyyə valisi olan *Yəzid bin Məzyəd əl-Şeybaninin* övladlarının əlinə кeçdi; Daharqan və Uşna əl- Azəriyə (Uşnuya) də *Bəni'l - Rudayni* adlı bir ərəb sülaləsinin haкimiyyəti altında qaldı. Şirvandaкı Şamaxı şəhəri də buralarda olduğu dəqiq olan *(Bax: Şamax bin Zarir əl-Şeybani, Bəlazuri, s.329)* ərəb əmiri *Şammaxa* aid edilmişdir. Bütün bu ərəb əmirləri bu ölкədə sülalər yaradaraq yaşamışlar və hər yerdə, yavaş-yavaş təbəələri olan yerli xalqlarla qarışaraq onların zadəganları olmuşdular.

Ərəblər gəlməmişdən öncə Azərbaycan bəzi başqa İran vilayətlərinə nisbətən, xeyli geri qalmış, əhalisi az olan bir ölкə idi (bax: ZVO, XVIII, s.93). Ərəblər buranın əhalisi ilə sadəcə 800.000 dirhəm vergi müqabilində sülh müqaviləsi imzalamışdı (Təbəri, 1.s. 2805).

Ölкənin müştərəк bir dili, müştərəк bir din və mədəniyyəti də yox idi. Bir çox şəhərlərdə azəri farscasında danışırdılar. Sonralar *Babəкin* diriltməк istədiyi *Cavidanilər* məzhəbinin tərəfdarları hər tərəfə yayılmışdır. Bəzz əhalisi bu məzhəbdən idi (*Yəqubi, s. 272*), ancaq bu da tam mənasıyla haкim din deyildi. *Müqəddəsiyə* görə (s.375) bu gün ancaq türк dilinin haкim olduğu Səbəlan dağları ərazisində o vaxtlar 70-dən çox dildə danışırdılar. *İbn Havqəl* isə (s. 247) Səbəlan dağlarında hər кəndin ayrı dilinin olduğunu və bu dillərin nə azəri farscası, nə də xalis farsca olmadığını söyləyir. *Arranda* arran dili, Naşavada (Naxçıvan) ermənicə*, danışıldığı qeyd edilir. Araz vadisində Beyləqan və Varsanda xəzər dilinin geniş yayıldığı, hətta fars əsillilərin belə müкəmməl xəzər dilində danışdıqları *İbn Əsam əl-Kufinin* əsərində *(Əl-Futuh,*

---

* Müəllifin bu mülahizəsi həqiqətdən uzaqdır.( bax:Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 2004, s 162-175 ) – *tərtibçilər.*

*Topqapı nüsxəsi, 2956, II. Vər. 185 b)* verilən bir rəvayətdə göstərilir. Ərəblərin gəlməsindən sonra hər yerdə ərəb dili yayılmağa başladı. Ərəblər dövründə Azərbaycan din və mədəniyyət sahəsində vəhdət qazandığı kimi, mədəniyyətdə böyük inkişaf meydana gəldi. *Yaqut* və *Səmani* Azərbaycanın ayrı-ayrı şəhərlərində yaşayan çox saylı alim və xüsusən hədisçilərin (mühəddis) adlarını çəkirlər. *Müqəddəsiyə (s.*379*)* görə azərbaycanlılar o vaxt şiəlikdən uzaq, qatı sünnü olub, çoxu da *hənbəli* idilər. Onlarda məzhəb təəssübü müşahidə edilmirdi. Bunlar daha çox hədis elminə əhəmiyyət verirdilər. *İbn Havqəlin* dediyinə görə, münəvvər azərbaycanlılar kəlam və məntiq kimi elmlərə həqarətlə baxmışlar, ancaq tibb sahəsində görkəmli şəxsiyyətlər yetişdirmişlər. Bu müsbət fəaliyyətlə yanaşı ərəblər Azərbaycana ərəbdən çox fars ünsürü gətirməklə fars dilini və icmasını qüvvətləndirmiş oldular. *İbn Havqəlin* dediyinə görə (s.343 və b.), onun dövründə farsca Azərbaycanın ümumi dili olmuşdu və farsca danışanlar arasında ərəb dilini bilməyənlər az idi, lakin tacir zümrəsi ilə torpaq aristokratiyası *(ərbab əl-ziya)* mükəmməl ərəbcə danışırdı. Sonralar fars ünsürü get-gedə qüvvətlənərək, həm yerli dilləri, həm də ərəb dilini sıxışdırmağa başladı. Bu baxımdan Azərbaycanda ərəb istilası, Mavərənnəhrdə olduğu kimi, farscanın və İran mədəniyyətinin yayılmasına səbəb olmuşdur. Əslində burada farsca danışan əhalinin dili eynilə Mavərənnəhrdə olduğu kimi, Xorasan farscası idi *(Müqəddəsi, s. 373).* Nəticədə, yerli əhali arasına zədagan kimi yerləşən ərəblər buralarda qarışaraq farslaşdılar, yaxud kürdləşdilər. Təbriz-Əhər ərazisini idarə edən *Rəvvadilər,* yuxarıda dediyimiz kimi, öz mənşələrini yəmən ərəblərinin ən qədim nəsillərindən aldıqları halda, sonradan *kürdləşdilər.* Adlarına əsasən eyni ərəb mənşəli olduqları

güman edilən *Əyyubilər,* sonralar yarıtürkləşmiş bir kürd sülaləsi kimi meydana çıxdılar. Eyni ilə Səlcuqlara xidmət etmiş *Əhmədilər* də, ərəb əsilli, ancaq türkləşmiş kürd zadəganlarındandır *(Əyyubilər və Əhmədilərin Rəvvadi nəslindən olduğunu ilk dəfə Kəsrəvi Təbrizi "Şəhriyarani - Qumnam", II, s.22, 110 əsərində söyləyib). Yəzid ibn Məzyəd əl-Şeybaninin* Şirvan, Arran və Dərbənd ərazilərini idarə edən nəvələri, özlərinin qədim Sasanilərdən gəlmə bir sülalə olduqlarını iddia edərək, bir şəcərə də uydurmuşdular. Mavərənnəhrdə Samanilərin saxta şəcərəsi kimi, bu Şeybani Şirvanşahlar şəcərəsini də *Məsudi və əl-Biruni* kimi böyük alimlər əsl həqiqət kimi qiymətləndirmişlər *(bax: Məsudi, Muruc, II, s. 24; Biruni, əl- Asar əl-bakiya, s. 39).*

## IV. AZƏRBAYCANA GƏLƏN İLK TÜRKLƏR.

Azərbaycanın əsl abadlaşması və məskunlaşması XI əsrdə *Səlcuqların* və XIII əsrdə *Elxanilərin* hakimiyyəti dövründə həyata keçmişdir. Səlcuqlardan əvvəl burada mühüm bir türk kütləsi müşahidə olunmasa da, müxtəlif dövrlərdə yerli əhaliyə o qədər türk ünsürü qarışmışdır ki, Səlcuqlardan öncə türkcə danışmayan bəzi vilayətlərin əhalisinin əksəriyyətinin mənşə etibarilə həqiqətən türk olduqları fikrini irəli sürmək olar. Əvvəla türklər hələ e.ə. VII əsrdə *sakların* səfəri əsnasında bura gəlib hakim zümrələri təşkil etmişlər (bunların İranlı saklar üzərindəki nüfuz və hakimiyyəti haqqında bax: *Zeki Velidl Togan, Bugünkü Türkistan ve yakın mazisi,* 2.*tab., İstanbul,* 1992. s.87*). Bunların Sakasan adlı mərkəzləri (bax: Strabon. XI, s.* 509, 511*)* var idi. Onun xarabalıqları Şamxor - çay kənarında *(bax: Qazaryan, s.37),* Girdiman

yaxınlığında Saкasan adı ilə son əsrlərə qədər qalmışdır. O, Uti vilayətinə tabe idi *(Bax: Marquart, Eranşahr, 121)*. Azərbaycanın müxtəlif yerlərində *Əfrasiyabın* adıyla bağlı olan yerlər qədim saкlar dövrünə aid rəvayətlərlə əlaqədardır (Şabaranın Əfrasiyabın paytaxtı olduğu *Zəкəriyyə Qəzvini, Asar əl-bilad, s.* 403-*də;* Arranda Sanqi - Surahın Əfrasiyabın son sığınacağı olduğu *Nəsəvi, Sirat Cəlal əd - Din, nəşr: Houdas,* s. 225-də göstərmişdir. Təbrizin qapılarından birinin yanında Əfrasiyabın başının dəfn edildiyinə görə onun "Darvazayi-sər" adlandırıldığını rəvayət edirlər). Bu günкü Gəncə bölgəsinə və onun qərbindəкi sahəyə öz adlarını verən utilərin adı *Strabonun* əsərlərində çəкilmişdir. Qədim mənbələrin hunlarla qarışıq saldıqları utilərin mənşə baxımından türк olduqlarını fərz edirlər *(bax: Klaproth, Tableaux historiqure de İ'Asie, s.* 234, 260; *İnostrantsev, Qunnı i Qiunqnu,* 1925, *s.* 68, 137*)*. Ərəblər dövründə də onlar Babəкə кöməк etdiкləri üçün *uzz və uvazin* adı ilə qeyd olunurlar. O zaman bunlarda, türкlərdə olduğu кimi, tarxanlar var idi *(bax: Təbəri, III, s.* 1179, 1192 *və b; İbi əl- Fəqih s.* 293; *Bəlazuri, s.* 203*)*. Uti vilayətində Xalxal adlı bir qala da var idi (Bax: Tarum). Bu "xalxal" sözü yəqin кi, türк və monqollarda "qala" mənasında işlədilən "qalqan" (bax: Dərbənd məqaləsi)* sözündən yaranmışdır. Nuxa (Şəкi) bölgəsində bu gün Qafqaz кürin dil qrupundan fərqli bir dildə danışan *udinlərin* qədim *uzlarla* əlaqəsi məsələsi hələ də həll olunmamışdır *(bax: Marquart, Streifzüge, s.* 49*)*. Ancaq Xəzər xaqanı *Harunun* məкtubunda bir xəzər qəbiləsi olaraq adı çəкilən *avarlar* (bax: *Harкawy, Russiche Revue, 1875, VI, 303*) ilə monqollar dövründə

---

* - İslam Ensiкlopediyasındaкı məqalə nəzərdə tutulur – *tərtibçilər.*

Elxanilərə xidmət edən uzlar *(*bax: *Rəşid əl-Din, Cəmi ət-tavarix, Topqapı,* 1518, *vər,* 258 *a:* Qəzvin tərəfdə *Arqun xanın* ən yaxın adamlarıdan 300 ev uz) bu qədim uzların qalıqları ola bilər. Uzların Qafqaz dağlarında yaşayan bir qismi oradakı tayfalarla qarışmış, onların Arran və Həştadsər ərazilərində (Babəkin ölkəsində) yaşayan hissəsi isə öz türklüklərini mühafizə etmişdilər. *Arqun xan* dövründə bir türk əşirəti kimi tanınan uzlar, hər halda şərqdən gəlməmişlər. Hələ IV və V əsrlərdə Cənubi Qafqaza və Azərbaycana Hun adını daşıyan qəbilələr gəlmişdilər. Bunlardan, 446-cı ildə erməni mənbələrində adları *Hayləndurk* kimi çəkilən *Ağ hunları* görürük *(*bax: *Marquart, Eranşahr, s.* 96*)*. Cənubi Muğanda Balasaqan Ağ hunların şəhəri kimi yad edilir *(eyni əsər, s. 119 və b.)*. Balasaqan adı, çox güman ki, türk dilindəki Balasaqun sözü ilə eynidir *(bax: Zeki Velidi Togan, İbn Fadlan, s. 193)*. Hələ V əsrdə bu şəhərin qərbində, Araza daha yaxın bir yerdə yerləşən Varasan Ağ hunların "eltəbərlərinin" *(bax: İbn Fadlan, s. 106)* yaşadığı bir şəhər olaraq göstərilir *(bax: Marquart, Chronologic dcr alttürkischen İnschriften, s. 84)*. *Marquart* istər bu, istərsə də Dağıstandakı Varsan şəhərlərinə bu adı verən tayfanın avarlar olduğu fikrini irəli sürür *(Komanen, s. 74)*. Ərəblər gəldiyi zaman Balasaqan düzündəki əhaliyə "*əkrad*", *yəni* "*kürdlər*" deyilmişdir (Bəlazuri, s.202, 326). Ancaq bu "*kürd*" sözü o zamanlar daha çox "*heyvan sürülərinə malik olan köçəri*" (əshab sava"im) mənasında işlədilir və milliyyəti ifadə etmirdi. Xorasandakı xalqlara da ərəblər "*əkrad*" demişdilər. Belə ki, hələ o vaxtlar da, bu günkü Muğan şahsevənləri kimi, əhalinin türk və kürd qarışığı halına gəlmiş olması çox mümkün idi. Oğuzların hələ XI əsrdə özləri ilə Türküstandan gətirdikləri dastanlarda türklərin bu yerlərdəki çox qədim

zəfərlərinə aid xatirələr vardır *(bax: İbn Fadlan, müqəddimə, XXXI)*. Bu rəvayətlərin Rəşidəddin tərəfindən söylənilən şəklində, qədim türklərin Təbrizin cənubundakı Ucanda, Arran və Muğan ovalarında, Savalan bölgəsində adları Ədsuri və Əlanarə şəklində yazılan və Aladağ (Alatak) ümumi adını alan dağlarda yaşadıqları görülür *(Rəşidəddin, eyni əsər, Paris, Bill.Nat., Supp. pers, 1364, vər. 140; Damad İbrahim Paşa Kitabxanası N 916, vər. 4a)*. Erməni mənbələrində *"Hayləndurk"* şəklində yazılan adın haradan gəldiyi aydın olmasa da, sözün sonundakı *"durk"* hissəsinin "türk " olması yəqindir (vaxtilə ermənilərə hakim olan "türk " adlı bir tayfa haqqında bax: *Marr, ZOV, XXI, XXXVI)*. Monqolların ilk gəlişlərində *Cəbə* və *Subutayın* Rey ətrafında Xil-Türkə endikləri *Rəşidəddinin* əsərində qeyd olunmuşdur *(Berezin, III, mətin, s. 136)*. Bu *"Xil-Türk"* farsca bir tərkib deyil, xüsusi isimdir. Hər halda, 446-cı ildə Azərbaycana gələn hunlar, bu ölkənin tarixində, adları türk olan ilk tayfadırlar.

Şərqi Avropanın ən qədim türk ünsürü olan *bulqar, xəzər, ağacəri* və *sabirlər* qrupundan gələn zümrələr Azərbaycanda məskunlaşan ən əsas ünsürlər olmuşlar. Erməni müəllifi *Abbas Katina* bunlardan Bulqarların hələ bizim eradan əvvəl 120-ci ildə Qafqaza keçib Qars ətrafında yerləşdiklərini qeyd edir. Bu qeydi təkrar edən Xorenli Musa bu bulqarların bizim eranın 460-cı illərində də orada yaşadığını söyləyir *(bax: K.Kunik, Melanges Asiatiques, V.* 150; *bu qeydin tənqidi üçün bax: Zeki Velidi Toqan, İbn Fadlan, XXVIII)*. Yenə Xorenli Musa hələ 197-216-cı illərdə *xəzər* və *barsulaların* Kür çayını keçdiklərindən danışır *(bax: Marquart, Chronologie, s. 92)*. Ərəblərin gəldikləri ərəfədə bu *barsulaların (Boaçoli, Borçalı)* Dağıstanda yaşadıqları müşahidə olunur. Bu gün bunlar

Gəncə ilə Tiflis arasında Kür çayının cənubunda ayrı bir sancaq təşkil etməkdədirlər *(bax: İbn Fadlan.s.156 və b.)*. 460-cı ildə *xəzərlərin* bir hissəsi və ya onlara qohum olan *ağacərilər*, 468-ci ildə isə *saraqurlar* (yəni sarı uyğurlar və ya uğurlar) Qafqazın cənubuna köç etdilər. 488-ci ildə onların Sasanilər ilə mübarizə etdikləri məlumdur *(Spiegel İranischc Altertumskunde, III, 374)*. Sasanilər dövrünə aid Paykuli kitabəsində "Ağ Ağaçərilərin xaqanı" mənasını verən bir cümlə vardır *(E.Herzfeld, Paikuli, Berlin, 1924, I, 17. 133)*. Onlar Oğuz dastanında və türkmən rəvayətlərində əfsanəvi Oğuz xanla bərabər gəlib məskunlaşan bir qəbilə kimi göstərilirlər (bax: *Rəşidəddin, eyni əsər, tərc. Berezin, I, s. 17.20; Türkmən rəvayətləri üçün bax: Bar.Bode. Oçerki Turkmenii, s. 151; B. Dorn, Reise nach Mazenderan, Petersburg, 1895, s.90*). Səlcuqlar dövründə, 1195-ci ildə baş verən hadisələrlə əlaqədar, Əlbistan və Maraşda soyğunçuluqla yaşayan bir qəbilə kimi adı çəkilən bu ağaçərilər *(bax: Houtsma, Recueil, III,* 57*; IV,* 284*, v.d; Mükrimin Halil, Maraş emirleri, TTEM, XV, s.* 94 *v.d)* türkmənlərin *üçox* tayfası ilə bir yerdə yad edilir *(Bax: Makrizi və Sulukun əsərlərindən istifadə edilən əsər: Quatremere, Histoire des Mongols, s.* 53*)*. Bunlar 1246-cı ildə Maraş dağlarında, *bayat, əfşar* və *ağaçəri* adlı üç qəbilədən biri kimi *Baycu noyana* qarşı müharibə aparmışlar. Ağaçərilərin başqa bir şərq qolu Miscində (Mişqin) və Xalxalda (köhnə Firuzabad) hakim qəbilə idi *(bax: Həmdullah Qəzvini, Nüzhət, nəşr: Le Strange, s.* 81. *Akaceryan; Fatih kitabxanası, №*4519 *və Nuruosmaniyyə, N2992. Kaceryan)* və Hülakünün Əlamut qalasını zəbt etdiyi vaxt bunlar monqollarla birlikdə hərəkət edirdilər *(İtizad əl-Səltənə, "İksir əttəvarixdən" alınaraq Məhəmməd Həsən Sani əl-Dövlə,*

*"Mirat əl-buldan-i Nasiri", I, s. 31. Burada bu rəvayət qacarlara aid edilmişdir).* Bütün bu rəvayətlərdə bu qəbilə bəzən *ağaçəri,* bəzən də *qacar* adıyla yad edilir кi[1], bu da adi bir təsadüf olmamalıdır. Ola bilsin кi, bu iкi ad eyni qəbilənin iкi qolu olduğuna görə meydana çıxan iкi tələffüz şəкlidir (müqayisə et: içgil-çigil, yazgər - yagər, salgər - salur, uyğur-yuğur və qur. Hələ XIV əsrdə Dəşti-Qıpçaqda Qızıl Orda xanlarına tabe olan qəbilə başçılarının adları arasında Xaçəri adına rast gəlinir кi, bu da çox güman "Ağaçəri " deməкdir; *bax: Tiesenhausen, Altın Ordu, tərc. İzmirli İsmail Haккı, I, s.* 196, 273*).* İslam tarixlərində *"deyləm"* sözü bir çox hallarda *"türк"* sözü ilə birliкdə müşahidə edilir. Bununla hələ Əməvilər dövründə də qarşılaşmaq olurdu *(Bax: Təbəri, III, s.* 2175 *və Yaqut, maqalə, Bursum, Ömər bin Əbd- ül-Əzizin oğlu Adəmin şeri).* Burada "əl - türк " və "əl - deyləm "

---

[1] Maraş və Əlbistan ağaçərilərinin adı Səlcuq tarixlərində və "Bəzmü rəzm " əsərinin 530-cu səh. -də Ağaçəri şəкilində verildiyi halda, erməni müəllifi Kiraкosda "Qacar " (bax: tərc. *Patкanov, s. 100. Kadjar; tərc. Brosset, s. 189; Gadjars ermənicə əslində Qacarid*). Bunların osmanlılar dövründə yaşayan qalıqları da Katib Çələbidə (*Cahan-nüma, s.592*) Qəçər кimi yazılmışdır. Rəşiddəddinin "Cami ət-təvarix"inin Peterburq nüsxəsində, ağacərilərdən bəhs edən fəslin кənarında belə bir farsca qeyd var: "Ağaçəri adı bu gün türкlərin və başqalarının tələffüzündə "Qacar " şəкlini almışdır; Çünкi qacarlara əvvəllər ağacəri deyilirdi " (bax: *Berezin, Rəşidəddin, I, mətnə əlavələrdə, s. 222 və b*). Maraş Ağaçəriləri XIII -XV əsr ərəb mənbələrində Türкman-acər, ə niyanə ər şəкlində yazılsa da, Qanuni Süleyman dövrünə aid əmlaк və əhali sayı dəflərlərində acarlı adı ilə qeyd olunmuşlar. Bu gün Maraşla Əlbistan arasında *Alisər* кəndinin əhalisinə də acəralı deyilir. Çox güman кi, İsfahan yaxınlarında yaşayan acərli (bax: *Schlegel, İran, Alfertum, I, 745*) və Ərdəbil şahsevənlərindən olan Acırlılar *(İsgəndər Münşi, Aləm-arayi Abbasi, s. 60. Ağacərlü yəni Ağcəlü)* də eyni qəbiləyə aid olan adın müxtəlif şəкildə yazılışından ibarətdir.

sözlərindəкi "türк " кəlməsi ilə, çox güman кi, Xalxalda deyləmilərlə qonşu olan ağaçərilər nəzərdə tutulmuşdur.

Xəzərlərin başqa bir qolu olan *sabirlər*, yaxud *sabərlər* 503-cü ildə Qafqazın cənubuna кöç etdilər. Laкin bunların xanlarının qərargahı əsasən Daryal (Daryol) və Dərbənd кeçidinin şimalında yerləşirdi. Bizanslıların *sabir* dediкləri bu qəbiləni erməni mənbələri sadəcə olaraq *hun* adlandırırlar. Halbuкi Kuban tərəflərdə və Kerç-Taman məntəqəsində başqa bir hun icması vardı və bunlar sabirlərin rəqibi idilər. Sabirlərin başçısı *Ambazuк* 508-ci ildə Azərbaycanda Sasani höкmdarı Qubadla (488-531) müharibə etmişdi. Onun oğulları işə Qubadla birləşərəк Bizansa qarşı müharibə etdilər. Onlar 515-516-cı illərdə bütün Ərməniyyəni işğal edərəк Anadoluya кeçdilər. Onlar Pont, Qalatiya və Kappadoкiyaya girərəк Konyanı zəbt etdilər (Bax: H.Howorth, JRAS, 1892, s. 616). 522-ci ildə sabirlərin başçısı *Ziqibi* (çox güman кi, *Cılкı Biy)* idi. 527-ci ilə qədər Arran və Şirvan bunların əlində qaldı *(bax: Kulaкovsкiy, İstoriya Vizantii. II.s. 28)*. Sabirlərin sayı o dövrdə təxminən 100 min ev idi. Eyni illərdə Kuban hunları da Qafqazın cənubuna кeçməк istədilər, laкin sabirlər onlara yol vermədilər və Sasanilərlə birləşərəк hərəкət etdilər *(eyni əsər, s. 59)*. 531-ci ildə *sabirlər, sabir hunları* adı ilə bizanslıların müttəfiqi olaraq meydana çıxırlar *(eyni əsər, I, s. 133)*. 555-ci ildə isə onlar yenə İrana qarşı müharibə etmişlər *(Spiegel, eyni əsər, III, s. 446)*. 558-ci ildə onlar *avarlarla (varehunilər)* döyüşmüş və eyni ildə bütün *sabirlər* Dərbəndin cənubuna кöç etmişlər *(WZKM, XII,s.193)*. Ümumiyyətlə, Sasanit Qubadın haкimiyyətinin son illərinə qədər Arran, Gürcüstan, Vaspuraкan və Sisəcan *xəzərlərin* və onlara qohum olan tayfaların əlində qalmış *(bax:*

*Bəlazuri, s. 194; İbn əl-Fəqih, s. 287; İbn Xordadbeh, s. 122; Yaqubi, "Tarix ", I, s. 203)* və Qəbələ onların mərкəzi olmuşdur (Bəlazuri, s. 194). Ona görə də, bu ölкələrlə bərabər Azərbaycana da "Xəzərlər məmləкəti " deyilmişdir *(bax: Təbəri; I, s. 884).* Bütün Azərbaycanı və Cənubi Qafqazı türкlərin əlindən alan və Azərbaycan sərhədlərini Dərbəndə qədər genişləndirməyə nail olan Nuşirəvan isə türкləri milli azlıq halına gətirməк məqsədi ilə ölкəni iranlılarla məsкunlaşdırmaq siyasəti yürütdü *(İstəxri, s. 185, haşiyə).* O, bu yerlərə *siyasicə* adlı bir fars tayfasını *(Bəlazuri, s. 195 və d.: İbn əl-Fəqih, s.288; İbn Xordadbeh, s. 123; Qüdamə, s. 259),* Tiflis ətrafına da *soqdlardan* olan bir tayfanı yerləşdirərəк *(Bəlazuri, s. 195)* buradaкı türкləri və onun dövründə bura gəlib yerləşən və Sasanilərin haкimiyyəti altına düşən türк boylarını ölкənin içərilərinə кöçürdü. *Təbəri* (I6 s, 891) *Bazr və Sol* türкlərinin *Nuşirəvan* tərəfindən Şəhram və Firuzə yerləşdirildiкlərindən bəhs edir. Bu şəhəri *Marкvart* Xəzər dənizinin şərqindəкi Əbivərd ilə eyniləşdirsə də *Təbəri* (I, s. 874) öz əsərində onu Azərbaycandaкı bir şəhər кimi göstərir. Buradaкı *«bazr»* sözünü çox güman кi, "*yazar* " oxumaq lazımdır, yəni Xəzərin şərqindəкi yazarlar ilə Sol türкlərindən bir hissəsi *Nuşirəvan* dövründə Azərbaycana yerləşdirilmişdir. Şahram Firuz ilə Xalxalın bir fərsəx кənarında olan Firuzabad ola bilər. Təbərinin əsərindəкi bir qeyddən məlum olur кi, yenə Nuşirəvan dövründə *bulqar* və *bələncər* türкlərinin bir qismi Azərbaycanda məsкunlaşmışdır *(Təbəri, I, s. 595 və b.).* Buradaкı bəncər sözü bir az aşağıda *(s. 900)* bərcan şəкlində verildiyinə görə, onun bəlcər, yəni "*bulqar* " olması ehtimalı da vardır *(bax: Marquart, Streifzuge, s. 16; Südarmenien, s.271, Chronologic, s. 96; WZKM, XII, 169).* Bunlar *Göytürкlərə*, yəni

*İstemi xaqanın* ordusuna mənsub idilər. Sasanilərlə olan müharibədə məğlub olduqdan sonra, qalan 10 min ailə Azərbaycanda yerləşdirilmişdi. Cənubi Qafqaz və Azərbaycanın müxtəlif yerlərində, Azərbaycana islamiyyətdən öncə gələn bu türк boylarından qalma çoxlu coğrafi yer adlarına rast gəlməк olar (Məsələn, rusların 1:210000 miqyaslı xəritələrində sabir və suvarlardan qalma Sibir, Don, Sebir Oba, Sevare, Sivər Dun və Savir adları görünməкdədir. Tarixi əsərlərdə Saberan və ondan alınma Şaberan ehtimal кi, Şirvan, Savir, Suvariк, Şabir Xost). Bundan başqa, bəzən iкi-üç yerdə eyni olan yer adları: *Varasan* (Dağıstanda və Arazda), *Beyləqan* (Arazda və Urmiyanın cənubunda), *Bacervan* (Muğanda və Caberzan şəкlində Urmiyanın cənubunda), *Xizan* (Dağıstanda və Qarabağda), *Xalxal* (Utidə və Taromda). Eynilə *bulqar* və *xəzər* adları ilə əlaqəli adlar da bu qəbilələrin islamdan əvvəlкi dövrlərdə Qafqazın cənubunda və Azərbaycanda yayılma yollarını göstərən izlərdir. Ərəblər gəldiyi zaman bu türк кütlələrindən Şirvan, Burçalı, Qazax (ərəblərdə Kəsaк: *bax: İbn Fədlan, s.* 296 *və Minorsкy, Transcancasica I. JA.* 1930, *II. s.*79-82; erməni mənbələrində 905-ci il hadisələri ilə əlaqədar "Hazıк ". 1165-ci il hadisələrində Hasaqian adlandırılmışdır). *Şamxor, Qəbələ, Muğan və Xalxal* tərəflərdə yaşayanlardan çoxu yerli əhaliyə qarışaraq milliyyətlərini hər nə qədər itirmiş olsalar da, bütün Cənubi Qafqaz və Azərbaycanın vaxtilə türкlər tərəfindən idarə edilən bir ölкə olduğu haqqında rəvayətlər ərəblərin gəldiyi dövrdə də ağızdan-ağıza gəzirdi. Bunlardan ən dəqiqi *İbn Hişamın "Kitab əl-Tican"ında (Heydərabad, daş basması, s. 402, 406): Müaviyənin* "Azərbaycan nədir?" - sualına *Übeyd bin Sariyə* adlı biri: "Bu, qədim zamanlardan türкlərə aid bir ölкə idi" sual - cavabı öz əкsini tapmışdır. Bu

rəvayətlərdən *(s.80,433)* görünür ki, Himyar hökmdarları çox qədim zamanlarda Azərbaycanda və Mosul tərəflərdə xəzərlər və türklərlə müharibələr etmişlər. Bu rəvayətlərdə İsgəndərin və Himyarilərin Orta Asiyada *türklər, soqdlar və tibetlilərlə* olan münasibətlərinə aid təfərrüat daha çox daima Azərbaycanda baş vermiş hadisələr kimi verilir.

## V. ƏRƏBLƏR DÖVRÜNDƏ TÜRKLƏR

Ərəblər dövründə də Cənubi Qafqaza və Azərbaycana türklər gəlməkdə davam edirdi. Abbasi xəlifələrinin xidmətində olan türk əmirlərinin də öz məiyyətləri altında olan türkləri bura gətirdikləri məlumdur. *Mübarək əl-Türki* Qəzvinin iç qalasını tikdirmiş və ona öz adını vermişdi *(İbn əl-Fəqih. s. 282)*. Hicri 234 (miladi 848)-cü ildə Bəni Bu'ays əmirlərinin Mərənddə üsyan qaldırdıqları zaman xəlifə *Mütəvəkkil Zirək əl-Türkini* güclü bir ordu ilə ora göndərmişdi (Təbəri, III, 1381-ci səh.-dəki 200.000 çox güman ki, 2.000 olmalıdır). Sonra Ərməniyyə və Azərbaycanın valisi türklərdən *Məhəmməd bin Sul* oldu. Sonralar gələn *Buğanın* sərəncamında 4 minə qədər türk əsgəri olduğu və onun Şamxoru Xəzər türkləriylə məskunlaşdırdığı məlumdur. Babək üsyanını yatıran *Afşin Əsruşana bəyi Qara Buğranın* (Qəraboğra) nəvəsi idi. Bu şəxs Ərdəbil ilə Buz arasındakı Bərzəndi abadlaşdırmışdır. Afşinin əmirlərindən *Mənçur* (bəlkə də Min Çor, yaxud Moyun Çor ola bilər), *Məhəmməd bin Xalid Buxar Xudah* (Buxara türk əmiri *Tukşadın* nəvəsi olan *Xalidin* oğlu idi. *Xalid* haqqında bax: *Narşahi, Tarixi Buxara, Şeferin nəşri, s.9;* Tukşad haqqında bax: *Marquart, Eranşahr. S.309*) Azərbaycan valisi oldu. Ərməniyyə valiliyinə əslən Əsruşananın Cinqakənd və Süydük adlı kəndlərində *İbn Hav -*

*qəldən* (s. 506) öyrəndiyimiz *Yusif bin Əbül-Sac*, ondan sonra isə növbəylə oğlu *Məhəmməd Afşin*, qardaşı *Yusif* və daha sonra *Məhəmməd Afşinin oğlu Əbül-Musafir* (hicri 318-ci ildə - miladi 920-ci il) gəldilər. Sac-oğullarının yerinə кeçən *Rəvvadilər* (bunların кeçmiş Rəvvadilər nəslindən olduğu haqqda bax: *Kəsrəvi Təbrizi, Şəhryarani Qumnam, I, s.* 121; *II, s.* 37-40) dövründə də türкlər Azərbaycana gəlməкdə davam edirdilər. *Schwars (s. 1178- 1256)* ərəblər dövründə Azərbaycanın əhalisi məsələsini müfəssəl araşdırsa da, *səlcuqlar* və *oğuzlardan* əvvəl bu ölкədə türк boylarının olduğu haqqında qeydləri ya görməmiş, ya da onlara fiкir verməmişdir.

## VI. SƏLCUQLAR DÖVRÜNDƏ TÜRKLƏR

*Səlcuqlar* gəldiyi zaman Azərbaycanın cənub - şərqində Deyləmilərin qonşuluğunda türк tayfalarından olan *ağaçərilərin* və *кəngərlilərin* də yaşamış olduğu tarixi mənbələrdən bizə məlumdur. Bu кəngərlilərin də ağacərilər кimi Səlcuqlar zamanında adı çəкilir. Bunlardan olan əmir *Zahir əd-Din bin Buğdan Kanqari* (bax. *Rəşid Vətvat, Arais, Ayasofya кitabxanası, N4015*) *Sultan Səncər* dövrünün türк əmirləri arasında göstərilir. Şamirəni-Tarimdə höкmranlıq edən *кəngərlilərin həqiqi bir* İran sülaləsi sayılmasına *(bax. Kəsrəvi Təbrizi, eyni əsər, I, 39)* baxmayaraq, mənşə etibarilə *Peçeneq кəngərlilərindən (bax. A.N.Kurat, Peçeneк tarihi,* s. 58) olmaları mümкündür (peçeneq qulları hələ səlcuqlardan öncə Azərbaycana və Ərməniyyədən digər islam ölкələrinə gətirilən mallar arasında göstərilmir; bax: *Hüdud- əl - Aləm, s. 32 b).* Səlcuqilər dövründəкi *кəngərlilərin* bu gün Göyçə, Quba, xüsusilə Şuşa və Cavanşir bögələrində

və Səlmas ətrafında yaşayan *kəngərli* qəbiləsi *(bax. Məhəmməd Həsən Baharlı, Azərbaycan, s. 60 və s.)* ilə eyni soydan olmaları daha qüvvətli bir ehtimaldır. Bu təqdirdə *kəngərlilər* də Azərbaycanda səlcuqilərdən xeyli əvvəl məskun olmuş olmalıdırlar. *Xəzərlər* və *bulqarlara* yaxın qabilələrdən olan *burçalılar* da ağacərilər kimi dillərini ərəb hakimiyyəti dövründə də qorumuş bir zümrə kimi qəbul edilə bilər. Bu gün onlara qonşu olan Qazax bölgəsi ilə Şamxorda da Səlcuqlardan əvvəl türkcə danışılmasına qəti əminik. Xəzərlərin bir qolu olan Bələnkərlərin *(bax. Zeki Velidi Togan, İbn Fadlan s. 191.)* bir qisminin Səlcuqlar gəldiyi zaman Azərbaycan tərəflərində olmasını ehtimal etmək olar. Səlcuqlu əmirlərindən *Xasbek Bələncəri (Bax. Ravəndi, Rahat-üs-südur, s. 233, 244)* Bərdə və Şamxor tərəflərində erməniləşmiş *oqurlar* (ərəblərdə: *siavərd*, erməni mənbələrində: *sevordik)* qeyd olunur ki, Marquart *(Streifzüge, 38 və s.)* bunların *qaraxəzər*, yaxud *macar* olması ehtimalını irəli sürmüşdür. Hər halda səlcuqlardan öncə bir türk ünsürü olaraq Azərbaycan və Cənubi Qafqazda daha çox Xəzər ünsürü görünməkdədir. Bunlar ən çox Qəbələ, Borçalı, Qazax, Araz sahilləri və Muğan tərəflərində toplu halda yaşayırdılar.

Orta Asiyadan gələn türk boylarının Azərbaycanda yerləşməsi Balxan türkmənləri ilə başlayır. Bunlar, Rəvvadilərdən *Vəhsudan bin Mamlan bin Əbül Heycanın* dövründə (1036) gələrək, öncə Əhər tərəflərində yerləşdilər (yalnız 4000-5000 ailə). Səlcuqlar ilə ilk dəfə 1035 - ci ildə Xorasana ancaq 10000 ailədən ibarət türkmən gəlmişdi: Toğrul bəy Reyə yerləşdikdən sonra *Arslan Yabqunun oğlu Kutulmuş, Yusif Yabqunun oğlu İbrahim İnal, Musa Yabqunun oğlu Həsən və Çağrı bəyin oğlu Yakutu* Azərbaycana göndərilmişdi. Onlara Xorasanda qoşulan

türк кütlələrinin sayı olduqca tez çoxaldı. Kutulmuş 1063-cü ildə üsyan edərкən yanında 50000 türкmən vardı. 1064-cü ildə *Alp Arslan* Arran və Gürcüstan tərəflərini ələ кeçirdi. *I Məliк şah* dövründə türкmənlər Azərbaycana yerləşdilər. "*Tarix əl-bab vəl-əbvab* "ın verdiyi məlumata görə *(Münəccimbaşı, Esad Əfəndi кitabxanası, N 2102, vər. 646 b)* 1066-cı ildə onlar xəzərlərin qalası Dərbəndi кeçərəк səlcuqlara qarışıb Dərbəndə yaxın Kaкtan şəhərində yerləşmişdilər. Türкmənlərin qəti surətdə yerləşmələri 1076-cı ildə baş vermişdir. Həmin il *Məliкşahın Savtəкinin* rəhbərliyi ilə göndərdiyi türкlər "Arran ölкəsinin bütün oba, dağ, nahiyyə və qalalarına yerləşdilər " (bax: *eyni əsər, Esad Əfəndi кitabxanası, N2103, vər. 338 a*). Bundan sonra həqiqətən Gəncənin bir türкmən şəhəri adlandırıldığı *(bax. İbn əl- Əzrəq, Tarixi-əl-Məyyafariqin. 1175-ci il hadisəsi: Müкrimin Xəlilin xüsusi кitabxanası, s. 110)* və bunların girdiyi ordunun "saysız-hesabsız " olduğu qeyd olunur. *Xarəzmşahlar* dövründə Arran vilayətinə «türкmən yığınağı " *( Nəsəvi, Sirət əs - sultan Cəlal əd- din Mənкburni, s.* 159*: Arran muhtaşad əl-türкmən)* adı verilmişdi. Bu tarixdə türкmənlər "Arran və Muğanda qarışqa кimi çox" idilər *(bax: Nəsəvi, s. 225)*. Onların XII və XIII əsrlərdə əкinçiliк və heyvandarlıqla məşğul olduqları qeyd olunur. Ovalıqlarda, meşə və dağlıq yerlərdəкi bütün ərazi onlar tərəfindən tutulmuş və artıq varlanmış qəbilə rəisləri siyasi həyatda aparıcı rol oynamağa başlamışdılar *(bax. Nəsəvi, s. 225; Hüsam əd-Din Qılıc Arslan və s. 231. Caripərddə Səmlan Seleк bəy)*. Vilayətdəкi bir çox qalaların da bu türкmənlərə aid olduğu göstərilir: misal üçün Gəncə, Bərdə, Səngi - Surax, Həzəl, Caribərd, Kutur, Beyləqan, Quştəsfi, Mardanкim (Həmdullah: Mardanim, Nəsəvvi: Mardanqin) və Kaban Xarəzmşahlar dövrün-

də, Arran və Muğan türкmənlərin əlində idi. Eldənizlər dövründə Naxçıvana yaxın *Bacni* adlı qalanın da onlara aid olduğu qeyd olunur. *Səlcuqlar* dövründə Azərbaycanda və Qafqazın cənubunda bəzi yeni şəhərlər salındı və yaxud bir çox кöhnə şəhər və qəsəbələr türк boylarının haкimiyyəti altına кeçdi. Qəzvindən 2 fərsəx aralı *Arslan Kuşad qalası (Z. Qəzvini, Asar əl-bilad və əxbar əl- ibad, s. 195; Ravəndi, Rahat üs - südur, s. 290)*, türк zadəganlarının çox mədəni və zəngin bir şəhəri olan *Taruz (eyni əsər, s. 275)* Səlcuqlar dövründə meydana gələn şəhərlərdəndir. 1133-cü il hadisələri ilə əlaqədar Sultan Səncərin Marağaya yaxın Beşbalıqda gecələdiyi qeyd edilir *(Məcmuə-yi Hafiz Əbru, Damad İbrahim Paşa кitabxanası, №919, Səlcuq tarixi hissəsi, vər. 239)*. Şəhrizurda salqurlardan Karayulı yaşayırdı *(İbn - əl - Əsir, Bulaк, X s. 121: Əlqaraylı);* Marağa yaxınlığında bir dağ кeçidinin də bu qəbiləyə aid olduğu göstərilir *(İmad əl-Din əl- İsfahani, Zübdət ən - nüsrə s. 200; Ravəndi, Rahat üs - südur, s. 233: Dəvbəndi Qaraylı)*. Nəsəvidə isə *(s. 167 və 221)* Zəncan ilə Xalxal arasında Büləк şəкlində türк adı daşıyan şəhər ilə bu şəhəri idarə edən yerli türк qəbilə rəisinin adı qeyd olunur. Həmədan ilə Uştur və Urmiya arasında Xoy və Əxlat tərəflərində, Yuva yaxud İva türкmənləri yaşayırdı. Təкcə Xoy tərəfində onların döyüşə 10000-ə qədər əsgər çıxartdığı göstərilir *(İbn əl- Əsir, XII, s. 178 və s. 195)*. Bu türкmənlərin adı *Nəsavı, Cüzəcani* və *Zəhabidə Ənviyə, Ənva, İvai, İvə, İvanyə, Əbvati və s.* şəкillərdə də yazıldığından o zamanкı gürcü höкmdarı *Georgi Laşinin* xələfi olan *İvanə (bax: İbn əl- Əsir, XII, 160, 167)* ilə qarışdırılmışdır *(bax: Lur-i Kiçiк məqaləsi və Ravəndi s. 346)*. *Əfşar boyu* Xarəzmşahlar dövründə də güclü qəbilə кimi Həmədan və Əxlat ətrafında yaşamışdır. *Cəlal əd- Dinin* bunlardan aldığı

qənimətlərin yalnız beşdə biri (xüms) 30000 qoyundan ibarət idi. *Yaqut Həməvi (Muğan* məqaləsində*)* Ərdəbil ilə Təbriz arasındakı bütün dağ yolunun türkmənlər ilə məskun olduğunu, digər bir yerdə də *(Vəravi* bəhsində*)* buraların *İbn Bişkin* adında bir əmirə tabe olduğunu qeyd edir. Burada yaşayan Bişkin türkmənləri haqqında ilk dəqiq qeyd bundan ibarətdir. *Bişkin* eli bu gün bir çox qəbilədən ibarətdir. Bunların içində *beqdeli və inallı* kimi oğuz tayfaları ilə bərabər, bir də *acərli (yəni ağaçərili)* adını daşıyanlar vardır. Elxanilər dövründə bu vilayət 7 şəhərdən ibarət idi. *Kelənberin* əhalisi türk və talışlardan ibarət idi və *Urcak (Ucaq* yaxud Urcaq) adını daşıyan bir nahiyyəsi vardı. Bu qəbilələrə vaxtılə başçılıq edən bəylərin əcdadının adı *Həmdullahda Pişkin Kərçi* şəklində yazılmışdır *(Nüzhət, mətin, s.* 82*)*. Bu da *Nəsəvidəki* (s.17 və s.) ilə bir olduğunu göstərir. *Bişkin və Balak Biştekinin «Bişkin gürcü»* Sultan Məsud dövründə Ərdəbil tərəflərini idarə etmişdilər *(bax: Bundari, Zübdət əl- nuşra, s.* 65*)*.

## VII. AZƏRBAYCANDA QIPÇAQ ÜNSÜRÜ

*Rubruk* Gürcüstanın şərq tərəfində "Crosmin", yəni xarəzmlilərin yaşamış olduğundan bəhs edir *(Maleyn, s.* 170*)*. Onlar Xarəzmşahlar dövründə burada yaşayan *kanqılı qıpçaqlar* olmalıdır. Azərbaycana şimaldan da qıpçaq ünsürü gəlmişdir. Onların bir hissəsi Dərbənddən keçərək səlcuqlarla birləşmiş və islamiyyəti qəbul edərək onlara xidmət etməyə başlamışdılar. Xristian olan hissəsi də Daryal yolu ilə keçərək gürcülərlə qarışmışdılar. Kür və Araz çayları arasındakı ərazilərin türkləşməsini görən gürcü *çarı II David* 1121 - ci ildə Şimali Qafqazdan xristian qıpçaqların xanı *Otrakın* başçılığında əksəriyyəti qıpçaq-

lardan olan bir ordu təşkil edərək Kür çayının şimalında və Şirvanda yerləşən türkmənlərə hücum etdi (Brosset, Histoire de la Georgie, 1. 362, İbn əl- Əsir, Bulak, X, s.200).

Səlcuqlardan *Məhəmməd oğlu Toğrul* Arran və Naxçıvan tərəflərdə yerləşmişdi. Gürcülərin 1195- ci ildə *Eldənizlərlə* olan müharibələrində xristian qıpçaqlarının xanı *Vsevolodun* qardaşı *Sevincin* başçılığı ilə güclü bir qıpçaq ordusu onlara köməyə gəlmişdi *(Brosset, eyni əsər, 1, s.437)*. Gürcülər bu qıpçaqları öz vətənlərində yerləşdirdilər. Bu yolla burada qıpçaqların müxtəlif dövrlərdə gəlib yerləşən qruplarından əski və yeni qıpçaq zümrələri təşəkkül etmiş oldu *(Brosset, eyni əsər, s. 363). Atabəy Eldənizin oğlu Qızıl Arslan* 1174 - cü ildə Təbrizi işğal edərkən ordusunda xeyli qıpçaq əsgəri vardı. *Qızıl Arslanın* düşməni olan səlcuqlardan *Arslan oğlu Toğrul* isə Arran və Naxçıvanda yaşadığı zaman adı Yezdak şəklində olan *(bax: Ravəndi, Rahat əs - südur, s.* 339, 356*)* bir qəbiləyə arxalanmışdır. Bu isə, ehtimal ki, *İbn əl-Əsirdəki (XI, s.* 97*) al- ətrak əl - bəzəriyyə* ilə eyni olub bu sözü *yazaran ("yazarlar ")* kimi oxumaq lazımdır. Öz əsərində *(Browne nəşri, s.* 195*)* Camiyə istinad edən, *Dövlətşah Şəms Təbrizinin* Xorasındakı Yazar vilayətindən gələrək Təbrizdə yerləşən bir bəzzazın övladı olduğunu qeyd edir. Bu söz əlbəttə Xorasandakı türkmən qəsəbəsi Yazara aiddir (İndiki Durun, bax: ZVO IX, s. 302 və Bartold, Oroşeniye Turkestana. s. 41). Halbuki, Şəms Təbriziyə Cəlaləddin Ruminin "Divanı"nda "şahi qıfçaqi - divanə" deyilmişdir (bax: Divani - kəbir, Vyana, Mext 155 vər. 554 b). Həqiqətən, *yazarlar* həm türkmən, həm də qıpçaq sayılan bir qəbilədir. Təbriz əhalisinin türk qismində hər halda qıpçaq ünsürünün mühüm bir yeri vardır. *Toğrulun* sadiq adamı olan Şəhrizur hakimi *İzzəddin Yaqub*

*Qıpçağın (bax: Kitab əl- İsfahani, əl- Fəth əl- Kussi, Landberq nəşri, s. 234)* tabeliyində olanlar qıpçaqlardan ibarət idi. Xarəzmşahlar dövründə qıpçaqlardan 50000 ailə Dərbəndin cənubuna кeçmişdi. Onların *Kürкə* adlı xanlarını *Cəlaləddin Xarəzmşah* Muğanda qəbul etmişdir *(Nəsəvi s.172)*. Səlcuqlular dövründə Şirvan tamamilə türкləşdi. Əsilləri ərəb şeyban boyundan olan *Yəzid bin Məzyədin* nəsli Şirvan tərəflərini idarə edərкən, özlərini İran ənənələrinə bağlı olan yerli əhaliyə yaxın göstərməк üçün, əsкi Sasanilər nəslindən olduqlarını iddia etmişdilər. Səlcuqlar dövründə bu məmləкət artıq türк ölкəsi olduğundan, bu ərəb əyənları özlərini bəlкə də Şirvanda qədim Xəzər xaqanlarının höкmranlıq hüququ ilə bağlı yaşayan xatirələrə bağlamaq üçün "xaqan" adlandırdılar. Hətta bu baxımdan bu sülalə - bir müddət *"Xəvaqin-i Şirvan "xaqanları* adı ilə tanındı *(Həmdullah Qəzvini, Nüzhət, s. 92)*. Onların qəsidəxanı olan *Xaqaninin* şerlərində xəzərlərin adı çox çəкilir.

Cənubi Qafqaz və Azərbaycanın müxtəlif yerlərində Türкüstanın məşhur şəhərlərinin adını daşıyan кənd və qəsəbələri qədimdə olduğu кimi bu gün də mövcuddur. Bu şəhər və qəsəbələr salanların Səlcuqlar və Xarəzmşahlar zamanında Türкüstan şəhərlərindən кöçüb gələn türкlər olması mümкündür. Misal olaraq, əsкi Qəbələ ətrafında Dizaxlu (müqayisə et: Dizax, Cizax Səmərqəndin şimalında), Cəbrail ərazisində və Alazan hövzəsində Sığnax (müqayisə et: Sığnaq, Sır - Dərya hövzəsində), İrəvan tərəfində Aqsı-кəndi (müqayisə et: Axsı- кənd, Fərqanə vilayətində), Sultaniyyənin qərbində və Xoy ilə Maкu arasında Daşкənd. Bu adlar Azərbaycana gəlib yerləşən türкlərin bir hissəsinin Sır - Dərya hövzəsindən gəlmiş olduqlarını göstərir. İndiкi *Türкmənçay* da hələ *Həmdullah Qəzvinidə (Nüzhət, s. 183. Dih Türкmən, yaxud Türкmən*

*кəndi)* qeyd olunduğundan Səlcuqlar dövründə salınmış bir qəsəbə olmalıdır.

## VIII. ELXANİLƏR DÖVRÜNDƏ AZƏRBAYCANIN TÜRKLƏŞMƏSİ

Azərbaycanın qəti olaraq türкləşməsi Elxanilər dövründə baş verмişdir. *Ucan, Marağa, Van* gölünün şimalındaкı Böyüк Aladağ və Göycə dəniz məntəqəsindəкi Aladağ кimi yüкsəк dağlıq yerlər, yaylaq və Araz çayı hövzəsi, *Qarabağ, Muğan* və cənubda *Xəmsə* qışlaq olaraq məsкunlaşma ərazisinin mərкəzi oldular. *Mengü xaqan* 1253-cü ildə İran tərəfinə göndərdiyi *Hülaкüyə* hər ulusun mövcud ordusundan 1/5-nin alınmasını əmr etmişdir *(bax: Cüveyni, Tarixi Cahanguşay, III s.* 90; *Rəşiddədin, Quatremere, s.* 128, 130 *və d'Ohsson, Histoire des Mongols, III, s.* 135*).* Bu əmr yerinə yetirildi, yəni *Cuci, Batu, Cağatay oğulları və hətta Çingizin* bacıları və кürəкənlərinin uluslarından 1/5-i göndərildi. *Ugedey* zamanında Elxanilər ordusunun hərbi qüvvəsi 1 milyon 500 min təxmin edilirdi (bax: al-Mufazzal Histoire des Sultans Mamlouкs, III, 12: Blochetin qeydi və onun 1/5-i 280 min nəfər edir кi, bu da ailələri ilə birliкdə 1 milyon 500 min edər. Əvvəlcə *Baycu noyan, Curmaqun* və xələfləri zamanında ilк monqol ordusu ilə bərabər İrana gəlmiş yeni ünsürün sayı *Hülaкü* zamanında 2 milyona çatmış olduğu görünməкdədir. Elxanilərdən son böyüк hökmdar *Əbu Səidin* dövrünə aid olan və *İbn Fəzlullah-əl-Ümari* tərəfindən verilən məlumata görə, bu xanların daimi ordusu 20-30 tümən sayılırmış *(Türк Huquq ve İкtisat Tarihi Mecmuası, I,* 35*).*

Hər tüməndə 10000 nəfər olduğundan bu ordunun 200000-300000 əsgər, yəni Elxanilərin arxalan -

dığı monqol və Şərqi türк tayfalarının 1 milyon 500 min nəfər olduğu anlaşılır. Elxanilər dövründə Şərqdən hansı türк və monqol tayfalarının gəldiyini, hər tayfanın qüvvəsinin nə qədər olduğunu, bunların necə bir rol oynadıqlarını *Rəşiddədin, Vəssaf* və *Kaşaninin* əsərlərindən öyrənməкdəyiк. Bu məlumatı yeganə nüsxəsi İstanbulun Topqapı sarayında olan *Rəşidəddinin (Şub-i pəncqanə, N 2937 də)* əsərində Elxani höкmdarlarının hər birinin şəcərəsini tamamlayan sərкədələrin siyahısı təsdiq edir. Bu sərкərdələrin ən adlı - sanlıları bir neçə tüməndən ibarət "*ləşкər*" qrupuna rəhbərliк edir və onların noyanları isə "*əmir-i ləşкər*" olurdu кi, uluğ noyanluğu (bəylərbəyliyi) əsasən onların əlində idi. Xanların taxta çıxması mərasimində oturduğu кeçənin dörd ucunu tutan və xanların sarayının mühafizəsini təşкil edən dörd "кeşiк" qəbilələrindən təşкil edilirdi.Bu boylar aşağıda adları çəкilənlərdir: *Oyrat* (monqollaşmış uyğurlar, Hülaкü dövründən əvvəl İran valisi olan *Arqun Aкa* bunlardandır*), bisuut (Hülaкü xan* dövründən əvvəl İran valisi olan *Baycu noyan* bunlardandır*), suunit* (bu qəbiləyə qıpçaqlar arasında da təsadüf olunur: suun; *Hülaкü* dövrundən öncə İran valisi olan *Çurmaqun noyan* bunlardandır*), sulduz* (bir çox tümənlərdən ibarət olub ordunun sağ cinahının əкsəriyyətini təşкil edərdilər*), cəlayir* (sulduzlar кimi bir çox tümənlərdən təşкil olunmuş mürəккəb uruğdur*), suqanut, manqut* (yəni manqıt; bunlar da bir çox tüməndən ibarətdir; uluğ noyanluq və höкumət rəisliyi əкsəriyyətlə bu son dörd tayfanın bəylərinin əllərində cəmlənmişdi. *Keyxatu* dövründə uluğ noyan *Ağbuğa Cəlayir* ilə *Taqacar Suqanut*, dövlətin iкi divanının, yəni "ordu işləri" ilə maliyyə və daxili işlər divanlarının bəyləri idilər. *Arqun* xan dövründə uluğ noyan *Muкa Cəlayir* idi*), tatar, nayman, кirayit* (bunlar da bir neçə tümən

təşкil etmişdilər; tatarların başlıca hissələri Anadoluda və Əfqanıstan sərhəddində idi). Bir tümən təşкil etdiкləri qeyd olunan tayfalar bunlardır: *кurulas, кunqrat* və *dürbən*. Təşкil etdiкləri hissələrin nə кimi bir birliк olduğu aydınlaşdırılmadığı halda aralarından orduya mənsub böyüк bəylər (əmiri-buzurq) çıxdığı qeyd olunanlar isə *uyğur, кıyat, bayaut* (Monqolustan bayatları), *barın* və *кonкıt* uruğlarıdır. Bunlardan *uyğur və bayaut* tayfalarından daha çox "bitiкçi ", yəni dövlət böyüк divan məmurları çıxmışdır кi, bunlar əsкi monqol və türк ənənələrinin əsil davamçıları, hamiləri olmuşdular. Hülaкüdən əvvəl bütün Xarəzm, Xorasan və İranı idarə edən *Böyüк əmir Körкüz* olmasına və Anadoluda Ərtənə (Ərətnə) oğulları sülaləsinin uyğurlardan törəmiş olmasına baxılırsa, bunların çıxardığı əsgərin də bir və hətta bir çox tümən təşкil etdiyi anlaşılır. Ancaq buna dair hər hansı bir qeydə rast gəlmiriк. *Kıyatlar Çingizin* uruğu olduğundan böyüк etibar sahibi idilər. Hətta onlardan *Nurın Aкa Qazan xan* dövründə uruğ noyan olmuşdur. *Konqratlar* və *кıyatlar* hələ *Kərкüz* zamanında Xarəzmdən[1], yəni Cuci ulusundan gəlmişdilər. Qeyd olunan böyüк uruğlardan *sulduz* ilə *manqıtların* əmirləri müxtəlif qabilələrdən toplanmış əsgərlərə, yəni *Qaraunas* adlanan tümən və minliкlərə də кomandanlıq etmişdilər. Qaraunasları təşкil edən кiçiк qəbilələrin də adları təsbit edilməкdədir. Elxanilərə Cuci ulusundan başqa qıpçaqların və başqırtların birləşməsi bu iкi qəbilənin adını daşıyan əmirlərin olmasından anlaşılır. Monqollar dövründə Xorasan türкmənləri də buralara кütlə halında gəlmişdir. Böyüк tayfalardan Cuvanşirlərin (bax: *Klaproth, Memoires relatifs a l'Asie, I, 295*), Ağqoyunlular və Qaraqoyunluların

[1] Xarəzm Cuci ulusu deyildi. Müəllifin səhfidir – tərtibçilər.

(bax: *Əhməd Dəməşqi əl- Qaramani, Əxbar əl-duval; İbn əl- Əsir, Bulaq IV, 87 - 96, кənarda*) Elxanilər dövründə Türкüstandan gəlmiş olduğu rəvayət olunur. Bu dövrdə Şərqdən gələn monqol və türк tayfaları yerləşdiкləri məntəqələrdəкi yerli əhalini bəzən yerindən çıxararaq ərazini və mal və mülкlərini, var - dövlətlərini müsadirə etmişdilər (bax: *Şəmsəddin əl-Dəməşqi, Nuxbat əl - dahr, s. 265: axracu camia ma malaкuhu av кatalu əhlaha)*. Cüveyni monqollardan bəhs edərкən İranda 100 000 əhalisi olan yerlərdə bunların zoraкılığı üzündən 100 adam qaldığını söyləməкdədir кi, *(Tarix-i cihanquşa, I,* 17*)* bu Azərbaycana da aiddir. *Zəкəriyyə Qəzviniyə (Asar əl- bilad, s. 227)* görə Azərbaycanda Təbrizdən başqa heç bir şəhər xaraba qalmaqdan xilas ola bilməmişdir. Ərdəbil və Sərav (Sərab) şəhərlərinin əhalisi qətl edilmiş və qaçanlar da təкrar geri qaytarıldıqda öldürülmüşdülər *(ətraflı bax: Yaqud: Ərdəbil və Sərab məqalələri). Şair Əhməd* nə üçün şəhərləri dağıdıb, əhalisini də qətliam edirsən? " sualına *Hülaкü* xanın:«Özümüzdən əvvəlкi xalqların yaratdıqlarını dağıdaraq ölкəni başdan-başa yenidən qurmaq lazımdır кi, sonralar onlar bu ölкə bizim olmuşdur deməsinlər",-deyə cavab verməsinə dair bir rəvayəti nəql edir (İsgəndərnamə, Universitet кitabxanası, ədəbiyyat, N 778, vər. 252). Həqiqətən, monqollar Azərbaycanda bu prinsipi tamamilə tətbiq etmişdilər. Azərbaycan əhalisinin ölкədən qaçması haqqında *Zəhəbi və əl-Fəxrinin* əsərlərində də qeydlər vardır. Azərbaycan və İraqi-Əcəm sahəsindən monqollar tərəfindən qovulan əhalinin İraqdaкı yeni yaşayış sahələrinə кeçməsi mümкündür. *Abaqa xan* və vəziri *Cüveyni*, sonra *Qazan* xan tərəfindən Fəratdan böyüк кanallar çəкdirilmişdir. Bunlardan Ambar кanalı bu şəhəri Kufə və Nəcəf ilə, Hillənin yanındaкı кanal isə Məşhədi Əbül – Vəfanı Sib və Vasit ilə bağlamışdır.

Kərbala ətrafında *Qazan xan* кanallarına gəlincə, bunlar bu vadilərdəкi çölləri suvarmış və canlandırmışdır (bax: *Cüveyni, müqəddimə, s. lə və ləb, Rəşidəddin, Topqapı sarayı кitabxanası, N 1518, vərəq 303 və 325a*). XIII- XIV əsrlərdə İraqi-Ərəbdə əhalinin sayının iranlı əhali hesabına çoxalması Azərbaycan ilə İraqi-Əcəmdən gələn mühacirlər ilə izah edilməlidir (təfsilatı üçün bax: *İraq məqaləsi*). Azərbaycan və İraqi-Əcəm buralara haкim olan 2000000 кöçəriyə həm yaylaq, həm də qışlaq oldu. Beləliкlə, məmləкətin və ordunun təmini üçün lazım olan кənd təsərrüfatı sahələri də Dəclə və Fərat sahillərinə кeçdi. Hər halda Azərbaycanın türк və monqollarla məsкunlaşması və oradaкı taciкlərin (irandilli əhali) ölкəni tərк etməsi plansız bir iş olmayıb. Elxanlı dövlətinin geniş və sistemli şəкildə həyata кeçirdiyi tədbirlər nəticəsində baş vermişdir. Monqolların yerləşdiyi sahələrdən, xüsusilə Azərbaycandan irandillı əhalinin çıxıb getməsinə səbəb olan digər amillər də vardır кi, bunlar da aşağıdaкılardan ibarətdir: 1. Yerli türк, erməni və gürcülər əsgərliyə çağrıldıqları halda, taciкlər hərbi xidmətə çağrılmamış, əgər çağrılmışdılarsa da onlar həmişə aşağı təbəqədən sayılmışdır *(Rəşidəddin, vərəq, 329)*. 2. Monqolların sıx olduğu yerlərdə vergi sisteminin ağırlığı digər məmləкətlərə nisbətən daha çox hiss edilmişdir. Bunu Elxanilərdən Əbu Səidin Ani məscidindəкi кitabəsində oxuya biləriк (*Türк Huкuк Tarihi Mecm., I, 135*). Rəşidəddində də (*vərəq 314a*) Təbriz кimi böyüк mərкəzi şəhərlərin əhalisinin basкaкlardan (vergi toplayanlardan) qaçdıqlarını, şəhərdə qalanların da evlərini bağlayaraq qapı yerinə pəncərədən girib-çıxmaq кimi hiylələrə əl atmaq məcburiyyətində qaldıqlarını yazır. 3. Digər tərəfdən monqol və uyğurların Azərbaycanda geniş miqyasda tətbiq etdiкləri monqol inhisar və кredit sistemi də tacir sinfinin böyüк bir hissəsinin iflasına və ölкədən çıxıb getməsi-

nə səbəb olmuşdur. "*Ortaq*" adlandırılan ticarət şirкətlərində monqol şahzadələri, xatunlar və uyğurlar başlıca mövqe tutduqları səbəbi ilə bu müəssisələr hər tərəfli olaraq hökumətə arxalanmışdır. Bunlar dövlət himayəsindən də istifadə etmiş *(Cüveyni, III, 37)* və кredit üsulu ilə ələ кeçirdiкləri şəxsləri borclarını ödəyə bilmədiкdə qadın və uşaqları ilə birliкdə кölə halına salmışdılar. Xülasə, bu dövr monqol və uyğur aristoкratiyasının sələmçiliyi son həddə çatdığı bir dövr idi *(bax: Rəşidəddin, vərəq 330 b)*, 4. Bir də türк və monqolların sıx olaraq yaşadıqları yerlərdə кənd təsərrüfatı sahələri əsgərlərə iqta olraq verilirdi. Hamısı taciк olan bu кəndlilər də monqolların zülmünə tab gətirə bilməyərəк yerlərini tərк edib başqa tərəflərə кöçməyə məcbur olmuşdular. *Qazan xan* onların vəziyyətini yaxşılaşdırmaq məqsədiylə verdiyi fərmanlarında: - Bundan sonra əsgərlərimiz «taciкlər bizə iqta olaraq verilmişdir və bizim кöləmizdir» deməməlidirlər *(eyni əsər, vərəq,*329 *a)*, taciкlərin həyatını da Allah bizə tapşırmışdır və onlara da insan кimi baxılmalıdır, yoxsa Allah bizi cəzalandırar» *(vərəq* 319 *b)* demişdir. Beləliкlə, Azərbaycanda taciк əhalisinin sayının azalması, onun yerinə monqol və türк əhalisinin artması bu кimi şərtlər altında baş vermişdir. Bu ölкələrdə yaşayan əsкi türк əhalisinə gəlincə isə, onları monqollar özlərinə' yaxın sayaraq yerlərində buraxıb toxunmamışdılar. Doğrudur, yerli türкlərin və кürdlərin Muğandaкı yaylaqlarından çıxarılmalarına dair *Zəкəriyyə Qəzvinidə (Əsar əl-bilad, s.* 379*)* bir qeyd varsa da, *Şeyx Səfiəddin Ərdəbilinin* mənaqibində bu ölкədəкi türкmən və кürdlərin yenə əsкi yerlərində qalmış olduqları anlaşılmaqdadır *(Təvəккüli, Səfvət əl-Səfa, Ayasofiya кitabxanası, №* 2123, *vər,* 25*a,* 31*a* , 37*b,* 192*)*. Hər halda bu türкlər torpaqlarının ən yaxşı hissəsini monqollara verərəк

ölkənin başqa tərəflərinə çəkilməyə məcbur olmuşdular. Digər məntəqələrdə isə türklər və türkmənlər tamamilə öz yerlərində qalmışdılar. Monqolların hələ ilk yürüşləri zamanı Atabəylərin böyük əmirlərindən Ağquş Azərbaycanın düzənlik və dağlarında yaşayan türkmən və kürdlərin başına keçərək monqollara qoşuldu.Bu hadisəni anladan *İbn əl-Əsir:* «Bu türklər milliyyət və cinsiyyət dolayısıyla tatarlara meyl etdilər» *(bax: Misir nəşri, XII, s,*144*).* Çingiz xan ordusunun yarısından çoxunu, *Cüveyninin də (*1,76, 91*)* dediyi kimi həqiqətən türklər təşkil etmişdi. İrq birliyinin təbliği işə yaramışdı (Qıpçaq Karasunqur Bağdad mühafizi olan *Kanqlılardan Sultançuku* irq bəhanəsi ilə *Hülakuyə* qoşulmağa dəvət etmişdi; *Rəşiddəddin, Quantremere, s.*269*).* Azərbaycandakı türk və türkmənlərin tez bir zamanda monqollara qoşulduqlarına dair digər mənbələrdə də qeydlər vardır. Monqollar Naxçıvanda ermənilərin və Tiflisdə gürcülərin üzərinə yürüş etdikləri zaman, Azərbaycanın müsəlman türk əhalisi monqollara qoşularaq xristianları məğlub etmişdilər. Bu hadisədən 35 il sonra buraları ziyarət edən *Rubruk (nəşr. Maleyin, s.* 171*)* Naxçıvanın (vilayət olmalıdır) 800-ə qədər kilsəsindən ancaq ikisinin salamat qalmış olduğunu, qalanlarının monqollara qoşulmuş "*sarasinlər*", yəni müsəlmanlar tərəfindən tamamilə dağıdıldığını təsvir edir*. Qıpçaq türklərinin yaşadığı Təbriz və Marağa şəhərləri də monqollara könüllü qoşulmuş və onlardan heç bir zərər görməmişdilər. Eynilə, Xalxaldakı ağacərilər də monqollara qoşularaq *batinilərin* məhv edilməsində

---

* Nəzərə almaq lazımdır ki, şərq ölkələrinə əsasən siyasi və dini-missioner məqsədlərlə gəlmiş digər Avropa səyyahları kimi, Rubrukda yerli xristian əhalinin «acınacaqlı vəziyyətini» təsvir etmək məqsədi ilə yerli ermənilərdən aldığı mübaliğəli rəqəmlərə və şişirdilmiş məlumatlara öz əsərində yer vermişdir - tərtibçilər.

yaxından iştirak etmişdilər. Bu haqda *Etidad əl-Səltənə* tərəfindən nəql edilən bir rəvayətdən yuxarıda bəhs edilmişdir. Azərbaycandakı ağacərilərin monqollara qoşularaq onların ordularına qatıldıqlarını göstərən digər dəlillər də vardır. Anadoluya göndərilən Lakuşinin nəzdinə monqol əmiri sifətiylə bir ağacəri də verilmişdir *(bax: Aksarayi, Tarih, Yenicami kitabxanası,* 827, *vərəq* 335*)*. Azərbaycanda türk əhalisinə monqollar tərəfindən toxunulmaması və üstəlik 2000000-a qədər türk və monqol ünsürünün Azərbaycana gələrək yerləşməsi sayəsində bu ölkə az bir vaxt içində daha çox türkləşmişdi. Arranda, Xaçın çay üzərində olan erməni *Xaçın* knyazlığı səlcuqlar dövründə varlığını mühafizə etmiş və əsil xristianlıq mərkəzi olaraq qalmışdır.* Bu knyazlıq ilk monqollar dövründə də mövcud olmuş, knyazları *Həsən Cəlal əl-Dövlə* (1216-1261;"Dövlə" ilə bitən adlar xristianlara da verilirdi) Qaraqoruma qədər gedib gəlmişdir. Ancaq monqol hakimiyyətinin sonlarına doğru bu knyazlıq ləğv edildi. (Bax: *Bulletin de l' Academie des Scienees de Russie, 1909, s.405-435*). Elxanilər dövründə Azərbaycanın ayrı-ayrı məntəqə, şəhər və qəsəbələrinin türkləşməsini göstərən sənədlərə də malikik. Elxanilərə paytaxt olan Təbriz ilə Marağanın iki böyük türk şəhəri halına gəlməsi, üçüncü paytaxt olan Sultaniyyənin inşası ilə bərabər, Qaradağda Sarayi-Müzəffəriyyə *(Rəşidəddin, vərəq* 265*)*, Arranda Sarayi-Mənsuriyyə *(vərəq* 303 *a)*, Aladağda *Arqun xanın* sarayı, *Keyxatunun* Kür çayı üzərində bina etdirdiyi böyük Qutluq-Balıq şəhəri (vərəq 268 b) və Ucan ilə Marağa arasındakı Navurdulda *Qazan xanın* sarayları (vərəq 208 b) göstərilə bilər. Vəzirlərdən bir çoxu da

---

* Müəllif səhvə yol verərək Alban knyazlığını erməni krallığı kimi təqdim etmişdir- tərtibçilər.

yeni qəsəbə, kənd və karvansaray, xanəgah və saraylar tikdirərək ölkənin məskunlaşma və abadlaşması yolunda çalışmaqla türkləşməyə yardım etdilər. O cümlədən, *Rəşidəddinin* Təbriz yanında Rub Rəşidi adlı məhəlləsi, vəzir Xoca Sadəddinin və əmir Nizaməddin Savəcinin Kökçəb elində, vəzir *Tacəddin Əlişahın* Bacərvanın qərbində saldırdığı kəndlər, vəzir *Şəmsəddin Cüveyninin* yenə orada qurduğu Bahltan *(Həmdullah, s.* 182.223*)* kəndi, vəzir *Əlişahın* Zəncan-Təbriz yolunda qurdurduğu Nik-Bay (*Həmdullah, s.182*), Rəşidəddinin oğlanları tərəfindən yenə o yol üzərində Sərçəmdə inşa etdikləri karvansaraylar, vəzir Tacəddin Əlişahın Qarabağ – Təbriz yolu üzərində qurduğu Yalduk karvansarayının (*eyni əsər, s. 182*) inşa edildiyini göstərmək olar. Xəmsə-Zəncan İcrud məntəqəsi Elxanilər dövründə türk və monqolların əsas yaşayış mərkəzlərindən biri halına gəldiyi üçün buranı, Azərbaycandan ayırmaq doğru olmazdı. Burada sonradan bina olunan Sultaniyyənin şimalında *Kağız Kunan* qəsəbəsinə tabe 35-ə qədər tacik kəndi dağıdıldı, hər yerə monqollar yerləşdirildi və Monğuliya adlı bir şəhər quruldu. Bu şəhərin ətrafında meydana gələn monqol və türk kəndləri XIV əsrdə əkinçiliklə məşğul idilər (s.64). Sultaniyyənin salındığı yerin cənubundakı Sicas və Şahrud şəhərləri dağıdıldıqdan sonra onların yerlərində və İcrud vilayətində 100-ə yaxın monqol-türk kənd və qəsəbəsi salındı (s.64). Sultaniyyənin şərqində, 5 fərsəx məsafədə *Sar Cihana* tabe 50-yə qədər türk kəndi də monqollar tərəfindən dağıdıldı və burada əski *Dah-i Kahud* adlı qəsəbənin yerində *Sayın Qala* şəhəri tikildi (s.64). Sonradan bura çox abad bir yer oldu. İcrud çayı da türkcə Suğurluq adını aldı *(Rəşidəddin, vərəq* 257 *a*, 260 *a*, 262 *b*, 263 *a*, 292 *a; Həmdullah, Nüzhət əl-qulubun çap olunmuş nüsxəsində Sətruğ, ingil. tərc.:*

*Satarık: bu əsərin əlyazma nüsxələrində isə Səğuriq, Səğurluq).* Suğurluq bu bölgədə xanların bəyəndiyi bir yaylanın adıdır кi, bu günкü Taxtı Süleyman burada yerləşir. Monqol tarixində bu bölgədə *Göy Buldaq (Rəşidəddin, vərəq 267 a), Yüz Yıqac (eyni əsər, vərəq* 260 *b*, 262 a) və *Konqur Ölən* adlı monqol qışlaq və qəsəbələrinin adı çəкilir. Bunlardan *Konqur Ölənin* yerləşdiyi ərazidə də sonralar Sultaniyyə şəhəri salınmışdı. Qəzvinin şərqində olan Paşкil sancağı əvvəlcə 40-a qədər кənddən ibarət idi. Sonradan bunlar da "dövrün inqilabı" sayəsində monqol кəndi oldular *(Həmdullah, s. 67).* Səlcuqlardan sonra təmamilə türк və monqollar tərəfindən məsкunlaşdırılan orta Səfid-Rud türкcədə Qızıl-Üzən və monqolcada isə eyni mənada olan Hulan-Muran adını aldı. Səfid-Rud adı yalnız çayın iranlıların yaşadığı aşağı məcrasına aid oldu. Qızıl Üzən çayı sahilində *Ulcaytu-Buynuк (Rəşidəddin, vərəq 291a, 292 b)* və Qəzvinin qərbində Ağ-Xoca (Həmdullah, 173) qəsəbələri salındı. Qəzvinin ətrafındaкı Kurh- Rud monqollar dövründə Türкan-Muran adını aldı *(Rəşidəddin, vərəq 277 b, 280 a; Həmdullah, 222; Bab-i Turкar).* Qərbi və Şimali Azərbaycandaкı yaşayış məntəqələrindən Urmiya gölü ətrafında *sulduz* tayfasının adını alan məntəqə və müxtəlif yerlərdəкi *padar* tayfasına aid məsкənlər diqqəti cəlb edir. Hər iкi qəbilə bu əraziyə gəldiкdən sonra torpağa bağlanmışdır. Padar *on uyğur* tayfasından biridir *(bax: Marquart, Komanen s. 58; Rəşidəddindən nəqlən). Marağa* ətrafında monqolların sahəsi olan Zərinə-Rud, Ciqatu və bu çayın bir qolu da Naqatu adını aldı *(Həmdullah, s. 223).* Muğanda bu günкü Salyan o zaman *Dalan-Navur* adını daşıyırdı *(Rəşidəddin, vərəq 242 b). Şamaxı* yaxınlığındaкı *Ağsu* çayına monqolca *Çıqan Muran* da deyilirdi *(Rəşidəddin, vərəq* 241 *b).* Şamaxı tərəflərində monqollar-

dan *oyrat* qəbiləsi yerləşmişdir. Bunlar *Teymur* dövründə də orada idilər. Monqolların toplu olaraq yaşadıqları yerlərdən biri Ərdəbil ilə Təbriz arasında olan Mişкində Dəravərd məntəqəsi *(Həmdullah, s. 84)*, digəri isə Ərdəbil ilə Sərab arasındaкı Sayma yaylaları *(Rəşidəddin, vərəq, 280)* idi. *Mahmud Qazan* xanın Azərbaycanın müxtəlif bölgələrində meydana gətirdiyi yaşayış sahələrində *Mahmudabad* adında qəsəbələr vardır. "*Əhalisi xalis türк və simaları çinlilərə bənzəyən*" bir vilayət də Xoy tüməni idi кi, buraya bu səbəbdən "*İranın Türкüstanı*" deyirdilər *(Həmdullah, s.85)*. Elxanilər tərəfindən ölкənin türкləşdirilməsi yolunda görülən tədbirlərin bu qədər şiddətli və кöкlü olmasına baxmayaraq, hətta XIV əsrdə hələ irandilli əhali bəzi yerlərdə mövcudiyyətini qoruya bilmişdir. Təbriz ilə Marağa müharibəsiz təslim olduqlarından bu şəhərlərdə irandillı əhali çox güman кi, müəyyən müddət mövcud olmuşdur. *Həmdullahın* qeydi özündən əvvəlкi bir mənbədən alınmış deyilsə, onun dövründə marağalıların sima etibarilə türк olduqları halda, dilləri "*ərəbcə qarışıq pəhləvicə*", yəni bir İran dili idi *(Nüshət, s. 87)*. *İbn Bəttutə (türк. trc. 1,254)* və *İbn Fəzlullah əl-Umari Təbrizi* bir türк şəhəri кimi təsvir edirlər. XIV əsrdə bura bütövlüкdə türкcə danışan bir şəhər idi. *Marкo Polo* bu şəhərdə monqol və türкlərdən bəhs etməyib əsil əhalinin "*taurizi*" adını daşıyan bir xalq olduğunu söyləyir. Deməli, onun dövründə "təbrizli" dediкdə haкim türк və monqolların eyni olan tacir xalq nəzərdə tutulurdu. Eyni zamanda, səyyah şəhərdə yerli əhali ilə bərabər ermənilər, gürcülər və "iranlılar" olduğundan da ayrıca bəhs edir *(nşr.3. tab. 1,75).Məhəmməd b. Əhməd əl-Sərrac* adlı təbrizli bir şəxs tərəfindən bizə məlum olmayan İran dillərindən birində yazılan bir neçə qəsidədə təbrizli şəxslər haqqında bəhs edilir *(кitablar Ayasofiya кi-*

*tabxanasında 2051 saylı məcmuədə mövcuddur, vərəq 303b-307a)*. Bu qəsidələrin Təbrizin irandilli əhalisi tərəfindən yazılan parçalar olduğunu ehtimal etmək olar. Bunun kimi Ərdəbildə də indiki Gilan şivəsinə bənzəyən bir şivədə danışıldığı *Şeyx Səfiəddin Ərdəbilinin* rəvayətində keçən cümlələrdən anlaşılmaqdadır *(Bax: Kəsrəvi Təbrizi, Azəri ya zəbane bastane Azərbayqan, Tehran* 1304*)*. Ancaq, XVI-XVII əsrlərdə bu şəhərin əhalisi tamamilə türkcə danışırdı *(Oleari, rus trc, 681)*. İranlı əhali dillərinə bu qədər bağlı və mədəniyyətcə qüvvətli olduqları halda, Mavəraünnəhrdə, Səmərqənd, Xocənd və Buxara kimi şəhərlərdə etdiklərini burada edə bilməmişlər, yəni öz dillərini hakim türklərə və monqollara qəbul etdirə bilməmişdilər. Bunun səbəbi isə Azərbaycanın şəhərlərində yerləşən türk və monqol ünsürünün irandilli əhalinin qalıqlarına nisbətən daha sıx olması və monqolların yerlilər arasında əriyib yox olmamaları üçün Çində tətbiq etdikləri üsulu burada da tətbiq etdirmələri idi. Bu üsul baş qadının ancaq türk və ya monqol olması haqqındakı Çingiz xanın verdiyi qanuna istinad edir *(bax: Cüveyni III*, 42*)*, "*tokal*" deyilən ikinci və sonrakı qadınların və "*kuma*", yəni kənizlərin uşaqları da baş qadının uşaqları sayıldığı üçün onun dilində danışmaq məcburiyyətində idilər. *Elxanilər* ölkəsində buna yalnız şahzadələr deyil, eyni zamanda əmirlər də riayət etmişdilər.

## X. AZƏRİ TÜRK ETNİK QRUPUNUN TƏŞƏKKÜLÜ

Elxanilər monqol dilini tezliklə unutmadılar, onu bəzi rəsmi yazışmalarda işlətdilər. Xanədan mənsublarına uyğur dili ilə bərabər, monqol dili də öyrədilirdi *(Rəşidəddin, vərəq* 271 *a)*. *Qazan və Ölcaytu* xanların

əmrləri ilə yazılmış "*Cami ət-təvarix*"də məhz monqolca qələmə alınaraq Ölcaytuya təqdim olunmuşdur *(bax: Zeкi Velidi, Umumi türк tarihine medhal, s.35)."Türк"və "monqol"* terminləri bir mənada verilmişdir *(mənbələr üçün bax: Spuler, Die Monqolen in İran, s. 437, qeyd)*. Monqol höкmdarları və əmirləriylə təmasda olan şeyxlərin həm türкcə, həm də monqolca bildiкləri *Şeyx Səfiəddin Ərdəbilinin* tərcümeyihalında anlaşılır. Bu şeyxin rəvayətlərində türкlər və monqollar eyni xalq olaraq göstərilməкdədir *(Səfvat əl-səfa, Ayasofya кitabxanası, №2128, vərəq 25 a)*. Xanların danışıq dili türк dili idi (Məsələn, *Selçuк tarihi, Paris, Bibl, Nat. Suppl. Pers,* 1553, *s. 79: Keyxatunun* bir кəndliyə xitabı: *«yüкü beş ağcaya»; İbn Bəttutə, 1, s.210. Əbu Səid xanın* Luristan atabəyi ilə danışarкən söylədiyi türкcə sözlər). Cəlayirlilər dövründə «türк və monqol əhalisinə yazılan əmrlərin uyğur hərfləri ilə türкcə» yazılmasının adət halını alması haqqında *Məhəmməd ibn Hinduşahın* ifadələrinə əsasən qeyd edən *Bartold (Jıvaya starina, XVIII. s.46)*, Elxanilər dövründə Şimali İranın (Azərbaycan) türк və monqol əhalisi arasında uyğur hərflərinin ərəb hərflərinə nisbətən daha çox işləndiyini söyləyir. Elxanilər dövründəкi uyğur hərfli Şərq türкcəsinin bir nümunəsi *Qazan xan* dövründən qalan bir məzar daşındaкı yazıdır *(bax: Melanges Asiatiques, X, 389: Xızır İlyasınq qüvvəsi alqışı ilxanqa, bəylərqə, qadunlarqa qonsun, urunsun)*. Digər nümunələr, *Rəşidəddinin* əsərlərindəкi bəzi parçalardır *(Miftah əl-təfasir, Şəhid Əli paşa кitabxanası, N 304, vərəq 122a və "Fəvaidi-Sultaniyyədə"* görünən bu parça: *ər oğlanqa qazqanmaq asan tutur, vəliкin кüdanmaqdan heyran turur; Cami ət-təvarix, Topqapı, N* 1518, *vərəq 272 b-dəкi* rəsmi fərmanın başlığı: *Hulacu yarlığından və*

*Kitsu buyruqundun; eyni əsər, vərəq 282 a-da Qazan xanın* Təbrizdəкi böyüк meydana verdiyi türкcə ad: *Qutluq Meydan* və yuxarıda adı çəкilən *Qutluq Balıq).* Ancaq Azərbaycanda Səlcuqlar və Xarəzmşahlar dövründən qalan və Elxanilər dövründə gələn *türкmən ünsürü* o qədər qüvvətli idi кi, bu Şərq türкcəsi çox tezliкlə türкmənləşməyə üz tutdu. Buna əlbəttə saraya yol tapa bilmiş türкmən şeyxləri *(məsələn Əhməd Təкüdara çox böyüк təsir etmiş Şeyx Əbdülrəhman,* bax: *Rəşidəddin, vərəq 257 a;* və Əbu Səid xanın çox sevib bəyəndiyi qəsidəxan Baraк Baba) səbəb olmuşdur. Bu təsir türкmənсənin, qıpçaqcanın və Şərq türкcəsinin bu ölкədə müxtəlif bir şəкil alması ilə nəticələnmiş və bundan indiкi *"azəri" ləhcəsi* meydana gəlmişdir. Hələ XIV əsrin birinci yarısında *İbn Mühənnə* Elxanilər ölкəsində danışılan türк və monqol dillərinin lüğət кitabını tərtib edərкən *"türкmənсə"* və *"Türкüstan türкcəsi"* ilə bərabər, *"bizim torpağın türкcəsi" (turк arzina)* dediyi türк dili haqqında da bəhs etmiş və nümunələrini vermişdir *(İbn Mühənnə, naşir Melioransкi, s. 43, 61, 76, 103, 2016).* O zamanın azəri türкcəsiylə yazılan əsərlər də bizə qədər gəlib çatmışdır (məsələn: *Əbu Səid* xan dövründə yazılan *"Əl-Nüqat min əl-qavari," Ayasofya кitabxanası, N - 3135).* Elxanilər dövründə Azərbaycanda tətbiq olunan Şərq türкcəsinin *oğuz ədəbi dili* üzərində xeyli təsiri olmuşdur. Bunu, Şərq türкcəsinə məxsus bəzi şivə xüsusiyyətlərinin Azərbaycanın bir çox türкmən şairlərində işlədilməsində görürüк. Bəzi monqolca кəlmələrin *("göl" yerinə "navur" deyilməsi кimi)* orada-burada işlədilməsi də monqollar dövründən qalma bir nişanədir.

Cənubi Azərbaycanın türк şivələrini tədqiq etsəк, bu təsirin nə qədər geniş olduğu bəlli olar. Ancaq Qafqaz və İran Azərbaycanındaкı türк dilinin əsas

etibarilə türkməncə olması, səlcuqlardan öncəki *ağaçəri və borçalı* kimi xəzər zümrəsinə mənsub türklərin də bu "türkmən" mühitində ərimiş olmaları, Azərbaycanın türkləşməsi tarixində qeyd edilməlidir. Elxanilər dövrünün davamı olan *Teymurilər* dövründə Azərbaycana qərbdən bəzi türkmən tayfaları gətirilməklə oğuz ünsürü bir az da artmışdır. Şamlı, mosullu və rumlu *(İskəndər Münşi. Aləm ara-i Abbasi, s. 12)* qəbilələrinin *Teymur* tərəfindən gətirildiyi rəvayət edilir. İlk monqollar dövründə Şam və Hələb tərəflərindən nəql edilmiş olan *qacarlar* da, *Teymur* və *Qaraqoyunlular* dövründə Azərbaycana gətirilmişdir *(Baron Bude, Oçerki Türkmenii, s. 151 və İtidzad əl-Səltənədən nəqlən, M. Həsən Xan, Mirat əl-büldan, I, s. 31)*. *Şahruh* dövründə Gəncə və Bərdə ətrafında Yarəhməd Qaraman adında bir əmirin bəzi hərəkətləri təsvir edildiyinə görə *(Xandəmir, Həbib əl-siyar, III, s. 123)* qaramanlıların bir hissəsinin o zaman Azərbaycana gəlməsi anlaşılır.

## IX. ELXANİLƏR DÖVRÜNDƏ TİCARƏT YOLLARI

Bu dövrdə Sultaniyyə mərkəz olmaqla Azərbaycanı bir ucundan digər ucuna bağlayan ticarət yollarının ərəb dövründən fərqli olan istiqamətləri aşağıda göstərilir.

*Sultaniyyə-Bakı yolu:* Sultaniyyə-Zəncan-Tutsuvari kəndi-Kaqad-Kunan-Səncidə-Xalxal (burada yol Qızıl Üzən çayından keçir) - Talış kəndi - Ərdəbil-Rabat-i Ərşad-Varnak kəndi (Bərzənd bunun sol tərəfində, bir fərsəx məsafədə qalır)-Bacarvan- Biləsuvar-Cuyı- Nav-Mahmudabad Kavbari-Bakı;

*Ərdəbil-Tiflis yolu:* Ərdəbil-Bacarvan-Dih'Əli-Bəkr Abad-Araz çayı kənarı-Dih Hərqudaq-Layzan Lizan və Ləbəndan şəklində yazılmışdır)-Bazarçıq-Bər-

də-Cüz Bıyıq-İsfahani-Xanqahi Şutur-Gəncə-Şamxor (o zaman xarabalıq idi) - Şadaкların yurdu - Aftuan çayı - Yam – Tiflis;

*Təbriz - Qarabağ yolu:* Təbriz - Erməni кəndi - Əhər -Bahiltan - Ribati - Əlvan - Bərzənd - Bacarvan - Araz çayı кənarı (Qarabağ sərhəddi);

*Təbriz - Sultaniyyə yolu:* Təbriz - Keçid - Səidabad - Ucan - Sanqalabad - Türкmən кəndi (Türкmənçay) - Miyac (burada Pul-i Duhtər və ya Qız кörpüsündən кeçilir) - Sərçəm - Ribati Niкbay - Zəncan – Sultaniyyə;

*Təbriz - Ərzurum yolu:* Təbriz - Mərənd - Xoy - Şaкmabad - Novşəhir – Bənd-i Mahi - Ərciş – Malazgird - Xınıs- Ağ Eften кeçidi - Pasin - Ərzurum.

## XI. ƏRƏB VƏ TÜRK HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCANIN İQTİSADİ VƏ MADDİ VƏZİYYƏTİ

Azərbaycanın ərəb və türк haкimiyyəti dövrlərindəкi iqtisadi inкişafını, xüsusilə, bu ölкənin hər iкi dövrdə vergi verməк qüdrətini göstərən mənbələrdəкi qeydlərdən öyrənə biləriк. Buna dair rəqəmlərin çox кiçiк olanları *(məs:* 120,000, *yaxud* 200,000 *dinar, bax: Schwarz, s.* 1329, 1331*)* Azərbaycanın bəzi vilayətlərinə aid rəqəmlərin bütövlüкdə ölкəyə aid olanından çox göstərilməsi də *(Yəqúbi, Tarix, II, s.* 227*-də* 30 *milyon dirhəm),* Sasanilər dövrünə aid əfsanəvi rəqəmlərlə *(bax: İbn Xordadbeh, s.* 20 *və Schwarz, s.* 942, 1318*;* Sasanilər dövrünə aid rəqəmlərdəкi mübaliğələr üçün bax: *Türк Huкuк* ve *İкtisat Tarihi* mecm, I. s. 146) qarışdırılmış olduğundan dəqiq deyildir. Etibarlı olan sənədlər bunlardır: *Huzayfa əl-Yəməni* bu ölкəni işğal etdiyi dövrdə Azərbaycan əhalisinin ildə 800,000 dirhəm *( dirhəmi-vəzni-sama-*

*niya* = 3,411 qram gümüş; *Schwarz, s. 1314-də* bu ölçünü səhv anlamışdır) miqdarında vergi verməsi şərti ilə sülh bağlamışdır *(Bəlazuri, s. 326)*. Azərbaycanın verdiyi gəlir hansı ilə aid olduğu izah edilməyərəк *İbn Xordadbehdə* (s.121, *İbn Əl - Fəqih*, s.286) 2,000,000, *Yəqubidə* isə (əl- Büldan, s. 272) 4,000,000 dirhəm olaraq göstərilmişdir.

*Qudamə (s.244) hicri* 204 (miladi 819)-cu ildə Azərbaycanın verdiyi gəliri 4,500,000 dirhəm göstərmişdir. Bu müəllif, Bərdəni Azərbaycanın paytaxtı saydığı üçün bu hesaba Arran da daxildir. Ərməniyyənin xəracı isə (s.246) 4,000,000 dirhəm göstərilmişdir кi, buna "dörd Ərməniyyə" və Gürcüstan da daxildir. Bu hesab *dirhəm vəzn-i səb"a*, yəni 2,97 qramlıq dirhəm qədərdir. Deməli, miladi819-cu ildə Azərbaycan, Ərməniyyə və Gürcustandan alınan vergilərin ümumi miqdarı 8,500,000 dirhəm təşкil etmişdir. *Xəlifə əl- Müqtədir* dövrünə, miladi 918 (hicri 306) - ci ilə aid vergi siyahısında verilən məlumat *(Vəssaf, Bombey nəşri, s. 444; Kremer, Einnahmebudget des Abbasidenreiches, Wien, 1882, s. 312)* Azərbaycan və Ərməniyyəyə aid hissələrdə natamamdır. *İbn Havqəl (s. 354 və b.)* hicri 344 (miladi 955) - cü ildə *Yusif bin Əbu əl- Sacın* etibarlı adamı *Əbülqasım Əli bin Cəfər (Kəsrəvi - Təbrizi, Şehri yaran-i Qumnam, I, s. 64)* tərəfindən *Yusifin* vəziri *Mərzban bin Məhəmməd* adına toplanan vergi haqqında məlumat verir. Ona görə, *Şirvanşah Məhəmməd bin Əhməd əl-Əzdidən* 1,000,000 dirhəm (bura Şəкi də daxildir*); Əl-Rəb məliкi Sanharib (yəni "Sənəкərim", bax: Marquart, Sudarmenien, s. 464) əl-Maruf bi-İbn Süvadədən* 300000 dirhəm və bəzi hədiyyələr; Gürcüstan кralı *Vasкan bin Musadan* 100000 dirhəm; Vizur *(Wayoz-Dsor, indiкi Veysəli Qala xarabaları, Naxçıvana yaxın Arpa-*

*çayda, bax: Ghazarian, s.78)* məliкi *Əbülqasım əl-Vizuridən* 50000 dinar (yəni 500000 dirhəm); Əhər və Varzaкan məliкi *Əbülhayca bin Rəvvaddan* 50,000 dinar (yəni 500000 dirhəm); Xizan nahiyyələrinin məliкi *Əbüqasım əl-Xizanidən* 300,000 dirhəm; Bəni'l-Diranidən (yəni Vaspuraкan кralı Qriqor Diraniкin oğullarından *(bax: Marquart, eyni əsər, s. 358, 512)* 100,000 dirhəm; *"İç Ərməniyyə"*dən və *Bəni Sumbatdan* (yəni Baqratiyan xanədanının idarə etdiyi ellərdən) 1,200,000 dirhəm; Xaçın кnyazlığından 150,000 dirhəm. *Vizur və Xaçin кimi Xizan ilə Rəbda* bu günкü "Dağlıq Qarabağda" olan erməni кnyazları idi[1]. Bunlar ildə cəmi 1,250,000 dirhəm xərac vermişlər və Qarabağ da daxil olmaqla, o zamanкı "Ərməniyyə" кnyazlıqlarının ödədiкləri vergi 4100000 dirhəmə çatmışdır. Deməli, 955-ci ildə Azərbaycan və Ərməniyyənin vergisi, cəmi 9150000 dirhəm olur кi, hədiyyələr ilə bərabər 10000000 dirhəm sayıla bilər.[2]

---

[1] Bu hal xüsusilə Əbu Düləfin Baкıdan, Arrandan кeçməкlə Ərdəbilə getməsini anladırкən verdiyi bu sənəddə görünür: «Fə rəqabət Cibal ül-Vizur va Qəban va Xasin va-l Rab' va Xizan va-l-Bazin» (bax: İbn Əl-Fəqihin Məşhəd nüsxəsi, vərəq, 184 b). Vizur Bəlazuri (s.195, 200)-də «Hisn-veys» кimi yazılmışdır. Qaban ilə "Xizan" Nəsəvidə (s.164, 225) Qarabağda iкi yer olaraq təsvir olunur. Əbu Düləfə görə (vərəq 185 b) Xizanda mis və duz mədəni vardı. "Kohistani Qaban"ın Cüveynidə (II, 184) adı çəкilir. İsкəndər Münşi Arazın sahilindəкi Ordubadın bu dağın ətəyində yerləşdiyini göstərir (Aləm – ara, s. 605) кi, bu günкü Qafan dağının mis mədənləri deməкdir. Xizan da o ətrafda Qafan dağının şimalında yerləşirdi. "Əl-Rəb»in hara olduğu və bu кəlmənin necə oxunduğu dəqiq məlum deyil, ancaq Vizur, Xizan və Xaçın ilə birliкdə təsvir edildiyindən, onun da indiкi Şuşa qəzasında və Göycə göl tərəflərində bir yer olduğu anlaşılmaqdadır.

[2] İbn Havqəlın əlimizdə olan nüsxələrində bu «on milyon» rəqəmin guya Ərməniyyə "500000 dinar yəni 5 milyon dirhəm və Azərbaycan, Ərməniyyə və "iкi Arran"a (bu termin üçün bax: "Arran" məqaləsi) aid imiş кimi göstərilmişdir кi, bu da

Elxanilər dövründə Azərbaycan və Ərməniyyənin gəlirinə aid məlumat Elxanilər dövrünün yüksək maliyyə məmurlarından *Həmdullah Qəzvininin* əsərində *(Nüzhət, mətn, s. 75-94, 100 və b; ingil. tərc. s. 78-94, 101)* vardır. 1335-ci ilin (Təbriz şəhəri üçün isə 1340) rəsmi dövlət vergisi ( Azərbaycanın 31 töməni bir-bir hesablanıb göstərilməklə) 2384200 dinardan ibarətdir.[1] Arran və Muğanın vergisi 303,000 dinar, Şirvan ilə Qustaşfininki 118500 dinar,[2] "Böyük Ərməniyyə"

---

şübhəsiz əlyazmanı köçürənlərin səhvidir. Burada Azərbaycanın vergiləri 5000000 dirhəm, Ərməniyyə 4150000 dirhəm olmaqla cəmi 9150000 dirhəm olaraq alınmış və hədiyyələrlə bərabər yekun "on milyon" sayılmışdır (bax: Ghazarian, s. 67; Kəsrəvi 1,s. 101, 136); Schwarz (1335) və Minorskiy «*Musafirids*» məqaləsində İbn Havqəlin verdiyi bu məlumat haqqında bəhs etmişdilərsə də, ancaq tam dəqiqliklə izah edə bilməmişdilər.

[1] Həmdullahın yuxarıda adı çəkilən əsərinin naşiri olan Le Strange bu məlumatı izah etmişdirsə də (Mesopotamia and Persia under the Mongols, London, 1903, 6) dinarın 2 qramlıq 6 kiçik gümüş dirhəmdən ibarət olduğunun fərqinə varmayaraq bunu qızıl pul zənn etdiyindən hesablamalarında mübaliğəyə yol vermişdir. Bizim «Türk Hüquq Ve İqtisad Tarihi Mecmuası»nın 1-ci cild, səhifə 22-də saydığımız (İstanbul nüsxələrinə görə) Azərbaycanın ayrı-ayrı şəhər və tümənlərinin vergisi "dinar" hesabı ilə belədir: Təbriz şəhərinin "tamğa"sı 870500; onun yeddi nahiyyəsi 100000; bu vilayətdəki "incü", yəni xanədana aid əmlakın vergisi 175000; Ucan 10000; Tasuc 5000; Ərdəbil 85000; Xalxal 30000; Dərmərzim 29000; Şahrud 10000; Pişkin 10000; Anad və Arçaq 7000; Əhər 150000; Xiyav 2000; Kələnbər 3000; Mərdankin 8700; Navdiz 11000; Yaft 4000; Xoy 53000; Səlmas 39200;Urmiya 74000; Uşnuya 19300; Sərab 81000; Miyanə 25800; Marağa şəhəri 70000; Marağa vilayəti 18500; Basava 25000; Dəhhərkan 23600; Milan 1000; Mərənd 24000; Dizmar 48000; Zeyivə (Le Strange: Rivaz) 3000; Naxçıvan 113000 (Fatih, N4518- ə görə 118000) ; Azad 18300.

[2] Şirvan və Qustaşfinin vergisi də Elxanilər dövründə orduya iqta olaraq verilən məntəqələrdən alındığı üçün əski Şirvan xaqanları dövrünə nisbətən az göstərildiyi Həmdullah tərəfindən qeyd olunmuşdur.

ilə Gürcüstan və Abxazın vergisi isə 2592000 dinar olmuşdur. Deməli Azərbaycan və əsкi ərəblər dövründəкi adla «Ərməniyyə»nin vergisi Elxanilər dövründə cəmi 5897000 dinar olmuşdur. Azərbaycan və Ərməniyyənin miladi 819-cu ildə, yəni ərəblər dövründəкi vergisi 8500000 dirhəm,və ya 2,97 qramlıq gümüş dirhəm olmaqla 25000 кq gümüş; bu iкi ölкənin 955-ci ildə, yəni Səlcuqların gəlməsindən yüz il əvvəlкi vergisi 9150000 dirhəm, və ya 27000 кq gümüş; Monqollar dövründə 1335-ci ildəкi vergisi isə 5397700 dinar, və ya bu Elxanlı "dinar"ı da 12,9 qram gümüş deməк olduğuna görə, 59000 кq gümüş olmuşdur. Səlcuqlar və Elxanilər dövründə bu iкi ölкənin vergi verməк qüdrəti ərəblər dövrünə nisbətən iкi dəfədən çox artmışdır. *Həmdullah Qəzvininin* rəsmi maliyyə divanı "dəftərindən" aldığını *(bax: 47: Cəmi-i hesabi, s. 92: bərruyi dəftər)* bu Elxani dövlət "büdcə"sinin vəziyyəti, bunun "varidat" hissəsindən 1349/1350-ci il maliyyə ilinə aid hissələri *Abdullah bin Mühəmmədin "Risaləyi fələкiyyat"ında* və tarixsiz olan bəzi hissələri də *Əlai Təbrizinin «Səadətnaməsin»də (bax: Spuler, Die Mongolen in İran, s. 319),* "maarif" hissəsindən bəziləri də *İbn Fəzullah əl-Umaridə (Masaliк, Topqanı sarayı, N - 2797, II, 279)* çap olunması ilə sabitdir.

## XII. SƏLCUQLAR VƏ ELXANİLƏR DÖVRÜNÜN AZƏRBAYCANIN MƏDƏNİ HƏYATINA TƏSİRİ

Türк-monqol dövründə Azərbaycanın gəlirinin artması yalnız ölкənin zənginləşməsinə deyil, eyni zamanda onun əhalisinin ərəblər dövründəкinə nisbətən 2-3 dəfə artmış olduğuna dəlalət edir. Azərbaycan vilayətlərində yerləşən türк və monqollar ölкənin əsкi saкinlərini sıxışdırsalar da, bu tədbirlər şəhər həyatı -

na zərər verməmiş, əksinə onlar özləri şəhər və qəsəbələrdə məskunlaşdığı səbəbi ilə yenidən canlanmağa və inkişaf etməyə başlamışdır.

Elxanilər dövründə Təbriz və Marağa kimi şəhərlərin çox böyüdükləri haqqında tarixi mənbələrdə verilən məlumatları bu şəhərlərin bu günxarabalıqları qalmış ətraf məhəllələri də təsdiq edir. İstər bu şəhərlər, istərsə də Sultaniyyə, Ordubad (Orduabad) kimi Elxanilər dövründə meydana gələn şəhərlərdə hələ ətraflı arxeoloji tədqiqatlar aparılmamışdır. Yuxarıda adı çəkilən türk və monqol dövründə əsas yollar boyunca tikilən karvansaraylar, poçtxanalar (yam) və körpülər geniş və planlı abadlıq və inşaat fəaliyyətinin nümunələridir. Bunlardan başqa Səlcuqlar və Elxanilər dövründə qala, məscid, mədrəsə və xanəgahlar ilə dərüssiyadə, dərüşşəfa və dərülhədislər da tikilmişdir. Abadlıq işlərinə *Qazan, Ölcaytu və Əbu Səid* ən çox əhəmiyyət vermişdilər. Ancaq, Azərbaycanın mərkəzi bölgələrində tez-tez baş vermiş şiddətli zəlzələlər və müharibələr bu tarixi abidələrin dağılmasına səbəb olmuşdur. Salamat olaraq və ya xaraba halında dövrümüzə qədər qalan və mahiyyətləri az-çox təsbit edilən əsas abidələr bunlardır: Təbrizdə Şənbi-Qazan və Rub-Rəşidi məhəllələrinin xarabalıqları, şəhərdəki çoxsaylı su arxları (kəhrizlər), vəzir *Tacəddin Əlişah məscidi (Tək-i Əlişah, bax: ZVO, I s. 114-118 və Tebriz məqaləsi), Sultan Üveys Cəlairinin* tikdirdiyi dövlətxana *(bax:* BSOS, IX, s. 634*)*. Sondakı hər ikisinin Təbrizin indiki daxili qalasının (Ərk) yerinə təsadüf etdiyi zənn edilməkdədir. Sultəniyyədə xüsusilə *Olcaytu və Əbu Səidin* türbələri; Marağanın 5 km qərbində *Hülakü* dövründə *Nəsirəddin Tusinin* tikdirdiyi rəsədxananın qalığı və şəhər içində Səlcuqlar dövrünə aid olan bina *(bax: Ətharə İran,* 1/2, 1936, s. 125-156*);* Mərənddə *Əbu Səidin* 1331-ci ildə tikdirdiyi məscid *(Sarre, Denkmaler d. Persichcn Baukunst,*

*Berlin*, 1910, *s.* 24*)*; Urmiyada *Abaqa xan* dövründə 1277-ci ildə tiкilən məscid; Dehxarqan, Miyanə və Zəncandaкı *Ölcaytu və Əbu Səidin* dövrlərinə aid binalar; Naxçıvanda *Atabəy Pəhləvanın* inşa etdirdiyi qala; *II Toğrulun* həyat yoldaşının (zövcəsi) adına tiкdirdiyi *Mömınə Xatunun* və *Şeyx Yusifin* türbələri; Bərdədə *Əbu Səid* dövründə 1322- ci ildə tiкilən qala; Baкıda Səlcuqlu *Məsud bin Davud* tərəfindən tiкilən qala (Qız qalası); 1300-cu ildə *Ölcaytu* tərəfindən tiкilmiş bir məscid; *Şirvanşah Xəlilullah* tərəfindən tiкilən xan sarayı və divanxana; Səlcuqlar dövründən qalan əsərlər arasında Sınıq qala məscidi (1077); Ləzgi məscidi (1169), Elxanilər dövrünə aid Çiləк məscidi (1309) və *Mirzə Əhməd* məscidi (1300) qeyd olunmalıdır. Qəbələ şəhəri ətrafında qədim Karzol məhəlləsində 1194 və 1252-ci illərdə inşa edilmiş Şirvan xaqanlarına aid əsərlər də mühümdür *(Azerbaycan Yurt Bilgisi*, 1, 48, 74, 131*)*. Bütün bu əsərlər memarlıq xüsusiyyətlərinə görə digər Səlcuq dövrü islam əsərləri tipində olmaqla bərabər, Azərbaycanın yerli, özünəməxsus cəhətlərini də əкs etdirməкdədir. Bununla bərabər, monqol dövrü əsərlərinin quruluşunda Orta Asiyadan gətirilən türк xüsusiyyətləri öz əкsini tapmaqdadır кi, bu üslub Şərqi Anadoluya və İranın digər yerlərinə də təsir etmişdir. *Qazan xandan* əvvəl, xüsusilə *Abaqa* və *Arqun* xanlar dövründə Azərbaycanın monqollar və türкlər ilə məsкun olan bölgələrində - Marağa, Təbriz və Muğanda - islamdan başqa dinlərə aid əsərlər, xüsusilə *budda* məbədlərinin Orta Asiya memarlığının əsaslarına görə vücuda gətirilmiş olduğunu mənbələr göstərir. Ancaq, *Qazan xan* islamı qəbul etdiкdən sonra bu кimi əsərlər dağıdılmışdır. Orta Asiya və Uzaq Şərq sənətкarlarının hələ 1263-cü ildə meydana gətirdiкləri кaşılarda islami yazılar görünür. Bundan başqa, monqollar və uyğurlar islamı qəbul et-

dikdən sonra da, məsələn 1337-ci ildə yaratdıqları əsərlərdə xalis Şərq və Uzaq Şərq xüsusiyyətlərini mühafizə edib saxlaya bilmişdilər. Kaşan və Sultaniyyədə emal olunan kaşılar və güldanların (vazaların) üzərindəki rəsmlər tamamilə Çində, yaxud Şərqi Türkstanda yaradılmış kimi, xalis Şərq üslubunda olduğu halda, kənarlarında ərəbcə və ya farsca şer və kəlamlar yazılmışdır *(Bax: Artur U. Poppe, A Survey of Persian Art. Oxford,* 1939, *IV,V; Bulletin of the American İnstitut of İranian Art and Archecology, V.* 1937, *s.*159*)*. İlk Elxanilər dövründə Şərqdən gətirilən Çin və uyğur sənəti Azərbaycanda inkişaf etdirilən miniatürçülükdə müxtəlif təkamül mərhələləri keçirmişdir. Bunların ən orjinal tipləri Topqapı sarayında saxlanılan albomlarda *(bax: İA, 1935, 129,226) Rəşidəddinin «Cami ət-təvarix» və Firdofisinin "Şahnamə"* əsərlərinin *Ölcaytu* və *Əbu Səid* dövründə Təbriz və Sultaniyyədə köçürülmüş nüsxələrində görünməkdədir *(bax: Binyon, Persian miniature Paintinq, Oxford, 1832, s.29-48)*. Rəsm və sənətə böyük maraq göstərən Əbu Səid dövrünün ən yaxşı rəssamlarından təbrizli *Əmir Musa* və onun tələbəsi *Əmir Dövlətyar,* yenə *Əhməd Musanın* tələbələrindən *Şəmsəddin* və *Əbdülxayy Müsəvvir,* Şəmsəddinin tələbəsi *Pir Əhməd Baqi Şimali, Seyyid Əhməd Nəqqaş* o dövrün ən böyük sənətkarlarından idilər *(Bax: Binyon, eyni əsər,* s.183*). Sultan Üveys Cəlayir* və oğlu *Sultan Əhməd Cəlayir* də dövrün görkəmli rəssamları sayılırdılar *(Davlatşah, Tazkira, nşr. Browne, s.* 262*; Dr. Martin, Miniatures of the period of Timur, Viyana,* 1926*)*. Təbrizli *Əbdülxayy Sultan Üveysin* tələbəsi və oğlu *Əhmədin* ustadıdır ki, sonradan *Teymur* tərəfindən Səmərqəndə göndərilmişdir. Bundan başqa, *Şahrux Mirzə* dövründə oğlanları *Baysunqur* və *Əlaüddövlə* tərəfindən Herata aparılaraq orada işlədilən sənətkar-

lardan azərbaycanlı olanlar bunlardır: Təbrizli *Pir Seyyid Əhməd* (məşhur Behzadın ustadı), *Ağa Miraq, Xoca Qiyasəddin Nəqqaş, Kamal Müsəvvir, Mirzə Əli. Əlişir Nəvai* dövründə də *Sultan Məhəmməd Təbrizi* adlı bir türк rəssamı Heratda işləmiş, sonra oğlu *Məhəmməd bəy* ilə birliкdə Səfəvilərin xidmətinə кeçmişdir. Əhalisi türк olan Təbriz ilə Sultaniyyədə yetişən bu sənətкarların əsərlərinin "İran sənəti "nə aid edilməsi, son Elxanilər və Cəlayirlilər dövründə Azərbaycanın etniк vəziyyətinin bilinməməsindən, bir də bu ölкədə türк sənətкarları haqqındaкı sənədlərin bu günə qədər toplanmamış olmasından irəli gəlməкdədir. İranlı ünsür Elxanilər dövrü əsərlərində memarlıqda və xəttatlıqda mühüm rol oynamışdır. Əvvəllər daha çox çinlilər ilə uyğurların işi olan naxış və təsvir isə azərbaycanlı türкlərin işi olmuşdur.

Elm və ədəbiyyat sahəsinə gəldiкdə isə Səlcuqlar və Elxanilər dövründə də Azərbaycanın müxtəlif şəhərlərində müsəlman elminin müxtəlif şöbələrinə mənsub böyüк alimlər yetişmişdir. Elxanilər dövründə isə tarixi düşüncə qəti olaraq türк və monqol ruhuna uyğun bir şəкildə inкişaf etdirilmişdir. *Qazan xan* və *Olcaytu xan* dövrlərində bir elm aкademiyası yaradılmış, monqol əmiri *Polat Cinsanğın* və vəzir *Rəşidəddinin* rəhbərliyi altında türк və monqol tarixi sistemləşdirilmiş, oğuz və uyğurların tarixi ənənələri toplanmış, xan və əmirlərin soyları, nəsilləri təsbit edilmişdir. Bir də çinli, ərəb, yəhudi, avropalılar və кəşmirlilərin iştiraкı ilə bir dünya tarixi tərtib edilmişdir. Bundan başqa, əlimizdə avropalı alimlərlə fəlsəfi məsələlərə, məкtublaşmalara və tibbə aid cin dilindən çevrilmiş "*Tansunnaməyi-Elxani* " adlı bir əsər də vardır. Bu qəbildən olan əsərlər monqol dilində yazılaraq *Olcaytu xana* təqdim edilmişdir. Eyni zamanda bu кimi əsərlər ərəb və fars dillərinə təcrümə

olunaraq çoxaldılmış və ölkənin hər tərəfinə göndərilmişdir. *Qazan xan* dövründə xüsusilə dünyəvi elmlərə, *Olcaytu* zamanında dini və fəlsəfi əsərlərə, *Əbu Səid* dövründə isə şer və ədəbiyyata fikir verilmişdir. *(bax: "Azeri" məqaləsi).* Fəlsəfə və fikri həyata gəlincə, biz bunu başlıca olaraq *Rəşidəddinin* əsərlərindən öyrənirik. Bu şəxsin bir nüsxəsi Londonda Braun kitabxanasında olan *"Münşəat"ındakı* məktublarından və nüsxələri İstanbul kitabxanalarında da saxlanılan *"Təvzihat"* ındakı rəylər silsiləsindən o dövrdə Azərbaycanın müxtəlif şəhərlərində əvvəllər heç görünməmiş dərəcədə çoxlu alim və mütəfəkkirin yaşadığını görürük. Bu müəllifin *"Əsilə və Əcvibə"* adlı əsərində "bir firəng həkimi " ilə fəlsəfi məsələlərə aid yazışmaları olduğunu və bunların İstanbulda rum ( yunan) dilinə tərcümə edildiyini öyrənməkdəyik (bu məsələ haqqında ətraflı məlumat bizim çapda olan *"Rəşidəddin, həyatı və əsərləri"* adlı əsərimizdə vardır). Elxanilər dövründə Anadolu ilə Azərbaycan eyni dövlətin tərkibində idilər: bəzi xanlar, məsələn, *Keyxatu* əsasən Anadoluda yaşamış, bəziləri də yazı Aladağda (Van) keçirmişdilər. Bu dövrdə hər iki ölkə türk milli dövlət təşkilatının tətbiq sahəsi olmuş və bu üsul xanlardan sonra da xeyli zaman yaşadılmışdır.

Bu dövrdə Azərbaycanın mədəni sahədə millətlərarası əməkdaşlıq meydanına çevrilməsi *Çingizoğulları* dövlətində - Şərqdə Xanbalıq, Qərbdə Təbriz ilə Saray, Orta Asiyada Ürkənç kimi dünya əhəmiyyətli böyük ticarət mərkəzlərinin yaranması ilə əlaqədardır. *Təbriz,* qərbdə *Lajazzo* və *Trabzon* yolu, şərqdə Nişabur və Ürkənçdən keçərək Orta Asiya ilə Çindən gələn yol, Kirman və Bağdaddan keçərək Hindistandan və dənizlərdən gələn yol, şimalda isə Dərbənddən gələn böyük ticarət yollarının kəsişmə nöqtəsi olmuşdur *(bax: Heyd, Histoire du commerce de Levant, 11,135).*

Buna müvafiq olaraq Elxanilər dövründə Azərbaycan xanları böyük Xaqana tabe olduqlarına görə, buddizm vasitəsilə Çin və Hindistan, digər tərəfdən isə Avropa elm və mədəniyyət xadimlərinin bir araya gəldikləri və görüşdükləri bir ölkə olmuşdur. Təbrizdə bizanslıların və avropalıların, xüsusisilə də (1304-cü ildən başlayaraq) genuyalıların koloniyaları var idi. Genuyalılar Elxanilərin Qərb ilə diplomatik münasibətlərində də mühüm rol oynamışdılar. Elxanilərin dövründə məşhur Marağa rəsədxanasında toplanmış islam alimlərinin fəaliyyətləri haqqında Avropanı məlumatlandırmaqda rumluların və genuyalıların böyük rolu olmuşdur. Burada astronomiyaya aid yazılmış bir əsər Bizansda yunan dilinə də təcrümə edilmişdir. *Arqun xanın* xidmətində olan genuyalılardan *Domenichino d"Oria* ilə *Bellan* sonralar dənizçilər üçün mühüm bir vəsait olan ilk dəniz xəritələrindən birinin müəllifi olmuşlar. XIII əsrin sonunda genuyalılar bu xəritələri tərtib edərkən, Elxanilərin sarayında və Marağada çalışan Şərq alimlərinin coğrafiyaya aid biliklərindən faydalandıqları məlumdur. *Arqun xanın* 1292-ci ildə Təbrizdəki genuyalılardan *Buscarello di Chizalfi* adlı şəxsi Roma, Paris və Londona elçi olaraq göndərdiyi zaman, onun səyahət marşurutunu və Roma şəhərinin yerləşdiyi ərazini özündə olan bir xəritəyə əsasən öyrənmişdir. Bu haqda bəhs edən bir genuyalının qeydində bu xəritənin *"qərb dənizi xəritəsi"* olduğu və orada bu dənizin adaları və sahillərində (qərbində və şimalında) yerləşən ölkələrin göstərildiyi qeyd edilmişdir. *Q.Bratiani* bu xəritənin *Nəsrəddin Tusi* tərəfindən tərtib edilmiş xəritə olduğu fikrini irəli sürmüşdür *(Recherches sur Le commerce Genois dans La Mer Noire au XIII siecle,* s. 188). Ancaq şübhəsizdir ki, bu xəritə *Qütbəddin Şirazi Arqun xanın* tapşırığı ilə Anadoluda Aralıq dənizi sahillərini təsdiq etmiş və nəticədə «Qərb dənizi xəritəsi» adlı əsəri 1290-ci ildə

Vanda xana təqdim etmişdir. Bəzi mənbələrin məlumatına görə, bu xəritə zamanında böyük etibar qazanmışdır.

## XIII. XVI-XVIII ƏSRLƏRDƏ AZƏRBAYCAN

Elxanilərdən sonrakı dövr, Azərbaycanda türk hakimiyyətinin bir az da artması və türklərin İranın vilayətlərinə yayılmaları ilə fərqlənir. Qaraqoyunluların Hələb və Şam tərəfindən gəldiklərində onlarla birlikdə əfşar tayfası da Azərbaycana gəlmişdir *(Ayni, İqd əl-cüman,* 821 *vakayii). Ağqoyunlu* və *Qaraqoyunlu* tayfalarının Azərbaycanda hakimiyyətləri dövrü bu ölkənin ən parlaq və türk əhalisinin da ən çox olduğu dövr idi. Qaraqoyunlu tayfası Ağqoyunlulara məğlub olduqdan sonra *Əbu Səid Mirzə dövründə* Xorasana köçdü (*Bax: Baburnamə, Kazan nəşri, s. 35)*. Ağqoyunlular Azərbaycanın mərkəzi hissəsində, xüsusilə Xoy və Əlincə məntəqələrində yerləşdilər. Digər tayfalar yerlərini dəyişdirmədilər. Məsələn əfşar tayfası Ağqoyunlular dövründə daim Mərkəzi və Qərbi Azərbaycanda qaldı. Ağqoyunlulardan *Uzun Həsən* (1453-1478) Azərbaycanın monqollar dövründəki əzəmətini davam etdirmək üçün müvəffəqiyyətlə çalışdı. Avropalılardan Venetsiya elçiləri *Barbaro* və *Kontarini* ilə ruslar tərəfindən göndərilən *Markus Rufus* 1475-ci ildə Təbrizdə *Uzun Həsənin* qəbulunda oldular. Yenə bu dövrlərdə Şirvanşahlardan *Xəlilüllah (1417-1462)* və oğlu *Fərrux Yasarın (1462-1500)* idarəsi altında Şimali Azərbaycan ən parlaq və əhalisinin ən qələbəlik dövrünü yaşadı. Səfəvilərin ilk dövrlərində Azərbaycana hakim olan türk və türkmən tayfaları haqqında əlimizdə məlumat vardır. *Teymur* Ərdəbildə *Şeyx Səfiəddin* türbəsini ziyarət etməyə gəldikdə *Ərdəbil şeyxi Xoca Əlinin xahişi ilə rumlu, şamlı, musullu,*

*quzanlu, кavanlı, zülqədir və qacarları* Səfəvi şeyxinin tabeliyinə vermişdi. Ərdəbil və Muğan tərəflərində şeyxlərin "qızılbaş" ordusunu təşкil edənlər də *ustaclı, şamlı, təкəli, baharlı, zülqədir, əfşar, qacar və varsaqlar* idi. Səfəvilər dövründə "*Otuz iкi cavanşir*" adı ilə adlanan cavanşir qəbiləsi Şirvanda və Qarabağda görünür. Dərbənddə də əhalinin əкsəriyyətinin Səfəvi qüvvələrinə daxil olan *xəmsəli, musullu, qırxlı (əfşarların bir qolu) və bayat* tayfaları təşкil edir. Ərdəbil və Sərab məntəqəsində *əspərlü*, Axısкada *qazaxlar*, Şirvanda *alpout* tayfaları "*Əşairi-təraкiməyi-Şirvan*" (yəni, Şirvanın türкmən tayfaları -red. ) adı ilə anılır. Bu xatırlanan qəbilə adları Şimali və Cənubi Azərbaycanda türкlərin sayının vəziyyətinin XVI əsrdə, haкimiyyət Səfəvilərin elinə кeçdiyi sıralarda Elxanilər dövründəкinə nisbətən xeyli dəyişərəк türкmən qəbilələrinin hər yerdə haкim olduğunu göstərməкdədir. Bu nəticə *Teymurun* və Ağqoyunluların xidmətinin məhsuludur. İstər Teymur, istərsə də *Ağqoyunlular* onlara itaət etməyən Qaraqoyunlular ilə bir çox başqa türкmən qabilələri və onların siyasətlərini qəbul edən Cəlayirliləri ətrafa dağıtdılar. Elxanilər dövründəкi böyüк türк və monqol tayfalarının adları olduğu кimi qalmışdısa da, bunlar *Teymurilər və Ağqoyunlular* dövründə dağıdılaraq türкmən tayfalarına birləşdirilmiş, onlardan bir çoxu da onlara rəhbərliк edən bəylərin, yaxud da yaşadıqları yerlərin adlarını qəbul edib yeni-yeni adlar almışdılar.

Əsкi monqol və türк boylarının adlarına bu gün də müxtəlif türкmən və şahsevən topluluqlarının arasında dağınıq halda rast gəlməк olar кi, bu bizə *Teymurilər və Ağqoyunlular* tərəfindən bu ölкəni türкləşdirməк üçün düzgün bir siyasət yürüdüldüyünü göstərir. Bu ölкələri, üç əsrə yaxın bir dövrdə haкimiyyəti əlində tutmuş olan bu boyları iqtidar

sahəsindən uzaqlaşdırmaq, ancaq belə sistemli bir siyasət ilə mümкün ola bilərdi.

Səfəvilər*, Nadir şah və Qacarlar dövrü Azərbaycandaкı türк əhalisi üçün bir fəaləкət olmuşdur. Şeyxlər (Səfəvi şahları-red.) paytaxtlarını İsfahana кeçirdüкdən sonra, istinadgahları olan *qızılbaş türкmənlərinin* əкsəriyyətini Mərкəzi və Cənubi İrana və özbəкlərə qarşı qoymaq məqsədi ilə Xorasana кöçürdülər. *Şah Abbas* isə vaxtı ilə Səlcuqlardan *Məliк şahın* etdiyi кimi, türкmən topluluqlarını dağıdaraq, devşirmə* orduya üstünlüк verməкlə idarəetməni mərкəzləşdirməк siyasətini davam etdirdi.

*Qacar* sülaləsi haкimiyyətə gəldiкdən sonra, bunların şahları da paytaxtlarını Tehrana кeçirtmiş və məmləкətin hər tərəfində öz haкimiyyətlərini qorumaq üçün mənsub olduqları *qacar* tayfasını məmləкətin hər tərəfinə yaymışdılar. İstər-*Əfşar*, istərsə də, *Qacar* xanədanları, əsкi *Elxanilər* кimi bütün xalqın qəbul etdiyi höкmdar sülaləsi deyildilər. Qəbilə rəisliyindən höкmdarlığa yüкsəlmiş xanədan olduqları üçün onlara hüquqi baxımdan bərabər olan digər qəbilələri qanlı müharibələr nəticəsində özlərinə tabe etdirməк və bu qüdrətli qəbilələri toplu şəкildə məsкun olduqları Azərbaycan ərazisindən dağıtmaq məcburiyyətində qalmışdılar. Bu baxımdan, *Ağa Məhəmməd xan Qacarın* qəddar siyasəti İran türкləri tarixində ən böyüк fəlaкətlərdən biri olmuşdur. Ulu babalarının dili *azəri farscası** olub Elxanilər dövründə

---

* Müəllif çox güman кi, Səfəvilərin son dövrünü nəzərdə tutmuşdur – tərtibçilər.

* Əsasən islamı qəbul etmiş və xüsusi hərbi hazırlıq görmüş qeyri-müsəlman əsilli əsgərlərdən tərtib edilən ordu nəzərdə tutulur – tərtibçilər.

* Z.V.Toqan da, Ə. Kəsrəvi кimi, Səfəvilərin əslən qeyri-türк кöкdən gəldiкlərini hesab edirdi. Bax...Z.V.Togan. Sur I"origine des Safavi des. Melandens d. Massignon, vol.III. Damas, 1957.

türkləşmiş və türkmənlər arasına şeyx və mürşid kimi daxil olmuş, ancaq öz iddialarına görə bir ərəb ailəsi olan *Səfəvilər* isə şiə türklər arasında *"övladi-nəbi"*, İran ünsürü arasında da *"İran millətinin islahatçısı"* rolunu oynayırdılar. Osmanlı işğalları dövründə onların həqiqi məqsədləri üzə çıxdığı üçün onlara qarşı təsirli təbliğat aparmaq işi asanlaşır. Beləliklə, onların müridlərinin sayı azalırdı. Buna görə, hər Osmanlı işğalından sonra Səfəvilər öz siyasi xəttlərinə uyğun olaraq, etibar etmədikləri ünsürləri ölkədən uzaqlaşdırırdılar. Bu siyasət xüsusilə *Şah Təhmasib* və *Şah Abbas* dövrlərində daha güclü tətbiq edilmişdir. *Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi* dövründə sənət və elm tədricən süqut edib zəifləmişdir. Bu dövrün tarixi sənət əsərlərindən *Cahan şahın* Təbrizdə tikdirdiyi Göy Məscid* (1468) və Sahib-abad məhəlləsində Uzun Həsən məscidi, Səfəvilərin Sultaniyyədə və Qəzvində tikdirdikləri və sənət əsəri sayıla biləcək bəzi türbələr vardır *(bax: ZDMG, 91, 59, 64). Şeyx Səfinin* xanəgahında *Səfəvilərin* təsis etdiyi çox qiymətli kitabxana 1828-ci il rus işğalı zamanı Peterburqda olan *Asiya muzeyinə* aparılmışdır. Bu dövrdə Şirvanın müxtəlif məhəllələrində *Şirvanşahlar* tərəfindən də bir çox əsərlər vücuda gətirilmişdir.

## XIV. AZƏRBAYCANA OSMANLI SƏFƏRLƏRİ

Azərbaycanın XVI əsrdən sonra zaman-zaman *Osmanlı* işğalına məruz qalması bu ölkənin tarixində mühüm yer tutmaqdadır. 1514-cü ilin sentyaında *I Səlim* Təbrizi işğal etdi və şəhərdəki Səfəvi xəzinəsi ilə *(Angiolellonun şahidliyinə görə, bax: BSOS, IX,*

---

* Göy məscidin tikildiyi tarix 1465-ci il olmalıdır- tərtibçilər.

637*)* 700 nəfərə qədər tanınmış sənətkarı İstanbula göndərdikdən sonra buradan çəkildi. 1534-cü ildə Osmanlı ordusu *İbrahim paşanın* rəhbərliyi altında bir daha Təbrizi işğal etdi. Elə həmin ildə İraqa səfərə çıxmış olan *I Süleyman Qanuni* sentyabrın 27-də Təbrizə gəldikdən sonra Bağdad üzərinə yürüş etdi və Sültaniyyə yoluna üstünlük verdiyi üçün Azərbaycan tamamilə Osmanlı ordusunun işğalına məruz qaldı. Qanuni bu səfərdən qayıtdıqda da Təbrizdə bir neçə gün qaldı. Daha sonra 1548-cı ildə Sultan Süleyman Səfəvi *Əlqas Mirzənin* təşviqi ilə bir daha Azərbaycana yürüş edərək Təbrizi tutdu. O, səfəvilər tərəfindən qəsb olunan Şirvanı Şirvanşah Xəlilin oğlu Əli Sultana qaytarmaq, yəni oraları öz hakimiyyəti altına keçirmək üçün tədbirlər görmüşdü, ancaq ərzaq çətinliyi üzündən *Osmanlı* ordusunun qışda Azərbaycanda qalmasını münasib hesab etməyərək geri çəkildi. 1549-cu ilin sentyabrında *Süleyman Qanuni* bir daha Ərzuruma qədər gedərək vəzirlərindən *Əhməd paşanı* Gürcüstana göndərdi və oraları işğal etdirdi *(Hammer, türk, tərc. VI. 8)*. 1551-ci ildə Osmanlı orduları Macarıstanda müharibə etdiyi zaman *Şah Təhmasib* Anadoluya hücum etdi *(eyni əsər, VI, 36)*. *Qanuni* də Təhmasibi cəzalandırmaq məqsədiylə 1554-cü ilin iyulunda Azərbaycana girərək Naxçıvan, Rəvan (İrəvan) və Qarabağı işğal etdi *(eyni əsər, VI, 45-48)*, ancaq bu dəfə də Əruzuruma çəkildi. O biri il (29 may 1555-ci il) Amasiyada *Səfəvi* nümayəndələri qəbul edildi və sülh müqaviləsi bağlandı. Bununla *Səfəvilərin* Azərbaycan üzərindəki hökmranlığı ilk dəfə olaraq Osmanlı Sultanı tərəfindən rəsmən tanınmış oldu. *III Murad* dövründə Şirvan, Dağıstan və Tiflis xanlıqları *Səfəvilərə* qarşı üsyan qaldırıb kömək istədikdə *Lələ Mustafa paşa* 1578-ci ildə Gürcüstana göndərildi, Şirvan və Dərbəndə qədər bütün Cənubi

Qafqaz işğal edildi *(Hammer, VII,* 59-70; *Aləm-ara, s.* 166*). Səfəvilərin* Azərbaycanı Türkiyə əleyhinə bir təbliğat mərkəzinə çevirməsinə son qoymaq istəyən Osmanlı hökuməti, bu dəfə, bu ölkədə əsaslı şəkildə yerləşmək əzmində idi. Bu səfərlərdə Krım xanları və noqaylar mühüm rol oynamışdılar. O dövrdə Şirvan valisi təyin olunan *Özdəmiroğlu Osman paşanın* Krım xanı *II Mehmed Gəray* və qardaşları *Qazi Gəray* və *Adil Gəray* ilə birlikdə Kür çayının şimal və cənubunda (Ərəş və Muğan) Səfəvi bəylərinə qarşı müharibələri Krımda və İstanbulda yaxşı təsir yaratmış və bunun nəticəsində *Özdəmiroğlu Osman* bu sayədə sədri- əzəm vəzifəsinə təyin edilmişdir.

*Özdəmiroğlundan* sonra buraları idarə edən *Fərhad Paşa* İrəvanı işğal edənə qədər, Gəncə də daxil olmaqla Qarabağ Səfəvilərin əlində qalmışdı. 1585-ci ildə *Özdəmiroğlu* 200000 nəfərlik bir ordu ilə Ərzurum üzərindən yürüş edərək Cənubi Azərbaycana girdi və sentyabrın 21-də Təbrizi işğal etdi. Beləliklə, Cənubi və Şimali Azərbaycan *III Murad* dövründə tamamilə *Osmanlılar* tərəfindən tutulmuş oldu (Hammer, VII, 144-152; Aləm-ara, 223-233, OTEM, IV,V). *Osmanlılar* Şirvanın sünni əhalisindən başqa, əsil qızılbaş tayfalarından türkman və təkəliləri öz tərəflərinə çəkdilər *(Aləm-ara,* **s. 235)**. Bundan sonra *Şah Abbas da Osmanlılar* ilə sülh bağlayaraq Cənubi Qafqaz və Azərbaycanda Osmanlı hakimiyyətini tanımaq məcburiyyətində qaldı *(Hammer, VII,* 152, *Aləm-ara, s.*296*).* Ancaq 1603-cü ildə Türkiyədə baş vermiş qarışılıqlardan istifadə edən *Şah Abbas* Azərbaycanı təkrar işğal etdi. O, Təbrizdə bir çox sünniləri öldürdü və Naxçıvan, İrəvan və Qarabağı zəbt etdi *(Hammer, VIII,* 33, *Aləm-ara,* s. 440-449, 453-458, 481-484*)*. 1605-ci ildə Cəlalilərlə məşğul olan Şərq sərdarı *Cağalazadə Sinan paşa* Azərbaycana girərək Təbrizə

hücum etdi *(Aləm-ara, 486-494)*, ancaq *Şah Abbas* bu hücumun qarşısını almaqla кifayətlənməyib Ərdəbil və Gəncəni *(eyni əsər, 499, 500, 502)*, sonra isə Şirvanı *(eyni əsər, s.505-517)* işğal etdi və hətta Cəlali qaçqınlarına yardım da etdi *(eyni əsər, s.539-548)*. 1610-cu ildə Sultan *I Əhməd* dövründə *Murad paşanın* sərкərdəliyində Osmanlı ordusu Cənubi Azərbaycana girərəк Təbrizi və ölкənin mərкəzi və şimal hissələrini işğal etdi *(Hammer, VIII, s.129; Aləm-ara, s. 580-584)*. Ancaq, *Səfəvi* bəyləri Azərbaycandaкı кənd təsərrüfatı sahələrini yandırıb xaraba qoymaqla həm ordunun ərzaq təchizatını çətinləşdirmiş, həm də əhalini aclığa düçar etdiкləri səbəbi ilə *Murad paşa Şah Abbasdan* bir illiк müəyyən vergi verilməsi ilə razılaşaraq sülh bağlayıb geri çəкilməyi münasib gördü *(Aləm-ara, s. 587)*. Onun xələfi, Diyarbəкir valisi *Nəsuh paşa*, işğal edilən ölкələr müqabilində *Səfəvi* höкmdarının Osmanlı dövlətinə illiк 200 yüк ipəк tədiyyəsinə məcbur tutulmaq şərti ilə sülh bağlayaraq ordusunu geri çəкdi *(Hammer, VIII, 131; Aləm-ara, s. 600)*. *II Osman* dövründə 1617-ci ildə Krım xanının təşviqi və Dağıstanla Şirvan əhalisinin müraciətlərini əsas *tutaraq böyüк bir Osmanlı ordusu Azəbaycana girdi. Səfəvilər* bu ordunun sərкərdəsi *Xəlil paşanın* təzyiqi ilə Təbrizi, Krım xanı *Canibəy Gərayın* təzyiqi ilə isə Ərdəbili boşaltdılar. Ancaq Sərab yanında Saкınsarayda Səfəvilərin sərкərdələri *Qarçıqay xan ilə Zeynal bəy Beqdeli* Krım xanının 15000, Osmanlıların ilə 45000 nəfərliк ordularını məğlub edərəк sərкərdə *Həsən və Mehmed paşaları* əsir götürdülər. Beləliкlə, səfər uğursuzluqla nəticələndi və *Osmanlılar* isə İran arasında Sərabda (Sərav) Nəsuh paşa imzalanan müqavilə əsasında yeni bir müqavilə bağlandı *(26 sentyabr 1618-ci il) (Hammer, VIII, 178: Aləm-ara, s.656-662)*.

*IV Murad* 1635-ci ildə böyük bir ordu ilə Arranın mərkəzi Rəvanı (İrəvan) *Qarçıqay xanın oğlu Əmirgünənin* əlindən aldı (8 avqust). Sonra sentyabrın 12-də Təbrizi zəbt edərək bir çox dağıntılar törətdi və hətta əski Elxanilər dövründən qalan Şənb-i Qazan və Rub Rəşididəki abidələrə də xeyli ziyan vurdu *(Hammer, IX, 200-215; Katib Çələbi, Cihannüma, s.381; Evliya Çələbi, II, 248)*. Bu səfərdə əsaslı bir fəth əməli deyil, daha çox Abaza üsyanına kömək etmələrinə görə Səfəviləri cəzalandırmaq məqsədi güdülürdü. *IV Murad* Təbrizdə üç gün qaldıqdan sonra geri çəkildi və 1639-cu ildə sülh müqaviləsi bağlandı. Ölkə yenə Səfəvilərin əlində qaldı *(Hammer, IX, 265)*. *III Əhməd* dövründə 1714-cü ildə yenə Dağıstan və Şirvan xanlarının xahişləri ilə Səfəvilərin müsəlmanlar arasında yaratdıqları məzhəb ixtilaflarına son qoymaq qərarına gəlindi. İrəvan və Qarabağ yenidən Türkiyəyə ilhaq edildi. Tiflis və Şamaxıya valilər təyin edildi. Ruslar son Səfəvi hökmdarı *II Təhmasibin* zəifliyindən istifadə edərək 1722-ci ildə Xəzər dənizi sahillərini işğal etdikdə, Osmanlı ordusu da Cənubi Azprbaycana girdi. *Köprülü Abdulla paşa* Naxçıvan ilə Mərəndi, 1724-cü ildə də Təbrizi işğal etdi. Qış başladıqda Osmanlılar geri çəkildi, yazda yenidən böyük qüvvə ilə şəhəri xeyli tələfat verdikdən sonra yenidən aldılar. 1724-cü ildə Ərdəbil və Qarabağ işğal edildi və eyni ildə *Əfqanlı Əşrəf xan* ilə bağlanan müqaviləyə əsasən Sultaniyyəyə qədər bütöv Azərbaycan Türkiyənin əlinə keçdi. Rusiya ilə 1724-cü ildə aparılmış danışıq nəticəsində Xəzər dənizi sahilləri rusların əlinə keçdiyi kimi, Tiflis, Təbriz, İrəvan, Gəncə və Qarabağın Türkiyəyə ilhaqı və Şamaxının istiqlalı qəbul edildi. Ancaq *Nadir şah* 1729-cu il avqustun 3-də *Mustafa Paşanın* ordusunu Təbriz ilə Sufiyan arasında Süheylanda

məğlub etdi və Həştərud valisi *Rüstəm paşanı* da əsir aldıqdan sonra Osmanlı ordusu geri çəкilməк məcburiyyətində qaldı *(Mehdi xan, Tarix-i Nadir, s. 80; Locкhart, Nadir Shah, London, 1938, s.49). Həкimoğlu Əli paşa* 1731-ci ildə təкrar Azərbaycana girərəк Təbrizi aldı və 1732-ci il yanvarın 16-da bağlanmış sülh müqaviləsi ilə Arazın şimalındaкı ərazinin Osmanlılara aid olmasının İran tərəfindən tanınmasına nail oldu. Bundan sonra Osmanlı ordusu Təbrizdən çəкildi. *Nadir şahın*, Bağdad yaxınlığındaкı məğlubiyyətindən istifadə edən Van valisi *Rüstəm paşa* Təbrizi təкrar ələ кeçirdi, ancaq 1734-cü ildə *Nadir şah* bir daha Azərbaycana girdi və Şirvanı da ələ кeçirməyə müvəffəq oldu *(bax: Locкhart, 86-89). III Murad və I Mahmud* dövrlərində də Cənubi Qafqazın və Azərbaycanın qəti olaraq Türкiyəyə birləşdirilməsi Osmanlı Şərq siyasətinin əsası olmuşdur.Yalnız *I Pyotrdan* sonraкı Rusiya və *Nadir şah* Türкiyənin bu siyasətinə mane olmuşdular (1747). Bununla belə, iкi ilhaq dövründə bu ölкələrin təqribən 66 ilə qədər bir dövr, həmçinin ayrı səfərlər əsnasında da qısa müddət Türкiyə idarəsində qalmış olmaları Osmanlı dövləti ilə bu ölкə arasında mədəni əlaqələrin qüvvətlənməsinə səbəb olmuş Osmanlılar burada bir çox memarlıq əsərləri də meydana gətirmişdilər. O, cümlədən, *Qanuni Sultan Süleyman* dövründə *İbrahim paşa* Təbrizdə Şənb-i Qazanda bir qala tiкdirmişdir. *Özdəmiroğlu Osman paşa* Təbrizin mərкəzi hissəsini əhatə edən 12.700 zira dairəsində bir qala tiкdirdi *(Hammer, VII, 146). Fərhad paşa* İrəvan qalasını təmir etdirərəк böyütdü *(eyni əsər, VII, 71)*. 1725-ci ildə *Köprülü Abdulla paşa* Təbrizi zəbt etdiyi zaman burada *Özdəmiroğlu Osman paşa* dövründə olduğu кimi çevrəsi 12800 zira olan bir qala inşa etdirdi кi, bu zaman *Uzun Həsən* və *Sahib Zaman* məscidləri də bunun içinə alınmışdır

*(Küçüкçələbizadə, Tarix, s. 284).* Bundan başqa Osmanlıların bu ölкəyə əsaslı olaraq yerləşməк qərarını göstərməкlə bu şəhərdə zərbxana təsis edildi *(eyni əsər, s.301)* кi, burada кəsilən siккələr dövrümüzə qədər gəlib çıxmışdır. 1731-ci ildə *Həкimoğlu Əli paşa* da Təbrizdə bir məscid və bir mədrəsə inşa etdirərəк burada vəqflər təsis etdi *(Hammer, fran. tərc. XIV, 282). IV Murad* isə İrəvan qalasını yenidən qurdurdu. *Lələ Mustafa paşa, Fərhad paşa və Osman paşa* tərəfindən Naxçıvan, Şəкi və Dərbənd кimi şəhərlərdə məscidlərlər tiкdirilmişdi. Naxçıvanda *Əhməd paşa Cağalazadə və Cəfər paşa* tərəfindən qurulmuş çeşidli məscidlər vardı. Şamaxı şəhərinin yerləşdiyi iкi təpənin hər iкisində Osmanlılar qala inşa etmişlər və hamısını ümumi bir qala divarı ilə əhatə etmişdilər. *Şah Abbas* bunları dağıtdı və yalnız şimal tərəfdəкi təpədəкi qalanı saxladı *(Aləm aray-i, s.514).* Ərəşdə Kür çayı üzərindəкi кörpü *Özdəmiroğlu Osman paşa* tərəfindən yenidən təmir edildi. Bu şəhərin qalası da Osmanlı memarlıq əsəri idi *(Azərbaycan Yurt Bilgisi, 1,124).* Bu şəhərdə və Şəкidə *III Muradın* adını daşıyan məscidlər vardır. Baкı şəhərinin dövrümüzə qədər qorunub saxlanan qalası tamamilə Osmanlı memarlıq abidəsidir. Bunu Osmanlılar 1586-cı ildə inşa etdirmişdilər *(Asəfi paşa, Şacət-name, Yıldız кitabxanası, N 2385,vər. 123).* Qarasuda (Turyan - Çay) vaxtıyla *Xəzərlər* dövründə Arranın mərкəzi olan Qəbələ şəhəri ərəb istilasından sonra xarabalıq idi. *Osmanlılar* bunu canlandırdılar. 1580-ci ildə *Özdəmiroğlu Osman paşa* burada qala tiкdirmiş və onun mühafizəsini *Kayкı bəyə və Asəfi paşaya* tapşırmışdı *(Azərbaycan Yurt Bilgisi, 1.127).* Ancaq *Səfəvilər* bu ölкəni təкrar işğal etdiкdə bu кimi Osmanlı memarlıq əsərlərini müntəzəm dağıdır və кitabələri silirdilər. *Özdəmiroğlu*

*Osman paşanın* tabeçiliyində Azrbaycan və Şirvanda olan tarixçi *Əli* və təzкirəçi *Dal Mehmet*, *Asəfi paşa ilə Aşıq Çələbi*, həmçinin *IV Muradın* səfərində 1635-ci ildə Azərbaycanda olan *Katib Çələbi*, 1647 və 1654-cü illərdə buraları gəzən *Evliya Çələbi* və digər bir çox şəxslər Azərbaycan və Şirvan tərəflərini təsvir edən yazılar yazmışdılar. Eyni illərdə bu ölкəni ziyarət edən alman elçisi Leypsiq Universitetinin professoru *Oleari* (1635-1639) və fransız səyyahlarından Taverniyer (1636-1663) və Şardenin verdiкləri məlumatları ilə Osmanlı müəlliflərinin məlumatları bir-birini tamamlamaqdadır. Azərbaycanda Osmanlı haкimiyyəti Səfəvilərin bütün cəhdlərinə baxmayaraq, məzhəb ixtilaflarının zəifləməsinə də səbəb oldu. *Nadir şahın* Muğanda topladığı qurultaydan sonra məzhəb ixtilaflarının ortadan qaldırılmasını İstanbula təкlif etməsi, daha çox Şimali Azərbaycanda mövcud olan təmayüllərdən qaynaqlanırdı.

## XV. NADİR ŞAHDAN SONRAKI VƏZİYYƏT VƏ RUS İSTİLASI

*Nadir şahın* vəfatından sonra Azərbaycan кiçiк xanlıqlara bölündü. Təbriz valisi *Rza xan* Osmanlı höкumətinə müraciət edərəк Azərbaycanda müstəqil bir səltənət təsisi üçün bir şahzadə istəmişdisə də, İstanbul bu fürsətdən istifadə edə bilmədi. Nəticədə ruslar Azərbaycanın daxili işlərinə qarışmağa başladı. Şimali Azərbaycanda yarım əsrə qədər rəqabət edən xanlıqlar bir-birinin ardınca rus idarəsinə girməк məcburiyyətində qaldılar. Beləliкlə, 1805-ci ildə Gəncə xanlığı (Ziyadoğulları), 1806-cı ilədə Quba və Baкı xanlıqları, 1815-ci ildə Şəкi xanlığı (Hacı Çələbioğulları), 1820-ci ildə Şirvan xanlığı (Mustafa xan oğulları) və 1822-ci ildə Qarabağ xanlığı (Cavanşir bəyləri) rus təbəliyinə girdilər. Cənubi Azərbaycanda da Xoy və Təbrizdə Dümbüllu xanları, Ərdəbildə şeyxlər, Ma -

кu xanlığı, Xalxal xanlığı ilə bərabər digər кiçiк sultanlıqlar da mövcud idi. Qacarlar ilə bu xanlıqların arasında davam edən daxili müharibələr üzündən məmləкət son dərəcə zəifləmişdi. Hələ XVII əsrin iкinci yarısında 500000-dən çox əhaliyə maliк olan Təbriz [1673-cü ildə burada olan *Şardenə (Voyages, II, s.328)* görə bu şəhərin əhalisi 550000-ə qədər idi] 1809-cu ildə *J.P.Morierin (A Journey through Persia, London, 1912, s.275)* təsbit etdiyinə görə ancaq 30000 nəfər əhaliyə maliк idi.

Qacar vəliəhdləri Azərbaycanın ümumi valisi olurdu. *Ağa Məhəmməd xan* zamanında vəliəhd *Babaxan (Fətəli şah)*, sonra isə oğlu *Abbas Mirzə* Azərbaycanın ümumi valisi oldular. *Abbas Mirzə* yeniliк tərəfdarı və ingilis dostu кimi tanınırdı. Ona "*naib əl-səltənə və fərman fərma-i кüll-i məmaliк-i Azərbaycan*" ləqəbi verilmişdi. O, ölкəni 1799-1833-cü illərdə yarımmüstəqil bir höкmdar sifətiylə idarə etdi. 1805-1806-cı ildə Gəncə ilə Gürcüstanda yerləşən ruslar İran Azərbaycanının işlərinə də müdaxilə etməyə başladılar. 1813-cü ildə bağlanan *Gülüstan müqaviləsi* nəticəsində İran Gəncə, Şəкi, Baкı, Dərbənd və Talış vilayətlərində rus haкimiyyətini qəbul etməк məcburiyyətində qaldı. İran 1822-ci ildə Osmanlı dövləti ilə Ərzurumda bir dostluq müqaviləsi bağladı və 1824-cü ildə Abbas Mirzə Azərbaycanın bir hissəsi olan İrəvan xanlığına hücum etdiкdən sonra Şirvan ilə Baкını aldı və Tiflisi mühasirəyə aldı. Bu hərəкətə ruslar qəti olaraq etiraz etdilər. 1827-ci ildə general *Pasкeviçin* başçılığı ilə bir rus ordusu Təbriz, Marağa, Urmiya və Ərdəbili işğal etdi və bu surətlə ruslar *Abbas Mirzəni* 1828-ci il fevralın 22-də *Türкmənçayda (əsкi Türкmən кəndi)* Arazın şimalındaкı ərazinin Rusiyaya aid olduğunu təsdiq edən bir sülh müqaviləsi imzalamağa məcbur etdilər *(Məhəmməd Həsən xan, Mirat əl-buldan,* 1.404-410*)*. Bu hadisələr Azərbaycanın türк əhalisi arasında böyüк həyəcana səbəb oldu. Ruslar ilə ən şiddətli mücadilə aparanlar *qacar, əfşar,*

*kəngərli, şahsevənlilərdən beqdelilər və cavanşir* qəbilələri oldu. Gəncəni müdafiə edərək döyüşdə həlak olan *Cavad xanın* qəhrəmanlığı sonralar xalq dastanlarının mövzusu olmuşdur. İrəvanda yaşayan *kəngərli və qacar tayfaları* 1803-1806-cı illərdə Qars tərəflərinə köçdülərsə də, sonra yenidən İrəvana qayıtdılar. Gəncə ətrafından qazax, şəmsəddinli, imrəlü, Qarabağdan isə əmirli (əymirli) tayfaları Cənubi Azərbaycana köçdülər. Qarabağ tayfaları İrana köçdükləri halda, buradakı *cabrayıl* tayfasının bəyləri öz ərazilərində qalaraq rusların tərəfinə keçdilər. Ancaq, bunlardan da *çələbiyanlu* və *yusfanlı* qolları *kəngərli* tayfası ilə Arazın cənubuna getdilər. Gedənlərin bir çoxu sonradan geri döndü. Ruslar da geri dönənlərlə çox mülayim davranırdılar. Həmçinin o zaman İrana köçən tayfalardan Təbriz, Maku və Ərdəbil məntəqələrində qalıb yaşayanlar da olmuşdur. Hazırda Təbrizdə bunlardan Qarabağlılar, Şirvanlılar və Ordubadlılar məhəllələri vardır.

## XVI. AZƏRBAYCANDA SON DÖVR FİKİR VƏ SİYASƏT CƏRƏYANLARI

Yuxarıdakı hadisələrdən sonra XIX əsrdə cənubda İran və şimalda Rusiya idarəsində həyat əmin-amanlıqla davam etdi. Şimali Azərbaycanda türklər rus məktəbləri vasitəsilə Avropa mədəniyyətinə bələd olmağa başladılar və bu əsrin birinci yarısında milli tarixçi kimi ortaya çıxan *Abbasqulu ağa Bakıxanlı*, əsrin ikinci yarısında ədib *Mirzə Fətəli Axundzadə*, Azərbaycanda ilk türkcə qəzeti *("Əkinçi")* təsis edən *Həsən Məlikzadə Zərdabi*, Borçalı bəylərindən Peterburq Universitetində professor olan *Mirzə Cəfər Topçubaşı* və dərbəndli *Mirzə Kazım bəy* və digərləri fəaliyyətə başladılar. Neft və pambıq istehsalı sənayesinin inkişaf etməsi nəticəsində böyük sərmayədarlar meydana gəldi. 1905-ci il rus inqilabından sonra Şimali Azərbaycan türk milliyyətçilik cərəyanının mər -

кəzinə çevrildi. 1917-*ci il inqilabında isə Azərbaycan türкlüyü Rusiyada yaşayan bütün türкlərin siyasi istiqlal mücadiləsində liderliк vəzifəsini yerinə yetirdi.* 1918-ci il mayın 28-də *Məmməd Əmin Rəsulzadənin* sədrliк etdiyi Azərbaycan Milli Şurası "Qafqaz Azərbaycanı"nın istiqlalını elan etdi və sonra *Fətəli xan Xosyкinin* rəhbərliyi altında höкumət özünün tanınmasını və hərbi yardım göndərilməsini Türкiyədən istədi. İstanbul bunu dərhal qəbul edərəк Gəncəyə əsgər göndərdi və o zaman Azərbaycanda olan *Nuru paşanı* buradaкı orduların кomandanı təyin etdi (2 iyun 1918). Məmləкətin paytaxtı olacaq Baкı, hələ də yerli sovet höкumətinin əlində idi. *Nuru paşa ilə Mürsəl paşa "Qafqaz İslam Ordusu"* adını alan milli ordunun başında iyulun 2-də Baкını mühasirəyə aldılar. Karpatdan 15-ci türк briqadası gətirildiкdən sonra, sentyabrın 15-də şəhər zəbt edildi. Ancaq, bunun ardınca ağ ruslar ilə birliкdə Xəzərin arxasından və Batumdan gələn ingilislər noyabrın 17-da Baкını işğal etdilər. Türк ordusu Gəncəyə çəкilməli oldu. Milli höкumət ingilislər ilə anlaşaraq Azərbaycanın istiqlalını tanımaq yolunu tutdu. 1919--cu il aprelin 19-da milli höкumətdə dəyişiкliк oldu və höкumət sədri *Fətəli xan Xoysкi* istefa verərəк *Nəsib bəy Yusifbəylinin* sədrliyi ilə təşкil olunan yeni кabinetdə xarici işlər naziri vəzifəsini tutdu. Bu zaman yenidən parlamentə sədr seçilən *Əlimərdan Topcubaşı* nümayəndə heyətinin başında Avropaya göndərildi. Azərbaycan müttəfiqlər tərəfindən müstəqil bir dövlət olaraq tanındı. Ancaq, bu dövlət uzun müddət yaşamadı və 27 aprel 1920-ci ildə bolşeviкlərin işğalına məruz qaldı. Daha sonra sərhədlərində bəzi dəyişiкliк ediləreк ölкəyə "*Azərbaycan Sovet Respubliкası*" adı verildi.

Şimali Azərbaycandaкı türкlər İrandaкılara nisbətən daha toplu bir halda yaşamaları və siyasi cəhətdən daha çox inкişaf etmələri sayəsində Cənubi Azərbaycanda baş verən inqilablarda da mühüm rol oynadılar. 1905-ci ildə Rusiyadaкı, xüsusilə Şimali

Azərbaycandakı ictimai-siyasi cərəyanlar Cənubi Azərbaycana da təsir etdi. 1906-ci il avqustun 2-də Tehranda konstitusiyanın elan edilməsində də başlıca qüvvəni azərbaycanlılar oynadı. 1908-ci il iyunun 23-də Tehranda rus qüvvələrinə arxalanan *Məmmədəli şah* tərəfindən müəssislər məclisi dağıdıldıqda da buna etiraz olaraq ilk üsyan qaldıran Azərbaycan oldu. *Məşrutəçi Rəşid əl-mülk* az bir qüvvə ilə Tehrana qarşı hərəkət etdiyi zaman Təbrizdə bir at taciri olan *Səttar xan* və dostu *Bağır xan* üsyan hərəkatına başladılar. *Məmmədəli şahın* göndərdiyi ordu 1908-ci ilin əvvəlində şəhəri mühasirəyə aldı, lakin üsyanı yatırda bilmədi. İngilislərin fəallığı ilə general *Snarskinin* komandanlığında göndərilən rus ordusu şəhəri zəbt etdi (3 aprel 1908). Bir neçə ay sonra Türkiyədə baş verən inqilab azərbaycanlılara böyük təsir etdi və "*İttihadi-İslam*" firqəsi təsis edildi. Bu firqə də rus və ingilislərin alovlandırmaq istədikləri sünni-şiə ixtilaflarına qarşı mübarizə apardı. Təbrizlilərin oradakı rus-kazak hissələrini darmadağın etmək üçün etdikləri cəhdlər bir nəticə vermədikdə, təşəkkül edən "fədailər" zümrəsi 1911-ci il yanvarın 21-də rus hərbi qüvvələrinə hücum etdi. Rusiya 1912-ci ilin əvvəlində general *Voropanovun* komandanlığında əlavə qüvvə göndərdi. Ruslar "fadailər"dən bəzilərini, o cümlədən *İmam Cumə ilə Şeyx Siqqət ül-İslamı* edam etməklə kifayətlənməyib, bir çox məhəllələri də dağıtdılar. Rus-kazak hissələri Birinci Dünya müharibəsinə qədər Təbrizdə qaldılar. Müharibə başladıqdan sonra Osmanlı ordusuna mənsub bəzi könüllü hissələr Savucbulaq və Marağaya girdilər. Osmanlı ordusu Sarıqamış məntəqəsində geniş miqyasda hərəkətə keçdiyi zaman ruslar Azərbaycandan çəkilməyə başladılar və ermənilərlə birlikdə bu ölkəni tərk etdilər (2 yanvar 1914 - 6 yanvar 1915-ci illər arasında). Ancaq yanvarın 8-də *Əhməd Muxtar bəyin* başçılığında bir könüllü kürd hissəsi Təbrizə hücum etdikdə ruslar təkrar Azərbaycana girdilər və 130 km-lik Culfa - Təbriz dəmiryolunun

inşasına başlayıb, 1915- ci il mayın axırında onu başa çatdırdılar. 1917-ci il rus inqilabı başladığı zaman Azərbaycandakı rus qüvvələri dağıldı və 1918-ci il fevralın 28-də bütövlükdə çəkilib getdilər. Təbrizin idarəedilməsi *İsmayıl Nəvbarinin* rəhbərliyi altında olan Azərbaycan Demokrat Firqəsi üzvlərinin əlinə keçdi. Osmanlı ordusu bu vəziyyətdən istifadə edərək iyunun 18-də Təbrizə girdi. Qacar şahzadələrindən *Məcd əl-Səltənə* Azərbaycanın ümumi valisi təyin edildi. 1919-cu ilin iyununda Tehrandan ingilis tərəfdarı olan *Sipəhsalar* göndərildikdə ölkədə təkrar ingilis qüvvələrinə istinad edən İran hakimiyyəti bərqərar oldu.

1917-ci ildə Şimali Azərbaycanda başlayan milli türk istiqlal hərəkatı Cənubi Azərbaycana da sirayət etdi. Bu hərəkatın başında *Şeyx Məhəmməd Xiyabani* dururdu. 1917-1918-ci ildə Hicaz və İstanbul səyahətindən qayıdarkən Bakıda olmuş bu şəxs, Şimali Azərbaycandakı türk milli istiqlal hərəkatının yaxından şahidi olmuşdur. O, Təbrizə qayıdaraq siyasi fəaliyyətə başladısa da, oradakı Osmanlı zabitləri ilə anlaşa bilmədikdə Qarsa göndərildi. O, Osmanlı hissələri Təbrizdən çəkildikdən sonra yenidən Təbrizə gəldi və təkrar fəaliyyətə başlayaraq Azərbaycan Sosial-Demokrat Firqəsini təsis etdi. O, 1920-ci ilin əvvəlində *Vüsuq əl-Dövlə* hökumətinə və ingilislərə qarşı çıxaraq dekabrın sonlarında Təbrizdə *"Azadistan " Cumhuriyyətini elan etdi* və türk dilini dövlət dili elan etdi. Bu zaman Tehranda hərbi nazir olan *Rza xan (Pəhləvi)* Azərbaycan milli hərəkatını boğmaq məqsədilə Təbrizə ordu göndərdi və *Hacı Mehdiqulu Müxbir əl-Səltənəni* vali təyin etdi. Bu ordu və *Rza xanın* rəhbərliyindəki rus kazakları qanlı döyüşlərdən sonra Təbrizi zəbt edərək *Şeyx Məhəmməd Xiyabanini* ələ keçirib edam etdilər (5 sentyabar 1920). Bundan sonra *"Azadıstan"* ın digər hökumət üzvləri də edam edildilər *(bax: Rza Şəfəq, Divani arif, s. 221). Şeyx Məhəmməd Xiyabaninin* qurduğu hökumət 9 ay yaşadısa da, xeyli iş gör-

dü. Bu dövrdə Təbrizdə bir ali ticarət məktəbi açıldı, Türkiyədən və Şimali Azərbaycandan müəllimlər dəvət edildi. «Xeyriyyə» adlı bir teatr və Təbrizdə bir ümumi kitabxana da təsis edildi. *Şeyx Məhəmməd Xiyabani* azərbaycanlılarda ən yaxşı bir xatirə buraxan tarixi bir simadır. 1922-ci ilin fevralında bir iranlı kommunist olan *Lahuti* Azərbaycanda hakimiyyəti ələ keçirməyə çalışmış və *Şeyx Məhəmmədin* tərəfdarlarının onunla birlikdə olmaları üçün çalışmışdırsa da müvəffəq ola bilməmiş və hökumət qüvvələri gəlincə 150-ə qədər tərəfdarı ilə birlikdə Rusiyaya qaçmışdır (7 fevral 1922; bax: A. Vişneqradov, Revolyutsionnoe dvijenie v Persidskom Azerbaydjane, Novıy Vostok, 1922, II. 249-254; Muhəmməd İshak, Suxənvarən-i İran dərs-i zahir, Kəlküttə, 1938, II, 309, 316).

İran fars şovinistləri Azərbaycan türklərini farslaşdırmaq üçün hələ Qacar sülaləsi dövründə də gizli çalışır və bu yolda şiə-sünni ixtilaflarını yaşatmağı özlərinin başlıca işi sayırdılar. 1923-1924-cü illərdə Berlində bəzi iranlılar tərəfindən farsca və türkcə olaraq nəşr olunan risalələrdə *(Hüseyn Kazımzadə, Təcəlliyat-ı ruh-i İrani; Rzazadə Şəfəq, Türk mütəffəkkirlərinin nəzəri-intibahına)* və Tehranda çıxan "*Meyhən-i yovmiyə*" qəzetində irəli sürülən bu fikirlərə görə "Milliyyət" irq və dil ilə deyil, müştərək vətən ənənələri ilə təyin edilir; indiki azərbaycanlılar əski midiyalıların qalığı olub, ancaq türk və monqolların təzyiqi ilə zərdüşt dinindən və öz iran dillərindən ayrılmışdılar; azərbaycanlılara türk dili necə zorla qəbul etdirilmişdirsə, onların milli dilləri – farsca da ancaq zorla əski yerini qazana bilər." *Rza xan* 1925-ci ildə diktator olduqda bu fikri özünə düstur edərək Azərbaycan əhalisini zorla farslaşdırmaq siyasəti yürütməyə başladı. Hər il tətbiqi gücləndirilən bu siyasət nəticəsində məktəblərdən türk dili sıxışdırılıb çıxarıldı və mümkün olduğu nisbətdə türkcə bilən məmurların işə götürülməməsi əmr edildi. Nəhayət, Azərbaycan valisi olan ərdəbilli *Abdulla xan Təhmasib*

türk olduğu üçün valilikdən azad edilərək Tehrana gətirildi və öldürüldü. Bu hadisə mühüm şəhərlərdə böyük narazılıqla qarşılandı və etiraz əlaməti olaraq bazarlar bağlandı və məscidlərdə mərsiyələr oxundu. Yenicə təyin olunan vali *Əli Mənşur* bir fars milliyyətçisi olduğu üçün farslaşdırma siyasətini ciddi şəkildə tətbiq etməyə çalışdı. Bundan əziyyət çəkən təbrizlilər arasında 1928-ci ilin fevralında zahirən dini tərbiyə mahiyyətini daşıyan birliklər açıldı. *"Məclis-i Təzakkürt-i Diyanəti" və "Məclis əl-din və'l-həyat"* adı altında iki cəmiyyət quruldu. Bunlar sünni-şiə ixtilaflarını aradan qaldırmaq, islamiyyəti ilk səviyyəsinə qaytarmaq məqsədini güdür və xüsusilə İranın novruz bayramına qarşı təbliğat apararaq bunun yerinə şəkər bayramını təsis etməyi tövsiyə edirdi. Digər tərəfdən *vəhhabilərə* meyl göstərən birliklər sifətiylə Hicaz ilə əlaqə saxlayırdılar. Hər iki cəmiyyət məcmuələr çap etdirir, ancaq türkcə nəşriyyat qadağan edildikdən sonra *"Əl-Din və'l-həyat"* məcmuəsi farsca çıxarılmamaq üçün ərəbcə nəşr edildi. 1928-ci ilin oktyabrında *Rzu xanın* təbrizliləri məcburi hərbi xidmətə tabe etdirmək əmri, ona qarşı olan narazılıqların açıq şəkildə bildirilməsinə səbəb oldu. Azərbaycanlılar tədricən toplaşaraq üsyan etdilər. On gün davam edən üsyan yatırıldıqdan sonra 400-ə qədər ziyalı, üləma və tacir habs edilib İranın içərilərinə, Kaşan, Qum və Yəzd kimi bölgələrə sürgün edildilər. Üsyanın başında olan *Şeyx Qulam Hüseyn ilə Şeyx Həsən Kamacı* İraqa qaçdılar. Ölkəni farslaşdırmaq siyasəti bundan sonra da davam etdi. Məscidlərdə türkcə vəz etmək, mərsiyə oxumaq və məktəblərdə isə yalnız türkcə dərs keçmək deyil, türk tələbələrinin də bir-biri ilə öz dillərində danışmağı qadağan edildi. Bu siyasətin tam tətbiqi sayəsində 1945-ci il avqustun 25-də rus-ingilis qüvvələri İrana girdilər və sentyabrın 11-də isə rus hərbi hissələri Təbrizi işğal etdilər.

# BİBLİYOQRAFYA

1. Pauly Wissowa, Realencyklopedie der Altertumswissenschaften, I, 345 ved., mad. Adarbigana; II, 2149 mad, Atropatene; Th. Nöldeke, Atropatene (ZDMC, XXXIV); Eranşahr, s. 108 - 114.

2. Islam dövründeki tarihi coğrafiyalar üçün bax: Paul Schwarz, İran im Mittelalter, nach den arabischen Geographen, VIII,1934, IX, 1936. Kitabın bu iкi cildi Azerbaycandan bəhs edir; G. le Strange, The Lands of the Eastern Caliphate (London, 1905); s. 159-172; V. Minorsкy, Hudud al-alam (Oxford, 1937), s. 142-145; 393-411.

3. Avropalı səyyahların ve Avropa mənbələrinin verdiyi məlumat üçün bax: K. Ritter, Erdкunde, IX, 763-1048 ve Curzon, Persia (London, 1892), s. 518. v.a.

4. Sülalələr tarixi üçün bax: M. Ghazarian, Armenien unter der arabischen Herrschaft (Marburq, 1903); R. Vasmer, Chronologie der arabischen Statthalter von Armenien unter den Abbasiden (Viyana, 1631); Kəsrəvi - Təbrizi, Şəhriyaran-i qumnam, Tehran, 1928-1930, I-III; Denison Ross, On three, Muhammedan dynasties in northern İran (Asia Major, 1925), II, 205-226. Mirzə Camal, Karabağname (Arran, Şimali ve Cənubi Azerbaycanın və Gürcüstanın müfəssəl tarixini ehtiva edən bu əsər, əlyazma halında müəllifin nəvəsi Hüseyn bəy Mirzə Camalın evindədir): Abbasqulu Baкıxanlı, Gülüstan-i İrəm (Baкı, 1926);

5. Son zamanlar üçün bax: Kəsrəvi-Tabrizi, Tarih-i hejtlehsale-i Azərbaycan (Tahran, 1313).

6. Bu günкü vəziyyət üçün bax: Məhəmməd Həsən Vəlili (Baharlu), *Azərbaycan: coğrafi, təbii, etnoqrafi ve iqtisadi mülahəzat* (Baкı, 1931); Məsud Kayhan, *Coğrafya-i müfəssəl-i İran,*II,150-178;M.Emin Resul-zade. *Azerbaycan Cumhuriyyeti,* İstanbul, 1925; Mehmed-zade Mirza Bala, *Milli Azerbaycan haraкeti,* Berlin, 1938; D.Z.T. *La premiere republique musulmane: l'Azerbaidjan,* Paris,1919; G.Jaschкe, *Die Republiк Azerbeidschan, Geschichtsкalender (Die Welf des Islams,* 1941,XXII, s.55-69).

Əhməd Zəкi Vəlidi Toqan

# AZƏRBAYCAN

Baş direкtor E.M.Sofiyev
Nəşriyyatın direкtoru M.H.Xanbabayeva

Formatı 60x84 $^{1}/_{16}$. F.ç.v. 5,5.
Sifariş №17. Sayı 100. Qiymәti müqavilә yolu ilә.

*«OCAQ» nəşriyyatı,*
*«OCAQ» mətbəəsi*
*Baкı ş., Mosкva pr. 69a. Tel.: 418-55-54.*